**Əhməd Ağaoğlu**

# SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ

**İlk nəşr: 1930, İstanbul.**

# SƏRBƏST DÜŞÜNCƏLİ İNSAN

İnsanlar tanış olarkən əvvəl adını deyir, adını soruşur, söhbət zamanı yaxın olub-olmadığını sınayır. Sonradan ya elə tanışlıqla kifayətlənir, ya da daha dərin ünsiyyət nəticəsində dost olub, dost tapırlar... Kitablarla da o cür davranırsan. Əvvəl kitabın, müəllifin adına diqqət yetirir, tanış olub-olmadığını yada salırsan. Sonra ya kitabı tamam kənara qoyur, ya da ki, kitab səni özünə çəkdiyindən oxumağa başlayırsan. Nəticədə, bəlkə də dost, həmsöhbət tapırsan.

İndicə vərəqlədiyin kitabın adı və müəllifiylə tanış olarkən, istər-istəməz sual ortaya çıxır: bu hansı ölkədir belə? Coğrafi xəritədə elə ölkə varmı? "Sərbəst insanlar" kimə deyirlər? Əhməd bəy Ağaoğlu kimdir? Bu kitab nə vaxt yazılıb və kimə ünvanlanıb? Həmin sualların arxasında isə başqa, daha kəskin sual durur: görəsən, bu kitabı oxumağa dəyər?

Sonuncu suala cavabı nə biz - kitabı çapa hazırlayanlar, nə də Ağaoğlu (sağ olsaydı) verə bilər, ən azı ona görə ki, tanışlığımız yoxdur. Sənin hansı kitablara üstünlük verdiyini bilmirik. Onu da bilmirik ki, azadlıq məsələləri səni düşündürür ya yox, asılı olmaqdan bezmisən ya yox, kölə olmamaq sənin üçün vacibdir ya yox? Axı köləyə nə azadlıq, nə sərbəstlik, nə düşüncə, nə kitab?

Bu səbəbdən elə bəri başdan deyək ki, azad, sərbəst olmaq istəyənlərə ünvanlanıb bu kitab. Kölə olmaqdan bezənlərə ünvanlanıb. Deməli, "maraqlıdır ya yox?", "mənim kitabımdır ya yox?" qəbilindən olan suallara sən özün cavab tapmalısan. Bircə onu deyə bilərik ki, kitabı kənara qoymağa tələsmə. Bəlkə səni düşündürən məsələlərin heç olmasa bir qisminə cavab tapdın bu kitabda...

Ola bilsin ki, Əhməd bəy Ağaoğlunu çoxunuz tanımırsınız. halbuki o, bizim dövrümüzün, bizim yüzilin ən parlaq simalarındandır. Sabir kimi, Mirzə Cəlil kimi, Üzeyir Hacıbəyli kimi, Məmməd Əmin Rəsulzadə kimi, Hüseyn Cavid kimi, Əlibəy Hüseynzadə kimi, Əlimərdan bəy Topçubaşov kimi. Onlar millətinin nadanlığı ilə heç vaxt barışa bilməyiblər, axı nadanlar həyatda son dərəcə aciz olur, onları kölə halına salmaq rahat olur.

Əhməd bəy bu kitabı 1930-cu ildə Türkiyədə yazıb. Elə bil anlayıb ki, 50; 60; 70 il keçəndən sonra da bu kitab Azərbaycanda əhəmiyyətini itirməyəcək. Axı bir qismimiz, Əhməd bəy demişkən, hələ "iç zəncirləri"mizlə yaşayırıq, nə sərbəst olmaq haqqında düşünürük, nə də köləliyimizi lənətləyirik. O biri qismimiz azad olmağa can atsa da, ya qorxur, ya qətiyyətsizlik göstərir, ya da sadəcə olaraq, sərbəstlik haqqında, "sərbəst ölkə" haqqında məlumata ehtiyac duyur. Bax, əsasən bunlara, köləlikdən yaxa qurtarmaq istəyənlərə, heç kəsdən qorxmaq istəməyənlərə, beli dik yaşamaq istəyənlərə müraciət edir, sözünü deyir Əhməd bəy.

Bir neçə kəlmə Əhməd bəyin həyatı haqqında. Bu həyat yoluna diqqət yetir və qərarı özün ver.

Əhməd bəy Ağaoğlu 1868-ci ildə Şuşa şəhərində anadan olub və 1939-cu ildə İstanbulda dünyasını dəyişib.

Əvvəl Şuşada, litseydə oxuyub. Sonra Tiflisdə, gimnaziyada. Sonra Parisdə, hüquq məktəbində və məşhur Sorbon universitetində.

Azərbaycan (o zaman "türk" deyilirdi), rus, fars, ərəb, fransız, ingilis dillərini mükəmməl bilib.

Şuşada, Bakıda, Parisdə, İstanbulda, Peterburqda yaşayıb və işləyib. Maltaya sürgün olunub.

Şuşada - fransız dilindən dərs deyib (ona hətta "Firəng Əhməd" deyərmişlər), İstanbulda - rus dilindən.

Nijni-Novqorod və Peterburqda keçirilən Rusiya müsəlmanları qurultayının təşkilatçılarından biri olub.

Azərbaycan Demokratik Respublikası dövründə parlamentin üzvü və parlament sədrinin müavini seçilib.

Türkiyə Mətbuat İdarəsinin baş müdiri olub. Parlamentin üzvü, millət vəkili seçilib. Ankara və İstanbul universitetlərinin professoru olub.

Parisdə, biliyinə görə, elmi və ədəbi salonlara dəvət alıb (salonlara seçilmiş adamlar dəvət alırdılar), intellektual çəkili söhbətlərə və mübahisələrə qatılıb. Dünya şöhrətli alimlər Ernst Renan və İppolit Tenlə yaxından tanış olub, onların rəğbətini qazanıb.

Azərbaycanlı neft sahibkarlarının tapşırığı ilə Peterburqda iki dəfə rus çarı II Nikolayla görüşüb, danışıqlar aparıb və bu danışıqlar uğurla nəticələnib.

İstanbulda "dahi rəhbər" (Ağaoğlunun sözləri) Mustafa Kamal Paşa Atatürklə tanış olub və uzun illər onun məsləkdaşına çevrilib. Türkiyə və türk dünyasının məşhur xadimləri Ziya Göyalp, Yusif Akçura, Həmdulla Sübhi, Mehmet Emin Yurdaqulla əməkdaşlıq edib.

Bakıda öz dövrünün ən tanınmış, ən qüdrətli azərbaycanlıları ilə dostlaşıb: Üzeyir Hacıbəyli, Əlibəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Məmməd Əmin Rəsulzadə.Firudin bəy Köçərli və başqaları bu qəbildəndir.

Şuşada kitabxana-qiraətxana açıb (o dövrü təsəvvür et: mollaxanaları nəzərdə tutmasaq, nə məktəb var, nə də oxuyanlar. Əksəriyyət nəinki savadsızdır, hətta savadlı olmaq istəmir).

Bakıda "Difai" (Müdafiə) partiyasının yaradıcılarından biri olub. "Həyat", "İrşad" , "Tərəqqi" və "Proqress" (rus dilində) qəzetlərinin açılmasında iştirak edib (maraqlansan, bu qəzetlərin nüsxələrini kitabxanada tapa bilərsən. Gör o zamanla bizim zamanın, o dövrün qəzetləri ilə indiki qəzetlərin hansı oxşarlığı və hansı fərqi var). "Cəmiyyəti-xeyriyyə", "Nicat", "Nəşri-maarif" , "Səadət", "İttihad" cəmiyyətlərinin təşkilinə qoşulub.

Türkiyədə Demokratik Cümhuriyyətin yaradılmasında fəaliyyət göstərib. Anadolu agentliyini yaradıb. "Hakimiyyəti-milliyə" qəzetinin yaradıcılarından biri olub. "Sərbəst firqə"nin (partiya) yaradılmasında iştirak edib.

Parisdə, Bakıda, İstanbulda minlərlə (!) məqalə çap etdirib (bu miqdarı aydın təsəvvür etsən, heyrətə gələrsən). Onlarca kitab yazıb, bəzisi ölümündən sonra çap olunub. Yazıları siyasət, iqtisadiyyat, tarix, fəlsəfə, etika, etnoqrafiya və başqa sahələri əhatə edib.

Əhməd bəyin gözəl ailəsi varmış. Yeddi övlad atası olub. Bunlardan ikisi - Vəzir və Bəşir adlı oğulları kiçik yaşlarında dünyalarını dəyişiblər. Qalan beş nəfəri - Süreyya, Tezer (Təzəxanım), Əbdürrəhman, Səməd və Gültəkin mükəmməl təhsil alaraq Türkiyədə ad qazanıblar.

Bu stenoqrama bənzər siyahı azmı şey deyir? Bu qədər iş görmək üçün nə qədər zəhmətkeş olmalısan, necə iradən olmalıdır. Bu zəhmətkeşliyin, bu iradənin arxasında isə böyük amal, böyük məqsəd və bu məqsədə yetişmək üçün böyük ehtiras olmalı idi. Müdriklərdən biri demişkən, bu dünyada böyük ehtirassız böyük işlər görmək alınmır. Əhməd bəy tükənməz ehtiraslı insanlardan olub. Əhməd bəyin həyatı barədə fikir yürüdərkən o dövrü, o dövrün ab-havasını da təsəvvür etmək vacibdir. Onda anlayarıq ki, niyə öz məqsədləri uğrunda daim vuruşub döyüşməli olub, niyə bilavasitə və ya məcazi mənada "yumruqlara, qapazlara, təpiklərə" dözməli olub. Başa düşməliyik ki, kimə qarşı vuruşub, kimlər onu hədələyib, hansı çətinliklərlə, hansı maneələrlə üzləşib.

Əhməd bəyin sonralar yazdığı kimi, zərbələr ilk məktəb illərində başlayıb.

Əhməd bəyi rus gimnaziyasına veriblər (Şuşada o zaman yalnız rus gimnaziyası vardı). Orada vur-tut, dörd azərbaycanlı balası oxuyurmuş. Balaca Əhməd beşinci olub. Bu beş nəfər nələr çəkirmiş: "tənəffüslərdə biz beş türk çocuğu, cəld tərpənib arxamızı divara dirəməyi qənimət bilərdik. Yüzlərlə çocuq qəflətən üstümüzə hücum edər və biri başımızdan papağı alıb atardı. Qalanları dörd-beş altun qiyməti olan Buxara dərisindən tikilmiş papaqları təpiklə kos kimi ora-bura vurardı. Bəziləri əksərən dəvə yunundan toxunmuş bahalı pencəklərimizin ətəklərindən yapışar, o yan - bu yana çəkib parçalayar, dartıb tikişlərini sökərdi. Müqavimət göstərmək fikrinə düşəndə yumruq, qapaz, təpik altında bizi əzərdilər. Bəzən gizlində, sözü bir yerə qoyub, üzərimizə böhtan atar, üzümüzə durar, bizə haqsız yerə cəza verdirərdilər. Dostlarımızın çoxu dözə bilməyib, məktəbi tərk etdilər.Türklərdən yalnız mən son sinfə qədər tab gətirə bildim".

Həmin məktəb indi oxuduğunuz məktəbdən fərqlənir, deyilmi? O dörd nəfəri də qınamayaq, belə şəraitdə oxumaqmı olar? O biri tərəfdən gənc Əhmədin iradəsinə, dözümünə, hövsələsinə heyran qalmamaq mümkün deyil.

Ədalət naminə onu da deyək ki, Əhməd bəy o gimnaziyada işıqlı və nəcib müəllimlərin olduğunu da xatırlayır: "bu təvazökar, vəzifələrini diqqətlə yerinə yetirən, qəlbi məslək eşqi ilə dolu insanları xatırlarkən, indi də dərin minnətdarlıq və təşəkkür hissi keçirməkdən özümü saxlaya bilmirəm. Onlar məndə və mənim bütün yoldaşlarımda elmə, irfana, haqqa, həqiqətə dərin inam və məhəbbət doğuraraq bizim üçün həyat yolunu işıqlandıran nurlu məşələ çevrildilər".

Məktəb illəri geridə qalandan sonra bu təqiblər sona çatdımı? Özgələrdən Əhməd bəyin yaxası qurtardımı? Əfsuslar olsun ki, özgələr əl çəkmədi. Heç özümüzünkülər də onlardan geri qalmadı.

Bu hadisə 1908-ci ildə Bakıda baş vermişdi. Artıq Əhməd bəy tanınmış ədib və ictimai xadim idi. Düşmənləri də çoxalmışdı. Həm əqidəsinə görə, həm də xasiyyətinin tündlüyünə görə. Bunların nəticəsi kimi, 1908-ci ildə Bakının ictimai yığıncaqlar salonunda (indiki flarmoniya binasında) "dərs vermək" üçün Əhməd bəyi muzdla tutulmuş qoçulara döydürmüşdülər. Özümüzünkü sayılan qoçular məktəb illərindəki özgələrdən də dəhşətli idi-lər. Axı onlar - o "özgələri" heç olmasa "çocuq" sayılırdılar.

Əhməd bəy o illəri xatırlarkən yazırdı: "Şiddətli təqib edilənlər arasında idim. İş belə bir dərəcəyə çatmışdı ki, artıq daha izzəti-nəfsimin deyil, ailəmin də sakitliyi və salamatlığı təhlükə altına düşmüşdü".

Sual verə bilərsən: "bəs necə olur ki, uşaq vaxtı balaca Əhmədi özgələr döyürdü, tanınandan sonra - özümüzünkülər? Təqiblər həm kənardan gəlirdi, həm içəridən? Bəyəm Əhməd bəy millət uğrunda vuruşmur, millət uğrunda maneələrlə rastlaşmır, millət uğrunda əziyyətlərə qatlaşmırdı? Bəyəm millətimizin düşmənləri Əhməd bəyin düşmənləri olmayıb?".

Əvvəla, onu deyək ki, Əhməd bəy millət uğrunda mübarizə aparsa da, heç vaxt "özgələri" millətin düşmənlərinə və millətin dostlarına bölmürdü. "Düşmənə" gəlincə, artıq dedik ki, başqa görkəmli Azərbaycan xadimləri kimi, Əhməd bəyin də bircə düşməni vardı - xalqın nadanlığı. Axı insan, yaxud xalq, nadan oldusa, deməli, aciz olacaq, aciz oldusa, deməli, kölə olacaq,«kölə oldusa, deməli, istibdad (tiraniya) hökm sürəcək, deməli, insanlar dolğun, faydalı həyatdan kənarlaşacaq, deməli, inkişaf olmayacaq, xalq, millət başqa xalqlardan, millətlərdən geri qalacaq, kasıblığa, dilənçiliyə məhkum olacaq.

Bunları başa düşən Əhməd bəy acı təbəssümlə etiraf edirdi ki: "...qonşularımız yanı - başımızda günü-gündən tərəqqi və təali edir, ermənilərin, gürcülərin, musəvilərin (yəhudilərin), baxüsus rusların təmimi-maarifə himmət-güzar olan cəmiyyətləri sayəsində ziyayi-maarif köylərdəki gülbənişin köylülərin pəncərələrindən içəri girdiyi ruzi-rövşəndə, bizim köylülərimiz də, şəhərnişinlərimiz də məsəlli bir zülməti-əbədiyi-cəhl aləmində məhv olub gedirdi".

Bu mətnin bir çox sözlərini başa düşməsən də ( müəllimin kömək edə bilər), çox güman ki, mənası sənə aydındır. Yəni başqa millətlər inkişafda, maarifdə olduğu halda, bizləri cəhalət bürüyüb, zülmətdən xilas ola bilmirik.

Əhməd bəy Sabir kimi, Mirzə Cəlil kimi, başqa xadimlərimiz kimi "Oyanın, oyanın, ey qəflət yuxusunda uyuyanlar!" deyə xalqa üz tuturdu.

Bu, müraciət də deyildi, çağırış idi. Bu, çağırışdan da güclü idi. Bu, həyəcan təbili idi. Bu fəryad idi. Bu "zülməti-əbədiyi-cəhl"ə qarşı üsyan idi.

Əhməd bəy, elə bil, bizlərə deyirdi ki, daha bəsdir, yetər, daha barama kimi öz qınına qapanıb yaşamaq olmaz, daha letargiya yuxusuna qərq olmaq dəhşətlidir.

Azərbaycanın o vaxtkı müdrikləri ("Sərbəst insanlar ölkəsində" bu müdriklərə pirlər deyilir) xalqı buna səsləyirdilər. Bu amallar uğrunda vuruşurdular.

Əhməd bəyin maneələri də bu idi, keçilməz görünən divarları da, yüzbaşlı divə bənzər "düşməni" də. Bütün həyatının məqsədi, amalı, mənası da həmin "divlə" mübarizə idi.

Bu məqsəd, bu amal olmasaydı, Əhməd bəy başqa cür yaşaya bilərdi. Daha sakit, daha firavan. Maneələrsiz, zərbələrsiz, hücumlarsız.

Parisdə olarkən, Fransa alimləri, fransız müdrikləri Əhməd bəyin hazırlıqlığını, biliyini görərək ona Parisdə qalmağı təklif etdilər. O zamarı olduqca məşhur olan Ernst Renan Əhməd bəyə üz tutub söyləmişdi:

- Sən dünya miqyasında alim olacaq səviyyədə bir insansan, məmləkətinə getmə, Şərq səni udar.

Əhməd bəy isə cavabında demişdi ki:

- Şərqin də oxumuş insanlara ehtiyacı var, sizdən öyrəndiklərimi məmləkətimdəki vətəndaşlarıma öyrədəcəyəm.

(Səncə haqlı idi Əhməd bəy, yoxsa Renanın təklifini qəbul etməli idi? İndinin özündə belə əhvalat mümkündürmü? Mümkünsə necə həll olunmalıdır? Doğrudanmı Şərq ağıllı adamları "uda bilər"? Bəlkə sinifdəki dostlarınla bu mövzuda diskussiya aparasan).

Əhməd bəy olduqca ağıllı və gözüaçıq adam idi. O, yaxşı bilirdi ki, tam olmasa da, Renanın sözlərində bir həqiqət var. Artıq bəşəriyyət XVIII yüzildən başlayaraq Maarifçilik dövrünü yaşayırdı. Fransa İnqilabından sonra dünyada "Azadlıq. Bərabərlik. Qardaşlıq" şüarı yayılmışdı, insanlar bərabərhüquqlu olduqlarını anlamışdılar. Amerika Birləşmiş Ştatlarında "İstiqlal Bəyannaməsi" elan edilmiş və demokratik inkişaf başlamışdı. Hollandiya və İngiltərədəki sənaye inqilabından sonra bəşəriyyət elmi-texniki tərəqqi dövrünü yaşayırdı. Başqa ölkələr, başqa xalqlar da bu yolu seçməkdə idilər. Əhməd bəyin, başqa müdriklərimizin, başqa pirlərimizin istəyi bu idi ki, Azərbaycan da, azərbaycanlılar da bu yolun yolçusu olsun...

... Və Əhməd bəy onu da başa düşürdü ki, bu yolla getmək üçün "azadlıq" yolunu seçmək lazımdır. Axı insanlar "sərbəst" olmalıdırlar. Əhməd bəy ömrünün ilk çağlarında da bu inamla yaşadı, ömrünün son çağında da bu fikri təsdiqlədi və bu inamı gələcək nəsillərə aşılamağı özünə borc bildi.

Parisdə Əhməd bəy bir səhnənin şahidi olub: 1889-cu ildə Böyük Fransa İnqilabının 100-cü ildönümü qeyd edilirdi. Qonaqlar arasında İran şahı Nəsrəddin Mirzə də var idi. Əhməd bəy, görün, o hadisəni sonralar necə təsvir edir:

"Şahın tacındakı brilyantlar göz qamaşdırırdı. Köksü də daş-qaşla dolu idi. İri gözləri, qalın, çatma qaşları, dik başı təsviri mümkün olmayan bir qürur və özündənrazılıq ifadə edirdi. Sidi Karnakın (Fransanın baş naziri) sadə, qara redinqtonu (o vaxtın fraka bənzər geyimi), dik yaxalıqlı bəyaz köynəyi, təvazökar davranışı bu qürur və əda ilə tam ziddiyyət meydana gətirirdi. Mən ilk dəfə azad və

sərbəst bir millәti təmsil edən baş nazirlə yersiz əzəmət və qürurlanmanı təmsil edən müstəbidi yan-yana gördüm.

... Gecə idi. Yenə xalqın iki səfi arasından keçirdilər. Şah nə səbəbdənsə çiynindəki kürkü çiyninin ani hərəkəti ilə yerə atdı və arxasınca gələn sədrəzəmə (sədri-əzəm - baş nazir, baş vəzir) tərəf dönərək "Bərdar!" (bu sözün farsca bir neçə mənası var, burada "Götür!" mənasındadır) əmrini verdi. Zavallı sədrəzəm dərhal bütün qələbəliyin gözü önündə yerə qədər əyildi, kürkü qaldırdı və sanki uşağı götürürmüş kimi məhəbbətlə qolu üzərinə alaraq yürüdü. Şahın bu ədası və sədrəzəmin bu məğmunluğu (aciz, bacarıqsız, əfəl, əlindən iş gəlməyən mənasında) Şərq istibdadının mahiyyətini göstərən aşkar nümunələrdəndir".

Əhməd bəyin gözü önündə əyani şəkildə iki zaman, iki quruluş, insana iki münasibət, istibdad və azadlıq yan-yana durdular. Əhməd bəy bəlkə elə o zamandan qərarını verdi və heç vaxt o qərardan, o seçimdən dönmədi. Bircə onu başa düşdü ki, yamsılamaqdan qaçmaq lazımdır, bəzi dəyişiklərə ehtiyac var.

Məsələn, Fransa İnqilabının;

"Azadlıq. Bərabərlik. Qardaşlıq" şüarını;

"Hürriyyət. Müsavat. Ədaləflə əvəz etdi ("Hürriyyət" əvəzinə indi əksər hallarda "Azadlıq" işlədilir. "Müsavat" isə elə "bərabərlik" deməkdir).

Amma bütövlükdə götürəndə, Əhməd bəy demokratiyanı, azadlığı, insanın sərbəstliyini seçdi. Bu məqsədlə ömrünün qürub çağında "Sərbəst insanlar ölkəsində" kitabını yazdı və yetmiş ildən sonra olsa da, bu kitab Azərbaycan gəncini tapdı. Əhməd bəy "Ön söz" də yazır ki, anlaşıqlı və çatımlı olması üçün bu kitabda hekayət üslubunu seçib: istibdaddan, şəxsi hakimiyyətdən qurtulmuş bir gənc azad və sərbəst ölkəyə düşür, bu ölkənin yaşayışı, düşüncələri, qanunlarıyla tanış olur və bunlara alışmağa çalışır...

Əslində, bu hekayət sənin üçün, sənin həmyaşıdların üçün bir düşüncə oyunu olmalıdır. Yaşlılar da bəzən bu oyun üslubundan istifadə edir, adını da elə "işgüzar oyun" qoyurlar. Bu teatra bənzər oyun ehtimal olunan şərtləri yoxlamağa kömək edir.

Sən də yoldaşlarınla birgə, Əhməd bəyin kitabını oxuya-oxuya, "düşüncə oyununa" qatıla bilərsən. Yəni oyunun qaydalarını müəyyənləşdirərək, şərtləşə və "deyək ki" istibdad ölkəsindən gələ bilərsən. Əhməd bəyin sözləri ilə desək: o ölkədən ki "xalq tək şəxsin şıltaq və həvəsinə tabe olduğundan, milyonlarca insan bu şıltaqlıq və həvəsə itaət edir". Başqa biriniz, yenə də Əhməd bəyin sözləri ilə desək, tutalım, elə bir ölkədən olar ki, bu ölkədə "əhalidən hər kəsin idarəçiliyə qatılmaq haqqı var və milyonlarca insan bu idarəçiliyə qatılır".

Bu "deyək ki" üsulu ilə iki qütbə bölüşərək bir-birinizə qulaq asa bilsəniz (yəni oyunun qaydalarına əməl etsəniz), yəni qeyri-ixtiyari yaranmış hay-küy müzakirəyə çevrilsə, ciddi diskussiya başlanacaq. Çox güman, biriniz deyəcəksiniz ki, bizdə istibdad yoxdur, o biriniz deyəcək - var, biriniz deyəcəksiniz ki, insanlar heç vaxt, heç bir ölkədə idarəçiliyə qatılmır, bu bir yalandır, bu bir xülyadır, o

biriniz razılaşmayacaq ki, yox, bu mümkündür, sadəcə olaraq insanlar dilənçi kökündə yaşamamalıdır, insanların ləyaqəti olmalıdır, onda onlar idarəçiliyə qatılacaq. Biriniz deyəcəksiniz ki, insan heç vaxt azad olmur, sərbəst olmur, həmişə tabeçilikdə yaşayır, evdə də elədir, məktəbdə də. Digəriniz razı olmayıb deyəcək ki, azadlığın da, sərbəstliyin də hüdudları olur, amma əsas odur ki, azad, sərbəst olmaq fikrinə gələsən, kölə olmaq istəməyəsən.

Gümanlarımızı bitirək. Sənə və yoldaşlarına zorla öz fikrimizi yeritmək istəməzdik.. Ola bilsin ki, sizin müzakirə tamam başqa səmt alsın, amma bütün hallarda Əhməd bəyin istəyi o olub ki, siz bu "oyuna" qoşulasınız. Axı məhz bu "oyunda" tədricən sərbəst olmağa alışırsan.

İndi isə "Sərbəst insanlar ölkəsində"n Əhməd bəyin bir neçə kəlamını yada salmaq istəyirik. Bəlkə "düşüncə oyununda" sizə kömək etdi:

"Azadlıq doğruya və cəsarətə söykənir"...

"Azadlıq nədir? Sərbəst düşünmək və düşündüyünü sərbəst və səmimi söyləmək deyilmi?"..

"Biliksiz və səysiz azadlıq tam sayılmaz. Belə azadlıq şikəst azadlıqdır"...

"Azad insan ac qalmamalı, dilənçi olmamalıdır. Dilənçilik həm vətəndən, həm də vətəndaşlıqdan ötrü bir ləkədir"...

"Azad olmaqdan ötrü güclü, qoçaq, inadlı olmalısan".

"Xoşbəxt o yerlərdir ki, həm azaddır, həm də özü düşünüb yaradır"...

"Aman Tanrım, bu azadlıq deyilən dirilik suyu nə qədər bərəkətli və hərəkətlidir"...

"Yalan sərbəst insanlar ölkəsində tam yasaqdır"...

"Yalan zəiflərin, zəlillərin, qorxaqların işidir"...

"İnsanlar qorxaq doğulmazlar. Ailə və məktəbdə verdiyimiz tərbiyə, hökumətdə istifadə etdiyimiz üsullar vətəndaşı qorxağa çevirir"...

"Uşaqlıqdan öz-özünü idarə etməyə, düşünməyə və mühakiməyə alışdırılan vətəndaşlar həyatda heç kimdən və heç nədən qorxub hürkməzlər"...

"Başqalarının kölgəsində yaşayanlar, ya da başqalarının yaxşılığı hesabına sərvət toplayanlar yaxşılıq edənlərə möhtac olur, onların arzularına, istəklərinə boyun əymək, haqlı-haqsız fikirlərinin önündə əyilmək məcburiyyətində qalırlar"...

"Mənəvi vasitələrlə dəyər və nüfuzlarını saxlaya bilməyən rəhbərlər maddi vasitələrə, zorakı idarəçiliyə əl ataraq, haqlı tənqidləri susdurmaq üçün, istər-istəməz, hədə-qorxu yolunu tuturlar"...

"Sərbəst ölkənin fərdləri arasında həmrəylik göstərmək, birgə dəstək nümayiş etdirmək əsasdır"...

"Sərbəst insanlar ölkəsində bircə adam tapılmaz ki, heç olmasa 5-6 ictimai tellə bağlanmış olmasın"...

Bəlkə də Əhməd bəyin başqa deyimlərini seçəcəksən, amma hər halda Əhməd bəyin sözləri səni sərbəst olmaqla bərabər, "birgəyaşayış" barədə düşünməyə vadar edə bilər. Məsələn, düşün görək, şagird dostlarınla sinifdə

"birgəyaşayışı" təmin edə bilərsənmi? Sinfiniz məktəbin həyatı ilə hansı "ictimai tellərlə" bağlıdır? Məktəbdən kənardakı cəmiyyətlə "ictimai bağlarınız" varmı?

İnanırıq ki, bu "düşüncə oyunu" nəticəsiz qalmayacaq, axı Əhməd bəy uşaqlı - böyüklü hamımıza anladır ki, sərbəst və azad yaşamağa qəti qərar vermisinizsə, özünüz də dəyişməlisiniz.

Sərbəst olmaq elə dəyişmək qərarı və dəyişmək hünəridir. Bu, Əhməd bəyin bəlkə də əsas və son hökmüdür.

## ÖN SÖZ

Monteskye "Qanunların ruhu" adlı əsərində hakimiyyət biçimlərindən bəhs edərkən, deyir ki: "İstibdad - yəni şəxsi hakimiyyət - məşrutiyyət, - şərəfə, respublika da - ləyaqətə dayanır".

Bu bölgü hələ də məna və əhəmiyyətini itirməyib. Şəxsi hakimiyyət zamanı xalq - tək şəxsin şıltaq və həvəsinə tabe olduğundan, milyonlarca insanın bu şıltaqlıq və həvəsə itaət etməsi üçün yeganə çarə xalqı qorxutmaq və xof içində saxlamaqdır. Bax, buna görə də, istibdad, tərbiyə və təlimdən başlayaraq, idarə üsullarınadək, hər şeydə qorxu aşılamağa söykənir.

Konstitusiyalı monarxiya zamanı hakimiyyət hökmdarla imtiyazlı bir sinfin əlindədir. Bu ortaq hakimiyyətin yaşaya bilməsi üçün bəllidir ki, hər iki tərəf bir-birinə sədaqət göstərməli və bağlı olmalıdır. Yəni şərəf şərt sayılır.

Respublikaya gəlincə, orada hakimiyyət bütövlüklə xalqın əlindədir və xalqa aiddir: əhalidən hər kəsin idarəçiliyə qatılmaq haqqı vardır. Aydındır ki, milyonlarca insanın qatıldığı idarəçiliyin öz varlığını sürdürməsi və bəyənilməsi üçün bu insanlar yüksək vəzifə və məsuliyyət duyğularına, üstün əxlaqi dəyərlərə yiyələnməlidirlər; yəni respublika zamanı vətəndaşların ləyaqətli olmaları şərtdir.

Bu ləyaqət nədən ibarətdir? Özünü necə göstərir? Oxucuların diqqətinə yetirdiyim bu əsəri, bax, həmin suallara cavab verməkdən ötrü yazmışam.

Türk milləti, dahi rəhbərinin aparıcılığı ilə (Muslafa Kamal Paşa Atatürk nəzərdə tutulur - tərc.) Respublika kimi ən mükəmməl bir idarə biçiminin doğru olduğunu ortaya çıxarıb; ancaq bu çox incə, çox zərif və buna görə də çox mürəkkəb olan dövlət idarə biçiminin inkişaf və sağlamlığı üçün Respublika bizdən, yəni türk millətinin fərdlərindən bəzi mənəvi özəlliklər tələb edir.

Millətin bir fərdi olduğuma görə, mən aciz də həmin özəllikləri necə anlayıb-qavradığımı bu naciz əsərdə (yəni əhəmiyyətsiz əsərdə. Müəllif təvazökarlıq edir və öz əsərini sadəcə təşəbbüs kimi qiymətləndirir - tərc.) yazmaq istədim, yəni Respublikanın mənəvi cəbhədən ideologiyasını özümə görə qurmaq cürəti göstərdim.

Əsərimə hansı biçim verməklə bağlı xeyli tərəddüd keçirdim; nəhayət, onu bir hekayə şəklində yazmağa qərar verdim. Əsarətdən qurtulmuş bir Türk fərdini azad və sərbəst bir ölkəyə apardım; bu ölkənin rəhbərləri Türk Cümhuriyyətini quran dahinin əməl və arzularının gerçəkləşməsi üçün çalışmaqdadırlar ("dahi" deyərkən, yenə Atatürk nəzərdə tutulur - tərc). Türk fərdi mənim Pir dediyim bu rəhbərlərlə görüşür, onların bir Respublikada azad və sərbəst vətəndaşların necə olmaları haqqında fikirlərini öyrənir; eyni zamanda sərbəst ölkədə gördüyü elm və mədəniyyət ocaqlarını təsvir etməklə məmləkətimizin Azadlıq və Ləyaqət sayəsində necə inkişaf edərək gələcəkdə nur və mədəniyyət mənbəyi olacağını da göstərir.

Bax, bu umacaqsız əsərimin biçimi, hədəfi və amacı budur. Bu əsər əvvəlcə hissə-hissə "Cümhuriyyət" qəzetində nəşr olundu. Xalqımızın göstərdiyi rəğbət və aldığım bir çox çağırış məktubları bu dəfə onu bir kitab şəklində diqqətinizə yetirmək cürətini verdi.

## SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ

*Mən bir əsir idim, azad olmaq istədim*

Mən bir əsir idim; azad olmaq istədim. Zəncirlərimi qırdım, qala divarını deşdim və açıqlığa çıxaraq dərindən nəfəs aldım. Önümdə geniş bir çöl vardı. Hara gedəcəyimi, necə davranacağımı bilmirdim. Çaşqın-çaşqın bir neçə addım atdım. Bir də gördüm ki, iki yolun ayrıcındayam və yerə basdırılmış bir dirəyin üstündəki bu yazını oxuyuram:

Sol tərəfə gedən yol Azadlıq yoludur.

Sağ tərəfə gedən yol köləlik yoludur.

Sol tərəfi tutdum, səhərə qədər getdim. Dan yeri ağaranda gördüm ki, bir qalanın önündəyəm. Qala qapısının üzərinə qızıl hərflərlə yazılmış bu lövhəni oxudum:

Sərbəst insanlar ölkəsi "Əsl mən istəyən yerdir" deyib qapıdan içəri girmək istədim. Keşikçilər yolumu kəsdilər:

- Sən kimsən? Hardan gəlib haraya gedirsən? - deyə soruşdular.

- Mən bir əsir idim, zəncirimi qırıb buraya gəldim. İndi azad olmaq istəyirəm, - dedim.

Keşikçilər diqqətlə baxdılar. Boynumda zəncirin, qollarımda buxovların izləri bəlli idi.

- Hə, görürük. Əsarətin görünən bağlarını qırmısan. Ancaq iç zəncirlərini də söküb atmısanmı? - deyə soruşdular.

- Anlamadım.

- Elə isə bu suallara cavab ver:

1. Tamahına yiyə durursanmı?
2. Doğrunu sevirsənmi?
3. Həqiqətə dözümün varmı?
4. Ləyaqət sahibisənmi?

Anladım ki, yol verməkdən ötrü məni imtahana çəkirlər. Sualların hamısına "hə" cavabını verdim. Keşikçilər önümdə hörmətlə əyildilər. Qalanın qapısını açdılar və onlardan biri məni şəhərə apardı.

Şəhər artıq oyanmışdı. Dükan, bazar açılmışdı. Hər kəs öz iş-gücü ilə məşğul idi. Bu qədər gözəl və abad bir şəhəri mən ilk dəfə görürdüm. Xalqın xoşbəxt və firavan yaşadığı hallarından bəlli idi. Rastlaşdığımız adamlar bizi gülərüz və xoş davranışla salamlayırdılar.

Nəhayət, böyük bir evin qapısı önündə ayaq saxladıq. Keşikçi qapını döydü. İçəridən yaşlı bir adam çıxdı. Keşikçi:

- Yeni bir vətəndaş... - deyərək məni göstərdi.

Yaşlı kişi məni məhəbbətlə salamlayıb içəri çağırdı. Sonra geniş bir otağa aparıb dedi:

- Bu otaq və buradakı hər şey sizindir.

Mən heyrətləndim. Yaşlı kişi əlavə etdi:

- Bir az sonra pirlərimiz (burada "yaşlı müəllimlər" mənasında - red.) gəlib sizinlə görüşər. Hələlik dincəlin.

Yaşlı kişi getdi. Bir gənc adam gəlib mənə yemək-içmək gətirdi.

Bir müddət sonra pirlər gəldilər, məni bir başqa otağa aparıb, kim olduğumu, haradan və nə üçün gəldiyimi soruşdular. Mən onlara belə cavab verdim:

- Əsilli-nəsilli soyum, nəcib elim, təmiz qanım var. Əvvəllər yurdum Orta Asiyanın yüksək yaylaları idi. Sonra qaynar qanımız güc gəldi, babalarım Şərqə, Qərbə, Şimala və Cənuba doğru yayıldılar. Məmləkətlər basdılar, dövlətlər qurdular, mədəniyyətlər doğurdular. Ulularımız əvvəl-əvvəl sadə yaşayar, el-elatla oturub-durar, qanuna baxar, doğruya və qurultaya tapınardılar. El ağaları, oba böyükləri, ölkə tərxanları haqqı qorumaqdan, doğrunu söyləməkdən, azğınlara hədlərini bildirməkdən və zorakılığa qarşı dayanmaqdan çəkinməzdilər. Nə qədər ki belə idi, elim qüvvətli və ellər arasında sayılan ellərdən idi. Ancaq sonralar qanımız qarışdı, kölə ellərin adətlərinə, mərasimlərinə qapıldıq, qurultaydan qaçdıq. Beləcə, qanun pozuldu, zorakılıq qələbə çaldı və bəy millətim qul oldu. O zamandan ocağımız söndü, adımız-sanımız batdı. Günün birində alçaq xaqanımız bizi yadellilərə satası oldu.

Artıq buna dayana bilmədik, aramızdan sarı saçlı, mərd üzlü, aslan baxışlı biri çıxdı: - "Yəni elindən əl çəkən, yurdunu əsirgəyən Tanrının elçisi sayılar?" Sözlər söylədi ki, donmuş qəlblərə istilik, ölmüş damarlara can verdi. İşlər gördü ki, bütün dünyanı heyrət bürüdü. Yadelliləri yurddan qovdu, xaqanı başıaşağı etdi. İndi o, millətini azadlığın işığına toplayır. Mən həmin vaxtlar zindanda xaqanın əsiri idim. Ümidsizlik içində qıvrılarkən Tanrı elçisinin səsini mən də eşitdim, birdən-birə canlandım, zəncirlərimi qırdım, divarı dəldim və azadlıq araya-araya, bu diyara gəldim.

Pirlər məni artan bir diqqət və maraqla dinlədilər. Nəhayət, onlardan biri:

- Bəli! Bəli! Biz də o qəhrəmanımızı tanıyırıq, biz də onu sevirik. Burada onun idealı uğrunda hərəkət edirik - dedi və əlavə etdi, - Deməli, siz azad yaşamağa qərar verdiniz?

- Bəli!

- Ətraflı düşündünüzmü? Qərarınız qətidirmi? Azad yaşamağın nə qədər çətin olduğunu bilirsinizmi?

- Bəli, bilirəm. Qərarım da qətidir.

- O halda bilməyiniz və əməl etməyiniz lazım gələn bəzi şərtlər var. Həmin şərtlər bu risalədə yazılıb. Oxuyub düşünün. Bir neçə gündən sonra yenə gəlib görüşərik.

Yaşlı adamlar getdilər.

## SƏRBƏST İNSANLARIN ƏSAS YASASI (QANUNU)

Mən o dəqiqə risaləyə sarılıb, üzərindəki bu başlığı oxudum:

**"Sərbəst insanlar ölkəsinin əsas qaydaları"**

İlk səhifəni çevirdim. Gözüm bu başlığa sataşdı:

**Ümumi əsaslar**

Bunun altında aşağıdakı maddələr yazılmışdı:

1. Azadlıq dəyərli bir vergidir. Azad olmaq üçün çox dəyərli olmalısan. Fikir təmizliyi, söz təmizliyi və əməl təmizliyi azadlığın əsaslarıdır.
2. Tamahlarına yiyə durmayanlar azad ola bilməzlər.
3. Söz sadəliyi və yaşayış sadəliyi azadlığın şərtləridir.

Çox qəribə görünən bu maddələri oxuyandan sonra gözüm ikinci başlığa sataşdı:

**"Sərbəst insanlar ölkəsinin əsas yasası (qanunu)"**

Yasada aşağıdakı maddələr qeyd olunmuşdu:

1. Azadlıq doğruya və cəsarətə söykənir;
2. Yalan, sərbəst insanlar ölkəsində tam yasaqdır.
Bu azara tutulan ölkə xaricinə çıxarılır;
3. İkiüzlülük və yaltaqlıq ən ağır günahdır. Bu günaha batanlar hamılıqca daşa tutulurlar;
4. Çuğulluq edənlər sərbəst insanlar ölkəsinin vətəndaşlığından çıxarılırlar;
5. Qorxaqlıqla sərbəst ölkə vətəndaşlığı bir araya sığmaz;
6. Sözlə və işlə başqasına qəsd edənlər ölkədən çıxarılır;
7. Hiylə işlədənlər və araqarışdıranlar vətəndaşlıqlarını itirməklə cəzalandırılırlar;
8. Haqqı qorumaq vəzifədir. Bu vəzifəni gerçəkləşdirməyənlər ölkəni tərk edirlər;
9. Çalışmaq vəzifədir. Çalışmadan yaşamaq istəyənlər ölkənin xeyrinə pulsuz çalışmağa məcbur olunurlar;
10. Dözüm və yardım göstərmək vəzifədir. Bu vəzifəni yerinə yetirməyənlər ölkə vətəndaşlığını itirirlər;
11. Ölkə işlərini görmək yalnız təcrübə və ixtisas sahiblərinin haqqıdır;
12. Hər bir vətəndaş ölkə məmurlarının fəaliyyətini yoxlaya bilər;

13. Hər bir məmur və hər hansı vətəndaş gördüyü işlər və əlindəki sərvət haqqında hər an hesab verməyə hazır olmalıdır. Hesabatdan qaçanlar ağır cəzaya və vətəndaşlıq haqqını itirməyə məhkum olunurlar;

14. Yuxarıdakı maddələri əzbərləmək və onlara əməl etmək hər bir vətəndaşın borcudur.

Maddələri oxudum və düşündüm: Adamı mat qoyan bir ölkədir! İndiyə qədər bunun tam tərsini görmüşəm və tam tərsini eşidib, tam tərsinə alışmışam!.. Görəsən, öyrəşə biləcəyəmmi? İçimi şübhə və tərəddüdlər bürüdü. Xəyalıma bir an buradan qaçmaq gəldi. Ancaq qürurum, şərəf duyğum mane oldu. Öz-özümə dedim ki:

"Bura gəlmişəmsə, sərbəst insanlar ölkəsinin vətəndaşı olmaq istəmişəmsə, alışmağa çalışmalıyam. Bu, bir şərəf məsələsidir. Bəli, bilirəm ki, hələ çox qorxub çəkinəcəyəm, dədə-babalarımdan və tarixdən gələn xasiyyətlərim var. Onlardan ayrılmaq çətindir. Ancaq hər necə olsa, çalışıb qeyrət göstərmək də mənim vəzifəmdir".

Beləcə, qanunu öyrənməyə, yasalar üzərində düşünməyə qərar verdim. Bir neçə gün ötdü. Maddələri əzbərlədim. Üzərlərində düşündüm, bəzilərinin hikmətini anlaya bilmədim, bəziləri haqqında tərəddüd etdim və yaşlı adamlardan izahat istəməyə qərar verdim.

Bu arada ətrafıma boylandım. Olduğum evi, gördüyüm adamları öyrənməyə başladım. Oxuduqlarımdan da çox gördüklərim məni heyrətə saldı. Anladım ki, qaldığım ev bir qonaq eviymiş və şəhərdə bunun kimi daha bir neçə bina varmış. Sərbəst insanlar ölkəsinə sığınanlar bu evlərdə qalırmış. Evdə mənimlə bərabər 20-yə qədər qonaq vardı. Aralarında bir neçə qadının da olduğu gözümdən qaçmadı.

Burada sadəlik və təmizlik yaşayışın təməliydi. Bol yaşıllıq və bol günəş sizə sağlam və güvənli bir yaşayışdan xəbəri verirdi.

Məni qonaq evinə gətirən yaşlı kişi ertəsi gün məni ümumi yeməkxanaya aparıb, oraya toplaşan qonaqlara tanıtdı:

"Yeni vətəndaşdır" - dedi. Hamı məni gülərüzlə, sevinc dolu baxışlarla qarşıladı və "Qutlu olsun!" - dedi.

Yemək bol və sadə idi. Yeməkdən sonra salona keçdik. Burada xanımlardan biri piano önünə oturub nəsə çalmağa başladı. Qonaqlar ayağa qalxaraq duaya bənzər bir türkü oxudular. Türkünün həzin havası içimə doldu.

Yaşlı kişi mənə üz tutub:

- Bu türkünü öyrənməlisiniz, - dedi və əlimə yazılı bir vərəq uzatdı.

- Oxudum:

## "AZAD OLMAQ NƏ QƏDƏR ÇƏTİN İMİŞ!"

O türkünün sözlərini indi unutmuşam, ancaq mənası beləydi:
"İnsan kainatın şüurudur,
Ona tapınıb, onu müqəddəs sayırıq.
Azadlıq şüurun müqəddəs cövhəridir;
Onu sevib, ona bağlanmışıq.
Sərbəst insanlar ölkəsi şüurun və azadlığın məbədidir;
Ona sığınıb, ona güvənirik".

Bu sözlərin və bu türkünün məndə yaratdığı təsiri indi sizə anlada bilmərəm. Bir neçə dəqiqə bayğın bir halda qaldım. Özümə gəldiyim zaman gördüm ki, qonaqlar üçbir-beşbir ayrılaraq öz aralarında söhbətləşirlər. Tezcə mənim yanıma gəldilər və çoxdanın tanışları kimi, təklifsiz-filansız danışmağa başladılar. Başa düşdüm ki, onlar da mənim kimi azadlıq axtara-axtara bu diyara gəlib çıxıblar.

Az sonra binanın başqa yerlərini gəzməyə başladım. Sadə bəzənsə də, təmizlikdən par-par işıldayan otaq və salonların divarlarına neçə-neçə nəfis şəkil, qiymətli lövhə asılmışdı. Bir çox lövhəyə sərbəst insanlar ölkəsi nizamnaməsinin maddələri incə xətlə yazılmışdı. Ancaq başqa yazılar da vardı. Bunlardan bəziləri diqqətimi çəkdi. Oxudum:

"Ac...öz öz tamahının oduna yanar və ətrafını yandırıb-yaxar";

"Kəlam (ilk dini kitab nəzərdə tutulur-red.) kainatın duyduğu ilk ilahi səsdir";

"Hökm edib zor işlətmək, heyvanlar zamanından qalma bir pislikdir";

"Ədalət - mələklərin insanlarda qibtə etdikləri bir iç duyğusudur";

"Fədakarlıq yanğısı bəşərin ən yüksək bir təsəllisidir";

"Könlütoxluq və sadəlik yüksək ruhlara məxsus sifətdir";

"Lovğalıq və təkəbbür bəsit ruhun dəlilidir".

Evin bir tərəfində uzun və geniş bir salon vardı. Bura kitabxana idi. Salonun bu başından o başınacan uzanan masanın üstündə qəzetlər, toplular və kitablar qalaqlanmışdı. Rəflərə minlərcə cild kitab düzülmüşdü. Qonaqların bir çoxu burada kitab oxuyurdu.

Mən də masaya yanaşdım. Gözümə bir kitab dəydi. Kitabın üzərindəki **"Sərbəst insanlar ölkəsinin tarixçəsi"** - başlığı marağımı çəkdi. O dəqiqə oxumağa başladım. Bu bir tarix deyil, faciə idi. İndi içərisində yaşadığım bu ölkənin başına gör nələr gəlibmiş...

Yüzillərcə azadlıq uğrunda çarpışıbmış! Bu gün bu qədər rahat və sakit olan küçələrdə bir vaxtlar insan qanı aşıb-daşıbmış. Gah əhali bir-birinin üstünə qalxmış, bir-birini öldürmüş, oda atmış, başına iş açmış, gah birlikdə qaniçənlərə qarşı mübarizə aparmış, gah yenilmiş, gah da qalib gəlmişlər! Və nəhayət, azadlıq

tamam yerbəyer olmuşdur. Xalq əsrdən bəri artıq xoşbəxt şəhərdə dinclik və sakitlik içində sevinc dolu bir həyat keçirməkdəymiş!

Kitabı qapayarkən içimdən ixtiyarsız bu sözlər qopdu:

"Azad olmaq nə qədər çətin imiş!"

***

## AZADLIQ BİR ÇİÇƏKDİR

İki gün sonra pirlər yenə gəldilər. Onlardan biri məndən soruşdu:

- Yasanı oxuyub əzbərlədinizmi?

- Həm oxudum, həm əzbərlədim. Ancaq bəzi maddələrini anlaya bilmədiyimdən, o maddələri açıqlamanızı xahiş edəcəyəm. Bir şərtlə ki, əvvəlcə bu yasanın ümumi hikmətini anladasınız. O nə üçündür, hansı məqsədlə yazılıb?

- Məmnuniyyətlə! Bilməlisiniz ki, azadlıq bir kültür, bir mədəniyyət məsələsidir!

- Anlamadım. Bir az da açıqlayın.

- Açıq söyləyək. Heç bağçada çalışmısınız?

- Çalışmışam.

- O halda izahatım da asanlaşır. Yəqin bağçada çalışarkən bir ağacın, bir gül və ya çiçəyin tutub yetişməsi üçün, onların təbiətindən doğan şərtlərlə hesablaşmaq lazım gəldiyini bilmirsiniz. Azadlıq da o ağac, o gül, o çiçək kimidir. Onun da tutması və yetişməsi üçün təbiətindən doğan şərtlər ödənməlidir.

- Hansı şərtlərdən söhbət gedir?

- Ölkəmizin türküsünü öyrənib yadda saxladınızmı?

- Öyrənib yadda saxladım.

- Orada deyilir ki: "Azadlıq şüurun cövhəridir, şüur da insandır". Ona görə, bu cövhəri cilalayarkən, insandan göz-qulaq olmalısan. İnsana baxmasan, cövhər tutmaz. Uzun-uzun zamanlar istibdada alışmış insana azadlıq aşılamaq heç də asan bir şey deyil. Axı istibdadın hökm sürdüyü yer insanın ruhu və qəlbidir. İstibdad burada yerləşir, burada taxtını qurur, burada tacını başına taxır. Bəzən sizə elə gələ bilər ki, istibdad yıxılıb. Və doğrudan da istibdadın gözə görünən əlamətləri yox ola bilər. Ancaq həqiqətə qalanda, onun hər tərəfdə və hər kəsdə hələ də yaşadığını görəcəksiniz. Tutalım, görəcəksiniz ki, ağzı köpüklənə-köpüklənə "azadlıq" bağıranlar, qonşusunun azadlığına dözmürlər. Özləri başqalarının azadlığı ilə toqquşan kimi, qəzəblənib, qarşısındakı adamı məhv etmək istəyirlər! Axı hələ istibdadın taxtı doğrudan da sınmayıb, ruhlardan, könüllərdən sökülüb çıxarılmayıb.

Bax, o üzdən elə yerlərdə çox vaxt azadlıq özbaşınalığa çevrilir. Çünki əvvəlcə bir adamın şəxsindəki istibdad artıq özünü hər kəsdə göstərməyə başlayır və adamları bir-birinin üstünə salışdırır. Axırı da o olur ki, adamlar azadlıq adı ilə

bir-birlərinə qarşı zorakılığa yol verirlər. Ancaq bu vəziyyətin uzun müddət davam etməsi mümkün olmadığından, yenə məhz azadlıq naminə hər kəsi susdurmaq və hər kəsə öz yerini göstərmək ehtiyacı yaranır.

Bax, beləcə, istibdadın mənəvi köklərini və izlərini öz içlərindən söküb atmayan mühitlər özbaşınalıqla azadlıqsızlıq arasında dolaşmaq məcburiyyətində qalırlar. Belə vəziyyət camaatı sonu bilinməyən faciəli bir sərsəmliyə yoluxdurur. Ancaq azad ölkənin qanunu camaatı bu faciəli sərsəmlikdən qorumaq üçün yol göstərir. Bu qanunun hədəfi istibdadın ruh və qəlblərdəki taxt-tacını yıxmaq və yerinə azadlığın taxt-tacını qurmaqdır.

- Anladım, ustad. Qanunun bütün qiymətini qavradım. İndi isə, icazənizlə, maddələrə keçək.

## "YALAN", "İKİÜZLÜLÜK" VƏ "YALTAQLIQ"

- Qanunun ikinci maddəsində yalanın yasaq olduğundan bəhs edilir. Bu günaha qanunda ayrıca önəm verilir.

- Niyə? İnsan olan kəs necə ola bilər ki, heç yalan söyləməsin?

- Azad insan yalan söyləməz. Yalan zəiflərin, zəlillərin, qorxaqların işidir. Axı azad ola bilməkdən ötrü güclü, qoçaq, inadlı olmalısan. Yalan həqiqəti gizlətmək və üzə çıxarmağa qoymamaq üçün bir vasitədir. Həqiqət gizlədilən yerdə yalançı inanclar hakim olur. Yalançı inanclar hakim olduğu yerdə xeyir-bərəkət qalmaz. Ağlı başında olan camaat buna, əlbəttə ki, yol verməz. Bax, bu üzdən sərbəst insanlar ölkəsi yalan söyləmək suçuna ayrıca önəm verir.

- Anladım, ustad. Keçmişin bir çox qaranlıq tərəfləri gözümdə dərhal aydınlaşdı. Amma o boyda əhalinin arasında yalanın kökünü necə kəsmək olar?

- Bu bir tərbiyə məsələsidir ki, ailədən və məktəbdən başlayıb, əhaliyə də aşılamalısan. Ailə və məktəbdə uşaqların ilk ruhi təməlləri yaranır. Uşaq ki var, ata-anasını və müəllimini yamsılayan bir varlıqdır. Yalançı ata-ananın və yalançı müəllimin yetişdirdikləri uşaqlar da mütləq yalançı olurlar. Buna görə də ata-ana və müəllimlərin borcu uşaqların yalana alışmamalarına daim diqqət yetirməkdir. İlk və ən təsirli vasitə onların özlərinin yalandan çəkinmələridir. Onlar uşaqların yalan söyləməsinə heç cür icazə verməməlidirlər. Ən xırda və ən günahsız bir yalana da, dözüm göstərmək olmaz. Bir sözlə, uşaq ailə və məktəbdən çıxıb cəmiyyətə qovuşduğu zaman yalanın iyrənc bir azar olduğunu duyub anlamalıdır.

Cəmiyyətə, yəni topluma gəlincə, o da yalana qarşı güclü əngəllər qoyarsa, tutalım, sərbəst insanlar ölkəsində olduğu kimi, yalançını içindən atarsa, adamlar yalan danışmaz. Amma bunun tam tərsinə olaraq, məharətlə söylənmiş bir yalanı ağıl nümunəsi sayan və ya yalançılıqla qazanılmış bir uğuru bəyənib alqışlayan və yalançı olduqlarını bildiyi insanlara hörmət-izzət göstərən toplum yalançılıq azarının bütün acılarına və bütün qorxunc sonuclarına boyun əymək məcburiyyətində qalır.

O cəmiyyətdə heç kəs heç kimə inanmaz, özünə arxa saymaz. Buna görə də birgə fəaliyyətdən və birgə təşəbbüsdən söz belə getməz. Nəticədə inkişaf və yüksəlişin bütün yolları kəsilər və yavaş-yavaş soysuzlaşma gedər, olub-qalan yaxşı keyfiyyətlər də itirilər, heçliyə sürüklənmə başlar!

- Ah, ustad! Mən də bu hala düşmüşdüm. Mən də bu halları yaşayıb görmüşdüm. Ancaq səbəbini indi anladım. Mümkünsə, üçüncü maddənin də hikmətini anladın.

- Böyük həvəslə!

- Bu maddəyə görə, ikiüzlülük və yaltaqlıq edənlərə daşlanmaq kimi dəhşətli bir cəza verilirmiş. Doğrusu, niyə belə şiddətli cəza verildiyini başa düşmədim. Vəzifə və güc sahibi olan adamları öymək, onlara sitayiş etmək olmazmı? Ədəbiyyatdan bildiyimiz neçə-neçə parlaq qəsidənin, yəni heç qiyməti yoxdu? Axı bu da gerçəkdir ki, min cür nemət və səadət bu güc və yüksək vəzifə sahiblərinin əllərindədir. Bəzən kiminsə taleyi, müqəddəratı həmin adamların bircə baxışından asılı olur. Belə isə, onların qürurunu oxşamaq təbii sayılmazmı?

- Anlayıram ki, bu sənədin qaydaları sizin kimi istibdad adətinə alışmış insanlara qəribə görünür. Bir şey soruşum: Sən azad və sərbəst olmağa qəti qərar vermisən?

- Söz yox.

- Bu halda özün dəyişməlisən. Axı bütün o saydığın şeylər sənin kölə və əsir olduğun zamanlara aiddir. İndi ki zəncirlərini qırmısan, sərbəst olmağa qərar vermisən, bilməlisən ki, yaltaqlıq kölələrin, əsirlərin işidir, ruhun alçaqlığına, zəlil və miskin olduğuna dəlildir. Yaltaq adamda şərəf və sayqı-sevgi olmaz. Bu cür adam söz dediyi insanı da pozar, onda qürur, təkəbbür, həqiqətə, haqqa dözümsüzlük kimi pis sifətlərin oyanmasına səbəb olar.

İndiyədək Şərq cəmiyyətlərini içindən yeyib gəmirən xəstəliklər arasında bu öygü və yaltaqlıq ən qorxuncu və ən pozucusudur. İlan zəhəri kimi beynin və qəlbin lap dərinliyinəcən işləyir, bədəni çürüdüb iflic edir.

Şərq qəsidəxanları - öygü şairləri bilməyib fərqinə varmamaqdan millətlərinə ən çox pislik etmiş insanlardır. Yazdıqları parlaq olsa da, o biri yandan mənəvi pozuntulara yol açıblar. Onlar həm də cazibəli olduqlarından, təqlidçilər və ardıcıllar doğurublar.

Qəribədir ki, bu qəsidələr azad olmaq istəyən eynidurumlu cəmiyyətlərin məktəblərində hələ də ədəbi örnək sayılaraq oxutdurulur. Yəni bunların törətdikləri eybəcərliyin fərqində deyillər? Yəni bilmirlər ki, gənclərin qəlbinə, gənclərin beyninə şerin, musiqinin təsiri böyükdür?

Nə olur-olsun, azad olmaq istəyən bir cəmiyyətin bu hərəkəti, əkini əkib üzərinə kükürd səpən bir əkinçinin hərəkətindən fərqli sayılmaz. İngilis qanunu hələ XV əsrdə kralın öyülməsini onun qınanması qədər yasaq hesab edib. Bax budur azad olmaq istəyən bir millətin hərəkəti!!!...

## AZADLIQ VƏ ÇUĞULÇULUQ!

- Amma ustad, böyük adamlara sayqı göstərmək haqq və hüquqları tanıyanların vəzifəsi deyilmi?

- Şübhəsiz! Ancaq gerçək sayqı göstərməklə, baş əyməklə yarınmaq və yaltaqlıq tam başqa-başqa şeylərdir.

- Necə yəni başqadır?

- Çünki gerçək sayqı və sevgi doğruçuluq və səmimiyyət istəyir. Doğruçuluq və səmimiyyətin şərti də düşünülən fikri, duyulan hissi olduğu kimi söyləməkdir. Ürəkdən sevdiyiniz bir adamın, tutalım, oğlunuzun, qardaşınızın, əziz bir dostunuzun çatışmazlıqlarını söyləməyi, yalnışlıqlarını düzəltmələri üçün öyüd verməyi özünüzə borc bilməzsiniz yəni? Millətin yetişdirdiyi böyük adamlar oğuldan, qardaşdan daha əziz, daha qiymətlidir axı.

Axı bunlar ümumi və ortaq səadət və bəxtiyarlığın qaynağıdırlar. Deməli, onlara qarşı daha səmimi, daha doğrucul olmaq daha əsaslı bir borc sayılmalıdır. İkiüzlü və yaltaq adamlarsa bunun tam tərsini edirlər.

Böyük adamlara daşımadıqları sifət və qabiliyyətləri də verir, çatışmazlıq və yanlışlıqlarını üstünlük kimi göstərirlər. Doğrunu, həqiqəti onlardan gizləyir, onları daim əyri yollara çəkirlər. Bütün bunlar sırf şəxsi mənfəətləri üçün edilir.

Əsasən öz xeyrini güdən və yaltaq adam doğru sözdən qaçar və dost olmaz. Doğruculluq və dostluq kimi yüksək sifətlər ruhca kasıb adamların işi deyil. Tale üzünü böyük adamlardan çevirincə, ruhən yoxsullar da həmin adamlara arxalarını çevirirlər: yəni onları ələ salır, söyür, onlara hücum çəkir və yenə də qüvvətli tərəfin - yüksək vəzifə əldə etmiş yeni adamın yan-yörəsində yer tuturlar.

- Çox haqlısınız, ustad! Belə faciəli xəyanətlərin acı mənzərələrinə neçə dəfə şahid olmuşam. O zamanlar vətəndən usanmamaq və vətəndaşlardan iyrənməmək üçün özüm-özümlə nə qədər mübarizə aparmışam.

- Elədir! Öz xeyrini güdmək və yaltaqlıq hər hansı cəmiyyəti alçaldan ən qorxunc yollardır.

- Elə isə, ustad, insanlar bundan niyə xoşlanırlar?

- Zəifliklərinə görə! Ancaq bu zaman ən böyük suçu cəmiyyət işlədir. Axı cəmiyyət pis sifətlərin yayılmasına meydan verməməlidir. Çünki sonda ən çox zərəri də cəmiyyət görəcək.

- Anlamadım, ustad...

- İndi anladaram. Bir ağac üçün çiçək və meyvə nədirsə, bir cəmiyyət üçün də böyük adamlar odur. Məlumdur ki, ağacın cinsini yaşadan, onun varlığını göstərən həmin ağacın çiçək və meyvələridir. Cəmiyyətləri də yetişdirdikləri böyük adamlar yaşadır, varlığını qoruyur və bu cəmiyyətlərin yüksəlişi üçün yol göstərir.

Doğrudan da, hər hansı cəmiyyətin varlıq qüvvəsi fikir, sənət, elm, hərb və sair sahələrdə yetişdirdiyi böyük adamların alışqanlıq və qiymətləri ilə ölçülə bilər. Bu baxımdan böyük adamların yetişdirilməsi, onların qorunması cəmiyyət üçün

ölüm-qalım məsələsidir. Böyük adamların yetişdiyi zamanlarda ağlı başında olan bir cəmiyyət onlardan bacardıqca çox faydalanmağa çalışar, həyatlarının hər dəqiqəsindən bəhrələnməyi özünə məqsəd bilər, onların əməyinin boşa çıxmasına və pozulmalarına isə heç dözməz. Axı böyük adamlar hər gün və hər zaman yetişmir. Bəzən bir millət əsrlərcə hamilə olduqdan sonra onlardan birini həyata yetirir. Bəzən də bu doğuş əməliyyatı çox çətin və qorxunc olur. O səbəbdən ağlı başında olan cəmiyyət elə övladını göz bəbəyi kimi qoruyur və onlardan bacardıqca çox faydalanmağa çalışır! Bax, buna görə azad ölkədə öz xeyrini güdüb yarınmaq və yaltaqlanmaq daşlanmaq kimi ağır bir cəza ilə cəzalanır. Axı o cür pis sifətlər pozucu amillər arasında ən qorxuncudur!

- Anladım, ustad! Bu açıqlamanız keçmişin bir çox qaranlıq və acı tərəflərini aydınlaşdırdı. İndi də, lütfən, Nizamnamənin dördüncü maddəsini izah edin.

- Böyük həvəslə. Həmin maddədə deyilir ki: "Xəbərçilik edənlər sərbəst ölkənin vətəndaşı ola bilməzlər".

Bilməlisən ki, azadlıq və çuğulçuluğun yan-yana yaşaması mümkün deyil. Çuğulçuluq olan yerdə azadlıq olmaz, azadlıq olan yerdə də ondan-bundan çuğulluq etmək. Təsadüfi deyil ki, istibdadın istifadə etdiyi ən təsirli vasitə çuğulçuluqdur. İstibdadın ilkin istəyi odur ki, vətəndaşlar arasında tərəddüd və şübhə toxumları səpsin, onların bir-birinə inam və arxayınçılığına yol verməsin. Bu səbəbdən istibdad quruluşları çuğullamalara böyük önəm verir, gizli xəbərçiliyi ən qüdrətli vasitə sayır.

Çuğulçuluğun çiçəkləndiyi yerdə kimsə kimsəyə inanmaz. Hər kəs hər kəsdən hürkər. Doğruçuluq və açıqlıq aradan qalxar. Yalan və ikiüzlülük onların yerinə keçər. Birlikdə iş görmək mümkün olmaz. Bu hala düşən cəmiyyətlər sapı çürüyüb sökülmüş parçaya bənzəyir, hər cür müqavimət qabiliyyətini itirər və nə zorakılığa qarşı dayanar, nə də elm, sənət, ticarət və s. sahələrdə birgə irəliləyə bilər.

Təbii ki, azad ölkə bu qədər zərərli bir şeyə dözməz. Biz vətəndaşlarımızın ruhunda ta uşaqlıqdan bu qorxunc bəlaya qarşı nifrət və iyrənmə duyğusu tərbiyə edirik.

Uşaqlarımızın bir-birindən gileylənməsinə pis baxırıq. Bir-birinə böhtan yağdıranlara və bütün günahları bir-birinin boynuna atanlara şiddətli cəza veririk. Başqalarına ibrət olmaq üçün yoldaşının hər hansı bir işini xəbər verən uşağı hər kəsə göstərir, pis əmələ qurşandığını hamıya bildiririk. Qısası, çuğulçuluğun iyrənc bir bəla olduğunu işimiz və sözümüzlə uşaqlara aşılayırıq ki, böyüdükdən sonra onlar qanunu güdsün. Beləcə, ölkədə çuğulçuluq aradan qalxır.

- Ustad! Verdiyiniz izahat bütün varlığımı alt-üst etdi. Bir az tək qalmaq, düşünmək istəyirəm. Etiraz etmirsinizsə, bu günlük bu qədərlə kifayətlənək.

- Lap yaxşı! İki gündən sonra yenə gələrik, - deyər əlimi sıxıb otaqdan çıxdılar.

## BİR MİTİNQ: NATİQLƏRİN SÖZLƏRİ

Ah, bu necə ölkədir?! Sərbəst olmaq nə qədər çətin bir iş imiş!.. Görəsən, alışa biləcəyəmmi? Görəsən, azad ola biləcəyəmmi? Əvvəlcə bu iş necə asan gəlirdi! Sən demə, əsl çətinliklər sonra olacaqmış. İnsan ruhu tarixin elə izlərini yaşadır ki, adamı da məhz onlar əsirə çevirir. İndi bu izləri bircə-bircə silib-itirmək gərəkdir. Yalan söyləməmək, yalnız öz xeyrini güdməmək, qoçaq olmaq, haqqı qorumaq, qorxmamaq, doğru danışmaq... Nə ağır şərtlərdir!

Vəzifə və güc sahibi olan şəxsin yanında necə qorxmayasan, necə doğru danışasan, nə cür yaltaqlıq etməyəsən axı. Həmin şəxsi görən kimi, adam öz ödünü udur, başı əsir, boynu öz-özünə əyilir və dili başlayır tərif yağdırmağa!..

Heç yadımdan çıxmaz: bir tanışım vardı. Telefonla danışdığı zaman deyərdin, nazir onun yanındadır - rəngi qaçar, pencəyinin düymələrini bağlamağa başlar, sağ əlini, aşağı salar və üzünə gülümsər bir ifadə verərək əlaqəsiz sözlər kəkələyərdi: "Bəli, ağa! Sizin kimi böyüyün sayəsində... Günah kiçiklərdən, əfv böyüklərdən"... Sonra telefonu hiddətlə yerə atar, kürsüyə yayılar və nəfəs alaraq deyərdi: "Ah! Az qala öləcəkdim! Bu nə qəzəb, nə hiddət?! Dünən şəxsən onun özünə yazılı məlumat vermişdim. Həmin məlumatda onun tabeliyində olanların pis əməllərindən bəhs etmişdim. Yaman qəzəbləndi. Çox qəzəbləndi! Ancaq qədrimi bilsin, yatırdım hirsini! Oh, nə yatırdım!".

Həmin tanışımızı o vaxt dolayardıq. Amma gerçəyə qalınca hamımız onun kimiydik. İndi iliyimizəcən işləmiş bu bəlaları necə qoparıb atacağıq? Ürək döyüntüsündən, həyəcandan yata bilmədim. Bütün gecəni otağımda gəzişdim. Səhərə yaxın yorğunluqdan halsız düşüb özümdən gedibmişəm. Gözümü açdığım zaman günəş xeyli yüksəlmişdi. Başımda ağrı vardı. Hava almağa ehtiyac duydum. Küçəyə çıxdım. Qaldığım evin qonşuluğunda böyük bir park var idi, oraya getdim. Bağbanlar ağacları sulayırdılar. Bir az o yanda yekə bir heykəl gördüm. Yanına yaxınlaşanda üzərində bu yazını oxudum:

**"Sərbəst ölkənin ilk azad qəhrəmanı"**

Bağbanlardan birinə yanaşıb parkın adını, qəhrəmanın kim olduğunu soruşdum.

- Başqa yerdən gəlmisiniz?

- Bəli, təzə gəlmişəm!

- Buraya Azadlıq parkı deyirlər. O heykəl də istibdada qarşı Azadlıq bayrağını qaldıran ilk vətəndaşın şərəfinə ucaldılıb. Ölkəmiz bu qəhrəmanın adını əziz tutur.

Bu arada parka dəstə-dəstə adamlar gəlməyə başladı. Az sonra parkın müxtəlif yerlərində mitinqlər quruldu.

Mitinqlərdən birinə qulaq verdim: Gənc bir kişi həyəcanla hökuməti tənqidə tuturdu. Hökumətin partiya proqramına sadiq qalmadığını, işsiz vətəndaşların hələ də küçələrdə dolaşdığını, statistik məlumatlardan ölkə əhalisinin 0,02-nin oxumaq-yazmaq bilmədiyi anlaşıldığını və bunun ölkədən ötrü bir ayıb, başıaşağılıq olduğunu hərarətli bir dillə izah edirdi.

İkinci bir qrupa yaxınlaşdım: Burada isə orta yaşlı, arıq bir adam gənc nəsldə gördüyü çatışmazlıqları sadalayırdı. Onun dediklərindən belə çıxırdı ki, gənclər daha çox pula qaçır, işadamı olmaq həvəsilə yüksək bəşəri duyğulardan və yurdsevərlik keyfiyyətlərindən uzaqlaşırlar. Bütün bunların nəticəsində yaratdıqları cılız və cansız, xəyal gücləri boş və çürükdür. Xasiyyətcə də get-gedə iradəsiz olurlar.

Natiq bu əlamətləri gələcək üçün qorxunc sayır və bunun əsini maarif sisteminin dəyişdirilməsində görürdü.

Üçüncü mitinqdə gözəl və gənc bir xanım qadınların siyasi haqlarından söz açırdı. Bu xanımın sözlərindən anladım ki, sərbəst insanların şəhərində qadınların bütün hüquqları kişilərlə eyni imiş. Yalnız şəhər başçısı ancaq kişi ola bilərmiş. Tənqidin hədəfi də bu idi.

Natiq xanım görün nə deyirdi: "Axı necə ola bilər ki, qadının doğub, bəslədiyi oğul bu vəzifəni tuta bilər, amma qadının özü yox? Bizə fizioloji özəlliklərdən söz açırlar! Sanki kişilərin hamısı sapsağlamdırlar, heç birinin fizioloji əskiyi yoxdur! Dəlixanalara, həbsxanalara gedin, cinayət statistikasını oxuyun. Güman etmirəm ki, nəticə kişilərin xeyrinədir. Deməli, kişilərə nisbətən fiziki zəifliyimizi söyləyib, guya qayğımıza qalmaq sırf bəhanədir. Kişilərin zorakılığını davam etdirmək üçün qədimdən bəri faydalandıqları silahların son qırıq-quruğudur. Ancaq davamlı şəkildə savaşan qadın o biri silahları qırdığı kimi, bu son tör-töküntünü də süpürüb atacaq və nəhayət, kişilər anlayacaqlar ki, sonuncu sığınaqlarını da qadınların üzünə açmaq lazımdır. Kişilik şərəfi, kişilik ləyaqəti bunu tələb edir. Sərbəst insanlar ölkəsində bir tək adamın da başqalarından hüquqca aşağı olması azadlıq üçün bir ləkədir. Bu ayıbı, bu ləkəni qadın silib təmizləyəcək".

Bir az aralıda başqa qruplar da vardı. Ancaq mən artıq yorulmuşdum. Bir skamyaya oturub, indiyədək görmədiyim, duymadığım bütün bu yeni mənzərələr haqqında düşünməyə başladım.

## "BURADA VƏTƏNDAŞLIQ BİR TORDUR Kİ, İÇİNƏ GİRƏN İNSANLAR BİR-BİRİNƏ BİTİŞİK HALQALARA BƏNZƏYİRLƏR"

Məni ən çox heyrətləndirən şey natiqlərin əda və üslubları idi. Gördüm ki, bunlar tənqid və gümanlarını yalnız olmuş və ola biləcək hadisələr üzərində

qururlar. Ayrıca diqqət yetirirlər ki, sözlərində şübhə və tərəddüd doğuracaq qarışıq bir nöqtə qalmasın. Eyni zamanda söylədikləri təmiz və sayqılı idi. Tənqidə tutduqları adamların ləyaqətinə toxunacaq tək kəlmə də işlətməkdən çəkinirdilər. Onlara hörmətlə yanaşırdılar. Dinləyənlərin gözlərindəki ifadədən, üzlərindəki ciddilikdən anladım ki, tənqidin bu tərzi daha çox təsir göstərir və daha faydalıdır. Bu yeni qənaətim istər-istəməz öz ölkəmdə gördüyüm tənqidləri yadıma saldı.

Aman Tanrım, o nə iyrənc mənzərə idi! Necə söyüşlər səslənər, necə suçlar sadalanardı?! Necə qarışıq sözlər, qapalı eyhamlar, örtülü və iyrənc açıqlamalar söylənərdi! Bəzən elə olurdu ki, dinləyənlər və oxuyanlar nifrətlə qulaqlarını tıxayar, gözlərini yumar və hər yandan tələb edərdilər ki, bu boğucu çirkab və üfunətə qarşı bir sədd çəkilsin. Bax o zaman bir qüvvə ortaya çıxar, söyləyənlərin ağzını, dinləyənlərin qulağını qapayar və insanlar yenə sükutdan, səssizlikdən boğulmağa başlayardılar!

Doğrudan da fəlakət idi: gah dağ seli kimi coşub-daşar, hər yanı dağıdar, gah da susuz çaylar kimi qupquru quruyardıq! Kəsəsi, davranışımızın həddi bilinməzdi!..

Bax, indi anladım ki, azad olmaq yalnız istəyə, arzuya bağlı deyilmiş! İnsanın özünü tərbiyə edib, kübar olması lazım imiş!

- Bəli, bəli, kübar olmaq lazımdır!

- Kimlə danışırsan, əzizim?

- Dönüb baxdım. Sən demə, göz önünə gətirdiklərimlə danışan zaman qonaq evində qalan tanışlarımdan biri yanımda oturaraq, mənim səsimi eşitməyindən heyrətlənibmiş. Dedim:

- Xəyala dalmışdım. İndi gördüklərimlə keçmişdə yaşadıqlarımı xəyalımda tutuşdurub, ixtiyarsız olaraq o sözləri söylədim!

Tanışım gülümsədi:

- Eyni halı yaşadıq, - dedi.

- Belə çıxır ki, siz çoxdan buradasınız və ölkənin bütün əhvalını bilirsiniz?

- Elədir!

- O halda xahiş edirəm söyləyin. Bu mitinqlər hər gün olur?

- Hər gün olur. Bir növ məktəbdir. Ölkənin hər bir adamı bağlı olduğu məsələlər haqqında burada məlumat alır.

- Nə gözəl adətmiş!

***

Ertəsi gün pirlər yenə gəldilər. Onlardan birinə üz tutub soruşdum:

- Onuncu maddədə deyilir ki, birgə dəstək göstərmək borcudur. Bu nə deməkdir?

- Bəli! Sərbəst ölkənin fərdləri arasında həmrəylik göstərmək, birgə dəstək nümayiş etdirmək əsasdır. Azad olmayan yerlərə baxın; o yerlərdə fərdlər və ailələr ayrıca yaşayar, aralarında bağlılıq və münasibət də az olar. Niyə? Çünki başlarının üstündə dayanan istibdad öz yumruğunu işlədib bunların bir-birinə yaxınlaşmasına,

birlik qurmasına imkan vermir. İstibdad quruluşu ayrılıq, eqoizm, yəni mənbazlıq aşılayır. Vətəndaşlar bir-birinə yad qalır, hər kəs hər kəsə qarşı diqqətsiz olur. Belə bir cəmiyyətin fərdlərini əzmək asandır. Cəmiyyətin özü də cansız, qansız bir oyuncaq kimi atılıb tutulur, doğrudan da oyuncağa çevrilir.

Sərbəst şəhərdə isə birlik, bir-birinə dəstək vermək əsas sayılır. Burada hər kəsin hər kəslə əlaqədar olması, bir-birinin taleyinə qatılması qaydaya çevrilib. Burada vətəndaşlıq bir tordur ki, içinə girən insanlar bir-birinə bitişik halqalara bənzəyirlər. Halqalardan hər hansı birinə yoluxan bəla dərhal digərlərinə də keçər, onlara da acı çəkdirər, onların da rahatlığını pozar və o bəla aradan qalxmayınca bu ümumi və ortaq rahatsızlıq bitmək bilməz.

Burada hər kəs hər kəsin haqq, şərəf, ləyaqət borcunu üstünə götürüb. "Mənə nə?", "Gör, özünü görməzliyə vur", "Bu sürüyə intizam dərsi vermək sənəmi qalıb?" kimi ötkəm qaydaların bu şəhərdə kökü kəsilib.

- Ah, ustad! Sizi ləzzətlə, həyəcanla dinləyirəm. Amma nə yazıq ki, indiyədək bütün bu adət-ənənələrin tam tərsinə alışmışam. Mən özümü necə dəyişdirməliyəm?! Doğrudan da, azad olmaq necə çətinmiş!

- Elədir, oğlum. Azad olmaq asan deyil. Köləlik daha asandır. Kölə özünü başqasının iradəsinə tapşırar, bununla da iş bitər. Azad adam isə, əksinə, başqasını düşünməklə üstünə yük götürər. Yadındamı, qala keşikçilərinin ilk sualı - "Başqalarını sevirsənmi?" oldu. Başqasını sevmək onun yolunda rahatsızlığa, əzab-əziyyətə qatlaşmaq deməkdir. Vətəndaş həm özünü, həm də başqasını zülmdən qurtarmaq istəyirsə, yalnız bu yola üz tutmalıdır.

Sən isə indiyə qədər başqa yola alışdın. Öz rahatlığını və qurtuluşunu cəmiyyətdən qıraqda aradın. Təkcə öz ləyaqətini düşündün. Bu üzdən həmişə geriyə qaldın, həmişə alçaldın, həmişə rahatsızlıq içində yaşadın. İndi sən azad olmağa qərar vermisən. Deməli, özünü tərbiyə etməyə və sərbəst ölkənin qaydalarına alışmağa çalışmalısan.

İçində yaşadığın cəmiyyətin taleyinə biganə qalmamalısan, onun haqqını, hüququnu, çıxarını, şərəf və ləyaqətini qorumalısan, onun yoxsullarını, uşaqlarını, avamlarını düşünməlisən. Bundan ötrü qurulmuş yardım, qoruma, oxutma və sair qurumlara yazılmalısan. Bu şəhərdə bircə adam da tapılmaz ki, heç olmasa 5-6 ictimai bağla bağlanmış olmasın! O üzdən, bu bağların bircəciyinə toxununca, o birilərinin də hamısı tərpənir və bütün cəmiyyət bir tək adam kimi hərəkətə başlayır.

- Necə xoşbəxt cəmiyyətdir!

## XALQIN YÖNƏLTDİYİ DÖVLƏT!

- İndi mümkünsə, 11-ci maddənin mənasını açıqlayın. Bu maddədə deyilir ki, "Şəhər işləri ilə məşğul olmaq üçün yetkin olmaq, yetki qazanmaq şərtdir".

- Oğlum! Bu üsul şəhərin xoşbəxtliyi üçün əsasdır. Azad olmayan ölkələri tək bir şəxs idarə edir. Hökmdar deyilən bu adamın iradəsi hakimdir. Hamı ona baş əyməyə borcludur. Belə ölkələrdə vətəndaşların dolanışıq və səadətindən çox, həmin şəxsin şıltaqlarının yerinə yetirilməsinə diqqət yetirilir. Buna görə də o adam, səlahiyyəti - yetkisi oldu-olmadı, istədiyi şəxsi işə götürə, yaxud işdən azad edə bilər. Belə yerlər işbilməzlər üçün daha sərfəlidir. Axı səriştəyə yox, özünü hakim şəxsə bəyəndirə bilmək keyfiyyətinə dəyər verilir. Ara qızışdırmaq, öz xeyrini güdərək ona-buna yarınmaq, gözə girmək, hiylə və yalan həmin keyfiyyətin tərkib hissələridir. Beləcə, təkcə ölkənin işləri səriştəsizlərin əlində qalmır, həm də hamının əxlaqı pozulur. Gənc nəsil uğur yolunu axtararkən, bilik və ləyaqət örnəyi görmədiyindən, elmə, texnikaya, ciddiliyə, çalışqanlığa, doğruçuluğa qiymət verə bilmir və tanışlıqla iş aşırmağa, öz xeyri üçün ona-buna yarınmağa, kələkbazlığa, hiylə və yalana meyl salır. İstər adamlar, istərsə dövlət get-gedə alçalır və axırda tamam pozulur. İstibdadın idarə etdiyi bütün ölkələrin sonu bu deyilmi? Belə yerlərdə ölkəni uçuruma aparan amil əslində istibdadın özü yox, istibdad quruluşunun işıqlı adamları mənən əzib korlamasıdır.

Amma o yerdə ki hakimiyyət xalqın əlindədir, ölkəni xalqın öz arasından seçdiyi adamlar idarə edir. Seçki, təbiəti baxımından əxlaqa, ləyaqətə, səriştə və ixtisasa söykənir. Bununla yanaşı bilməlisən ki, istibdad hökm sürən zaman dövlət elə də çox işlərə qarışmır, əsgərlik, xarici dövlətlərlə münasibətlər, ölkə içində inzibatçılıqla məşğul olur. Axı belə işlər həm məşhurluq gətirir, həm də hakimi əzəmətli göstərir. Ölkənin digər işlərinə ya heç baxılmır, ya da bunlar ikinci dərəcəli sayılır. Tutalım, maariflə, ticarətlə, kənd təsərrüfatı ilə, yol çəkilməsi ilə, sənaye ilə istibdad özünü çox da yormur. Hamının sağlamlığını və sosial ödənc kimi işləri isə əsla düşünmür. Halbuki millətlər öz talelərini öz əllərinə aldıqları zamandan başlayaraq məhz bu işlər dövlət fəaliyyətinin başlıca sahələri olur. Məhz həmin işlər birbaşa millətin həyatı ilə bağlıdır. Ancaq sadalanan işləri görmək asan deyil. Səriştəsiz adam onların altından çıxa bilməz. Çünki çıxmağa baş istəyir, bilik istəyir. Eyni zamanda dövlət fəaliyyətinin bu cür artması hər bir ölkədə vergiləri çoxaldır, ağırlaşdırır, büdcələri şişirdir. Əhalidən yığılan milyonlarca para həmin işlərə xərclənməkdən ötrü beş-on adama tapşırılır. Deməli, həmin adamların özünə inamlı və bacarıqlı olmaları təməl şərt olur. Xalq dişindən-dırnağından kəsib, millət işinə sərf edilmək üçün verdiyi xeyli pulun etibarlı əllərdə olduğuna və səmərə verəcək bir tərzdə xərclənəcəyinə inanmalıdır!

Bax, buna görə də xalqın yönəltdiyi dövlət istibdad quruluşunda olduğu kimi, səriştəsizlərin əlində təcrübə taxtası ola bilməz. Elə xalq idarəsi ilə istibdad arasındakı əsas fərqlərdən biri də budur ki, istibdadda dövlət adamlarının və məmurların arxalandıqları güc hökmdarın yaxşılıq və qayğısıdır. Halbuki xalqın yönəltdiyi dövlətdə həmin adamlar yalnız xalqın inamına söykənə bilərlər. Bu inam tükənən kimi hökumət və idarəçilik lap təməlindən yıxılmış sayılır. Aydın məsələdir ki, xalqın inamını yalnız gözəl əxlaqla, səriştə və ləyaqətlə qazanmaq

mümkündür. Yəqin görürsən ki, idarə əxlaqı yerində olan, təcrübə və ixtisas sahibi sayılan adamların etdiyi sərbəst ölkələr gündən-günə yüksəlir və bunun tərsini edən - tək bir şəxsin yönəltdiyi ölkələr hər gün bir az da geriləyir.

- Anladım, ustad! Bu, dəfələrlə sınaqdan keçmiş və təsdiqlənmiş həqiqətdir. Bəs belə olan halda qanunun II maddəsinə gərək qalırmı?

- Sualınızı anlamadım.

- Demək istəyirəm ki, idarəedənlər bu qədər ehtiyatla seçiləndən sonra onları sınamağa ehtiyac qalırmı ki, bir də II maddədə hər vətəndaşın üzərinə bu məmurları nəzarət borcu yüklənir?

- İndi anladım. Bilməlisən ki, sərbəst şəhərdə nəzarət əsasdır. Elə başqa üsullarla sərbəst idarə üsulu arasındakı ən açıq və ən köklü fərq də budur.

Azadlıq nəzarətlə varlığını qoruyur. Azadlıq demək - nəzarət deməkdir. Nəzarət olmayan yerdə azadlıq olmaz və ola bilməz! Bax buna görə də sərbəst ölkədə nəzarətdən keçirmək vətəndaşların həm haqqıdır, həm borcu. Bu üzdən haqqdır ki, onların həyatlarına, müqəddəratlarına aid bir işdir. Ona görə borcdur ki, bu işi görməmək vətəndaşın təməl haqqından vaz keçməkdir.

Sərbəst ölkəyə gəlincə, düzdür, ölkədə məmurlar diqqətlə, ciddi şəkildə seçilirlər. Ancaq unutmaq lazım deyil ki, hökumət və güc pozucu amillərdir. Budda öz ləyaqətini hamıya göstərmək istədiyi zaman ilk işi o oldu ki, hökumətdən çıxdı. İnsanlara hökm etmək ən sayqılı və ən seçmə ruhlarda da hakimlik həvəsi oyadır. Hökumət sürənlər qıraqdan baxan, görən və lazım olduğu zaman tənqidə tutub qınayan gözlərin olduğunu bilməzlərsə, özləri fərqində olmasalar belə, bu həvəslərini artırar və axırda zorakılıq yoluna düşərlər. O səbəbdən idarə edənlərin öz şərəfləri üçün də nəzarətin olması lazımdır. Məhz nəzarət onlara daim borclarını xatırladar, bəlli hüdudları aşmamağa çağırar. Nəzarətsiz ölkələrdə məmur istərsə çalışar, istərsə çalışmaz, kefinə düşərsə qanuna baxar, düşməzsə baxmaz. Başlıcası odur ki, hökmdar ondan razı qalsın! Bax o üzdən belə ölkələrdə məmurların çoxu çalışmaz, qanuna baxmaz, həddini aşar və nəticədə dövlət fəaliyyətinin faydası heçə enər. Nəzarət olan ölkələrdə isə vəziyyət bambaşqadır!

## SƏRBƏST ÖLKƏDƏ NƏZARƏT İŞİ

...Ancaq bunu da unutma ki, nəzarət etmək azad olmaq qədər çətindir. Nəzarət heç də hər kəsin ağzına gələni söyləməsi və haqlı-haqsız başqalarını pisləməsi demək deyil. Belə nəzarət nəzarətsizlik qədər iyrənc və zərərlidir. Şəxsiyyəti alçaldan böhtan və şayiədən ibarət olan nəzarətə bizdə əsla yol verilmir və buna cəsarət edən hər bir vətəndaş dərhal şəhərdən çıxarılır.

Bu şəhərdə nəzarət şərəfli və şərəfin qiymətini bilən insanlara layiq şəkildə, kübarcasına aparılır. Danışığında nəzakət gözləmək, tənqid və qınaqlarında şəxsiyyəti alçaltmamaq və əsas məsələdən yayınmamaq burada bir qaydadır. Bu qaydadan çıxmamaq şərti ilə sərbəst şəhərdə nəzarət vətəndaşların həm haqqı, həm

də borcudur. Bu haqq və borcu söylənən kimi ödəməyən bir vətəndaş, yəni hər hansı məmurun işə baxmadığını və ya işindən sui-istifadə etdiyini bilsə də ona qarşı tədbir görməyən vətəndaş, həmin məmur kimi cəzalandırılır.

- Ustad, çox ağır cəza deyilmi? Özünüz öncə söylədiniz ki, çuğulçuluq suç bilindiyindən cəzalandırılır. Burada isə, onu ləyaqət sayırsınız.

- Oğlum! İki şeyi qarışdırırsan. Çuğulçuluq başqa, nəzarət başqa anlayışdır. Çuğulçuluq özünü qoruyaraq iftira və dedi-qoduya söykənməklə başqasını ləkələməkdir. Nəzarət isə məsələni öyrənərək bəlli qənaətə gələndən sonra mərd və açıq şəkildə meydana atılmaqdır; çuğulçunun məqsədi vətəndaşı ləkələmək, faydalandığı vasitə - iftira və şayiədir. Nəzarətçinin amacı hamının haqqını qorumaq, faydalandığı vasitə həqiqətdir.

- Fərqi anladım, ustad! Sizi yorduğuma görə üzr istəyirəm. Mümkünsə, 13-cü maddəni də açıqlayın.

- Bu bizim vəzifəmizdir, oğlum. Sərbəst şəhərin sakinləri bizi bundan ötrü, yəni yeni vətəndaşlara bu şəhərin nizamnaməsini öyrətmək üçün seçiblər.

- 13-cü maddədə deyilir ki: "Hər bir məmur, hər bir cəmiyyət və dövlət adamı hər an həyatı haqqında hesabat verməyə borcludur"...

- Bu da şəhərin təməl qaydalarındandır. Məmura verilən əməkhaqqı və dolanışığa əvəz olaraq, cəmiyyətin, dövlətin o cür adamlarına göstərilən hörmətin, inamın və onlara tapşırılan vəzifənin, bu vəzifədən irəli gələn nüfuzun qarşılığında şəhər nə istəməlidir? Şəhər də istəməlidir ki, həmin şəxslər həyat və fəaliyyətlərini ona həsr etsinlər. Axı şəhər elə vətəndaşların mümkün qədər çox fayda verməsində maraqlıdır. Üstəlik, həmin şəxslərin dürüst və doğru olmaları da şəhərdən ötrü bir həyat məsələsidir.

Bir sualıma cavab ver: əxlaqsız və yaxud çalışmayan bir adama şəxsi işlərini tapşırarsan?

- Yox, əlbəttə!

- O halda şəhər necə tapşıra bilər ki?

- Bunu anladım. Ancaq məni o çaşdırır ki, həmin şəxslər öz həyatları haqqında hər an hesabat verməlidir. Şəxsi və özəl həyata müdaxilə etmək olarmı? Yad gözlərin sənin özəl yaşamına baxması nə dərəcədə düzdür?

- Bax, yenə qarışdırırsan. İstibdad çağından qalma aldadıcı bir havaya oynayırsan. Dövlət adamları və məmurlar özünü şəhər işlərinə həsr edən, cəmiyyətlə nəfəs alan vətəndaşlardır. Onları bu işə heç kim zorlamır. Bu işi öz istək və arzuları ilə boyunlarına götürürlər. Və öhdələndikləri gündən başlayaraq başqa vətəndaşlardan fərqli sayılırlar. Beləcə, həmin vətəndaşlardan ayrılmış hesab olunurlar.

Ümumvətəndaşlıq qaydalarının bəzi maddələri belə şəxslərə şamil edilmir. Bu şəxslər dövlət hesabına yaşadıqlarından dövlətin onlardan hesabat istəmək haqqı var. Hesabat verməyi xoşlamırsansa, hesabat tələb edən vəzifəni üzərinə götürməməlisən. Axı başqa vətəndaşlardan heç kəsin hesabat istəmək yetkisi

yoxdur. Ancaq məmur və dövlət adamı vəzifəsini üstünə götürmüsənsə, gərək olan işi görmək artıq sənin borcun sayılır.

- Yəni məmurun və dövlət adamının özəl və şəxsi həyatı yoxdur?

- Bax, yenə köhnə havanı çalırsan! Mümkünsə özəl həyatın hüdudlarını cız. Haradan başlayıb harada bitir o hüdudlar? Tutalım, qumar oynamaq özəl həyat sayılır, ya yox?

- Özəl həyat sayılır.

- Alış-veriş, yəni ticarət necə? Qəzet müxbiri olmaq necə?

- Cavab verməyəcəyəm!

- Çünki alışdığın düşüncə qumar oynamağı özəl həyat kimi qəbul edir, ticarət və müxbirliyi isə yox. Halbuki dözüm göstərib azacıq düşünəsən, ticarət və müxbirliyin qumar və bədxərclikdən qat-qat yaxşı olduğunu anlayarsan. Qumarbazlar, bədxərclər istər ayrı-ayrı adamlara, istərsə cəmiyyətə saysız zərər vurur. Bu azara tutulmuş məmur diqqətini, sağlamlığını, gözəlliyini, bacarığını şəhər işlərinə yox, başqa yerlərə xərcləyir, cəmiyyətin işlərinə lazım olan qədər diqqət və saygı göstərmir. Sonra da vəzifəsini gözdən salır, faydalı və ciddi çalışqanlıq yerinə tənbəllik edir, başçısını və xalqı aldatmağa qurşanır.

## AYRICA BİR EVDƏ KEÇİRİLƏN TƏDBİR

Bu da nəzarətsiz və özəl dediyiniz həyatın nəticələri! İşlərini belə adamlara tapşıran və onları nəzarətsiz buraxan bir şəhər xoşbəxt ola bilərmi? Elə istibdad zorakılığına alışqan olan yerlərdə məmurlar özəl həyatı bəhanə gətirərək nəzarətdən azad olur və həmin səbəbdən vəzifələrini yerinə yetirmir, qanunu saymır, mövqeyindən sui-istifadə edir və ölkələrini fəlakətə sürükləyirlər.

Sərbəst insanlar ölkəsində yaşayanların belə yalançı ayrı-seçkiliyə dözümü yoxdur. Azad ölkə elə bir birlikdir ki, ayrı-seçkiliyi qəbul etmir, məmurlar və cəmiyyət adamları bütün həyatını cəmiyyətə verir. Cəmiyyət isə bu həyatın öz varlığını sürdürməsində maraqlı olduğu üçün öz nəzarətini gerçəkləşdirir. Yuxarıda söylədiyim misal səni yanlış fikrə salmasın. O misalla mən heç də demək istəmədim ki, bizim ölkədə məmurlar və dövlət adamları ticarət və jurnalistika ilə məşğul ola bilərlər. Xeyr, bunlar da yasaq sayılır!

Bütün düşüncəsini, bütün fəaliyyətini şəhərə həsr etmək bu ölkədəki məmurun borcudur. Ticarət və jurnalistikanı bir misal kimi göstərdim ki, alışdığın təsəvvürlərin nə qədər əsassız olduğunu asan yolla sübut edim.

- Ustad, yenə beynim alt-üst oldu. İcazə versəniz bugünkü söhbəti bitirərdik.

- Necə istəyirsən, əzizim.

Ustadlar getdilər. Məni yenə fikir apardı. Bu şəhərə alışmağın çətin olacağı hər gün daha çox anlaşılırdı! Mən nə edəcəyəm? Özünüz düşünün - həmişə

vətəndaşlara bağlanmalısan! Məmurlara nəzarət etməlisən. Dövlət adamının da özəl həyatı yoxmuş! Belə də iş olar? Belə də düşüncə olar?

Axı mən ömrümdə özümdən başqa kimsəni düşünməmişəm. Dövlət məmuru görəndə, qorxumdan yeddi məhəllə birdən qaçardım. Mən dövlət adamı olsaydım, elə bilərdim bütün dünyanı mən yaratmışam.

İndi bilmirəm, bu şəhərin bu adətlərinə necə öyrənəcəyəm?

Suallardan çırpına-çırpına qalır, şübhə və tərəddüd içində qıvrılırdım. Nə yaxşı ki, o axşam özəl bir evdə verilən bir müsamirəyə çağrılmışdıq. Az sonra tanışlarım məni də aparmaq üçün gəldilər.

Ev sahibəsi bizi salonun qapısı önündə nəzakətlə qarşıladı. Salona daxil olduq. Dəvətlilərin hamısı toplanmışdı. Səhnə salonun bir ucundaydı.

Pərdə qalxdı. Gözəl bir qız sərbəst ölkənin nəğməsini oxumağa başladı. Hazır olanlar ayağa qalxdılar və nəğməni birlikdə oxudular.

Sonra səhnəyə uzunsaç və gözlüklü bir adam gəldi və pianonun önündə oturaraq üç musiqi parçası çaldı.

Bütün salona səssizlik çökmüşdü. Aman Tanrım, nə ilahi sədalardı?! Duyduğum ləzzəti, keçirdiyim həyəcanı izah etməyə acizəm. Sanki mələklər məni qanadlarına alıb, göylərə yüksəldir və orada xəyali bir aləm göstərirdilər. Yanımda oturan tanışım mənə doğru əyilib söylədi:

- Şəhərin ən məşhur sənətçisidir. Bu üç parça onun öz əsəridir. O bu parçalarda şəhərin tarixini musiqinin dili ilə danışır. Tufanı andıran birinci parça şəhərin əfsanə dönəmini tərənnüm edir. Bu parçada şəhər təbiətlə çarpışır və təbiət qədər əzəmətlidir.

İkinci parça şəhərin təşəkkül dönəmini təsvir edir. Gah səssiz və uyumlu, gah da həyəcanlı və təlatümlü məqamlar şəhərin yaşadığı mübarizələri göstərir. Nəhayət, xoşbəxtlik və dinclik içindəki bugünkü dönəmi sərin yaz mehini andıran o sakit dalğalar tərənnüm edir. Doğrudan da bu sənətçi ilahi bir dühadır! Bütün şəhər bu ixtiyar adamla qürur duyur!

Ancaq çox qəribədir ki, bir tək alqış səsi eşidilmədi və gələnlər salonu səssizcə tərk etdilər.

Bir müddət sonra zəng səsi gəldi: bizi teatra baxmağa çağırırdılar. Oyun başladığı zaman nə görsəm yaxşıdır? O gün parkda qadınlar haqqında nitq söyləyən xanım və mitinqdə danışan adamlar aktyor kimi çıxış edirdilər. Heyrətlənərək tanışıma dedim:

- O cür ciddi insanlar səhnəyə çıxıb oynayırlar!

- Bəli! Burada belədir. Bunların özəl ailə əyləncələri belə olur!

Yenə heyrətləndim.

Oynanan pyesin mövzusu bu idi: Aralarındakı anlaşılmazlıq ucbatından ər və arvad bir-birlərindən ayrılmaq istəyirlər. Ortada ciddi bir şey olmasa da, heç biri inadından dönmür. Hər iki tərəf şərəf və ləyaqətinə toxunulduğunu iddia etdiyindən, məsələyə məhkəmədə baxılır. Hakim məsələni anlayır. O, işi qanunun

təbii axarına buraxsa, ərlə-arvadın ayrılmasından başqa çarə yoxdur. Ancaq hakim onların boşanmasını istəmədiyindən kələk işlədir:

-O ərlə-arvadın uşaqlarını gizlicə çağırır və bəlli saatda məhkəməyə gələrək, ata-analarının boyunlarına sarılmağı öyrədir. Sonra hakim məhkəməyə davam edərək hər iki tərəfə öyüd-nəsihət verir, onları barışmağa çağırır. Ürəklərində ayrılmaq istəməsələr də, ərlə-arvad bir-birinə söz atır, irad tuturlar. Nəhayət, hakim hökm verəcəyini bildirərək, dinləyənlərə diqqət etmələrini söyləyir. Ərlə-arvadın rəngləri saralır, dodaqları titrəyir, ancaq inadlarından dönmürlər. Hakim hökmü oxumağa başlayıb, "Qanun adından" deyərkən, iki mələk kimi uşaq səhnəyə atılaraq, ata-analarının boynuna sarılırlar. Onların cingiltili səsi səhnəni doldurur. Ata və ana artıq dözə bilməyib uşaqları bir-birinin əlindən qoparmağa çalışır. Hakim də bu dəqiqədən istifadə edərək, atanın əlini ananın əlinə birləşdirib onları barışdırır.

Pyesdə ərlə-arvad arasındakı anlaşılmazlıq, bir-birinə göstərdikləri inad, bir-birlərini uşaq kimi suçlamaları o qədər gülünc bir tərzdə təsvir edilmişdi ki, salon ara vermədən qəhqəhələr içində boğulurdu.

Mən bu əyləncəni bizim əyləncələrlə müqayisə edərək, onların sadəliyinə, həm də sağlamlığına heyran olurdum. Bu hissi yanımdakı tanışımdan da gizlətmədim:

- Bunlar həmişə belə əylənirlər?

- Hə!

- Qumar, içki, məzə və sair olmazmı? Xanımları poker-filan bilməzlərmi?

- Burada özünə hörmət edən qadın qumara və içkiyə yanaşmaz! Kişilərin əyin-başına, qadınların paltarlarına diqqət yetirdim. Hamısı sadə və yerli maldan tikilmişdi. Ancaq çox incə və zərif görünürdü. Artıq bər-bəzəkdən əsər yox idi.

Öz-özümə söylədim: Həm sadə, həm də yüksək səviyyədə! Bax, buna yaşamaq deyərlər.

## İNSANLAR QORXAQ DOĞULMAZLAR

Üç gün sonra pirlər yenə gəldilər. Onlardan birinə üz tutub soruşdum:

- Ustad, qanunun bir maddəsində deyilir ki: "Qorxaqlıqla sərbəst ölkə vətəndaşlığı bir araya sığa bilməz". Düzünə qalsa, mən bunu da anlamadım.

Qorxaqlıq insanın əlində olan və iradəsinə bağlı bir şey deyil ki! Qorxaqdan qorxaq da doğular! Bu bir qəbahət deyil ki, qanun ondan ötrü adamı vətəndaşlıqdan məhrum etsin!

- Qəbahətdir! İnsanlar qorxaq doğulmazlar. Onları qorxağa çevirən bizlərik. Ailə və məktəbdə verdiyimiz tərbiyə, hökumətdə istifadə etdiyimiz üsullardır vətəndaşı qorxağa çevirən. Uşağa cinlərdən, pərilərdən, süpürgəsaqqallardan,

divlərdən, ruhlardan söz açıb qorxutmaq istəyirsinizsə, həmin uşağın ruhuna ta beşikdən qorxaqlıq toxumunu əkmiş olacaqsınız!

Bu uşaq böyüyüb həyata qarışdığı zaman atasının yumruğundan və polisin dəyənəyindən başqa özünə ağıl öyrədəcək vasitə tapmayacaqsa, doğulduğundan bu yana şəxsiyyəti qırılar, ruhu əzilər, mənliyini itirər, şərəf və ləyaqət duyğusunu unudar və hər şeydən vahimələnər, təklənib heyvan kimi hər şeydən hürkməyə başlayar.

İnsanların bu halı bir cəmiyyət üçün yalnız fəlakətdir. Belə cəmiyyətdə haqlı, həqiqəti qoruyacaq kimsə tapılmaz. Bax buna görə də ta əzəldən qorxu tərbiyəsi istibdad üçün bir dayaq olub. Məktəbdə falaqqa (şagirdi döymək üçün ayrıca qurğu - red.), ailədə yumruq, hökumətdə şillə bu tərbiyənin əsasıdır. Məqsəd - fərdin şərəf və ləyaqət duyğusunu öldürmək, gözünü qorxutmaq, hər cür cəsarət qabiliyyətini sındırmaqdır.

Sərbəst ölkədə isə vətəndaşın şərəf və ləyaqət duyğusu, cəsarət qabiliyyəti başda gəlir. Burada istər ailə və məktəb tərbiyəsi, istərsə hakimiyyət üsulu bambaşqadır. Ailədə yumruq yerinə yanımcıllıq və anlatma, məktəbdə falaqqa yerinə aşılama və düşünüb danışma, hökumətdə dəyənək yerinə qanun və ədalət keçərli olar. Beləcə, ta uşaqlıqdan öz-özünü idarə etməyə, düşünməyə və mühakiməyə alışdırılan vətəndaşlar həyatda heç kimdən və heç nədən qorxub hürkməzlər.

İşdir, ölkədə hər hansı qorxaq tapılarsa, vətəndaşlıqdan çıxarılar. Axı qorxaqlıq həm də başqalarına keçən bir xəstəlikdir. Bəzən beş-on qorxaq adam bütöv bir ordunun dağılmasına səbəb olur.

- Anlamadım, ustad! Düzünə qalsa, o cür ölkədə qorxaqlıq üçün bir səbəb qalmır ki, insan qorxaq olsun! İndi mümkünsə, qanunun çalışmaq vəzifəsinə aid maddəsini izah edin.bu maddə sapsağlam olsalar da, çalışmadan yaşamaq və sərvət toplamaq istəyənləri ölkənin xeyrinə zor gücünə çalışmağa məhkum edir. Mən həmin maddəni azadlıq anlayışına uyğunlaşdıra bilmədim. Bir halda ki vətəndaş azaddır, istəsə çalışar, istəməsə yox. Başqası buna niyə qarışır?

- İlk baxışda haqlı görünürsünüz, ancaq həqiqətə qalınca, maddəni anlamamısınız. İmkanı var ikən çalışmadan yaşamaq və sərvətə yiyələnmək həvəsi fərdlər və cəmiyyətlər üçün eyni dərəcədə fəlakətdir. Axı başqalarının kölgəsində yaşayanlar, ya da başqalarının yaxşılığı hesabına sərvət toplayanlar yaxşılıq edənlərə möhtac olur, onların arzularına, istəklərinə boyun əymək, haqlı-haqsız fikirlərinin önündə əyilmək məcburiyyətində qalırlar.

İndi səndən soruşuram: Belə insanlar azad ola bilərmi? Bunlarda şərəf və ləyaqət varmı? Üstəlik, həmin adamlar bir şey yaratmadıqlarından başqalarının yaratdıqlarını dadır və zəhmət çəkmədiklərinə görə bu nemətlərin qədrini bilmirlər. Onlar ümumi sərvətin artmasına əngəl törədir və beləcə, cəmiyyəti mənəvi və maddi baxımdan zəiflədirlər.

Həqiqətdə belə insanlar bar verən ağacların gövdəsinə sarılmış alaq otuna bənzəyirlər, ağacın suyunu onlar sorub qurudurlar! Bağçasının qiymətini bilən, yetirdiyi meyvənin ləzzətini düşünən bir bağban, söz yox, belə alaq otlarının boy atmasına, yayılmasına meydan verməz, düşməni elə kökündən çıxarıb atar! Amma sərbəst ölkə daha insani davranır. Belələrini ölkənin xeyrinə çalışdırır və bu cür davranışla azadlığı danmır, onu daha da qüvvətləndirir. Axı bu davranış yolunu azmış insanları şərəf və ləyaqət yoluna qaytarır!..

Bu yerdə pirlər sözlərini bitirib ayağa qalxdılar. Başqa yerə dəvətli olduqlarından bir neçə gündən sonra yenə gələcəklərini söyləyib getdilər.

## KİNODA GÖRÜB-EŞİTDİKLƏRİM!

O axşam yeyəndən və azadlıq nəğməsini oxuyandan sonra qonaqlarla aşağı düşdük. Burada bütün bina boyunca uzanan bir salon vardı; həm teatr, həm kino, həm də konfrans yeri idi. Bu gecə kino və konfrans vardı.

Kinoda sərbəst şəhərin tarixinə və bugünkü həyatına aid bir neçə film göstərildi. Tarixi filmlər azadlıq mübarizələrindən bəhs edirdi. Filmlərdən birində istibdad ordusunun şəhərə hücumu göstərilirdi: Şəhər başdan-başa od-alov içindədir. Kişili-qadınlı bütün əhali alovlar arasında qaçaraq, şəhərin divarlarını yarmaq istəyən istibdad əsgərlərinə hücum çəkir. Ancaq şəhər alınır və sakinlər qətlə yetirilir...

İkinci filmdə şəhərə hakim olan müstəbidin zülm və işgəncələrindən söz açılır. Azadlıq tərəfdarlan bircə-bircə tutularaq hökmdarın hüzuruna gətirilir. Qısa bir sorğu-sualdan sonra başları kəsilib küçəyə atılır...

Üçüncü filmdə illər ötəndən sonra inqilabçı bir qrupun qaranlıq bir yerdə toplanması göstərilir. İnqilabçılar qiyam qaldırmağa qərar verərək, hökmdarın sarayını hər yandan mühasirəyə alırlar. Keşikçi əsgərlər təslim olurlar. Qorxusundan tir-tir titrəyən hökmdar və onun xanımı diz çöküb mərhəmət diləyirlər...

Bugünkü həyata aid filmlərdə isə köhnə xarabalar üzərində qurulmuş möhtərəm bir mədəniyyətin əsərləri, məhsul buraxan fabriklərin işi, elm və texnika saraylarında ağsaç alimlərin araşdırmaları, tamaşaçılarla dolu teatr və operalar, xəstəxanalar, universitet, akademiya, kitabxana binaları və sair göstərilirdi.

Kinodan sonra konfransın növbəsi çatdı. Səhnəyə ortaboy, uzunsaç bir adam çıxdı. Sən demə, şəhərin önəmli insanlarından və məşhur natiqlərindən sayılırmış. O, - "Sizə bu gün xarakterlə azadlıq arasındakı əlaqədən bəhs edəcəyəm" - deyə sözə başladı və öncə "xarakter" anlayışını başa saldı: "Xarakter fərdin göstərdiyi təmkin və dözümdür. Xarakter həm xeyir, həm şər qaynağı ola bilər. Xeyir qaynağı ola bilməsi üçün fərdi xarakter mütləq fədakar olmalıdır" - söyləyərək sözünə belə davam eldi:

- Fədakarlıq, yəni şəxsi çıxarlarını özü kimi başqa insanlara qurban vermək bacarığı insanı təbiət üzərində ucaldan bir keyfiyyətdir. Düzdür, bu keyfiyyət yalnız insanlara məxsus deyil, birlikdə yaşayan heyvanlarda da bu sifət gözə dəyir.

Amma məhz başqası üçün özünü fəda etmək keyfiyyətinə təkcə insanlarda rast gəlinir. Bu dəyərli özəllik insanı üstün bir varlığa çevirib. Məhz bu özəlliyin inkişafı fərd və cəmiyyətlər arasındakı fərqləri ölçməyə imkan verir! Ayrıca bir fərd və ayrıca bir cəmiyyət yüksəldikcə, həmin özəllik də artır. Və tərsinə, fərdlər və cəmiyyətlər alçaldıqca, fədakarlıq da azalır.

Natiq fikrini tarixdən götürülən misallarla möhkəmləndirib sözünə davam etdi:

- Bu səbəbdən xeyrə doğru gedən xarakterin inkişafı ictimai bir ehtiyacdır. Gələcəyini düşünən cəmiyyət öz üzvləri arasında fədakarlığın yayılıb qüvvətlənməsinə çalışmağa borcludur. O yerdə ki insanlar hamının xeyiri üçün özlərini qurban verməyə hazırdırlar, həmin yerdə həm fərdlərin, həm də cəmiyyətin xoşbəxtliyi təmin edilib. Ancaq insanları mühitə qarşı biganə və vecsiz olan yerlərdə, istər fərdlər, istərsə cəmiyyət aciz və ümidsizdir.

Natiq bu fikrini də tarixdən gətirdiyi misallarla açıqlayıb, sonra cəmiyyət üzvlərinə fədakarlığın hansı yollarla inkişaf etdirildiyini anladaraq dedi:

- Məktəbdə müəllimlər, ailədə ata-analar, ədəbiyyatda ədiblər, şair və mütəfəkkirlər mənfəətbazlıq kimi ruhi çatışmazlığa qarşı güclü mübarizə aparmağa borcludurlar. Bu baxımdan müəllim və yazıçıların rolu daha böyükdür. Müəllimlər uşaqlarda gözə çarpan özünəvurğunluq meyllərinin dərhal qarşısını almalı, bu meyllərin iyrənc olduğunu şagirdlərə anlatmalı, yeri gələndə cəza verməkdən çəkinməməlidirlər. Yazıçılar isə öz əsərlərində fədakarlığı alqışlamalı, fədakar qəhrəmanları örnək göstərməlidirlər. Bir teatr səhnəsində fədakar bir qəhrəmanın haqq və cəmiyyət yolunda özünü fəda etməsinin ruhumuzda necə dərin təsir buraxdığını yəqin hər kəs müşahidə edib. Müəllim və yazıçıların beləcə aşıladıqları fədakarlıq qabiliyyətini cəmiyyət həyatda gerçəkləşdirib daha da qüvvətləndirməlidir. Özünəvurğunluğa qarşı nifrət aşılamaq, onun iyrənc bir keyfiyyət olduğunu göstərmək, fədakarlığı isə istədib bəyəndirmək, yaymaq ağlı başında olan cəmiyyətin ən önəmli vəzifəsidir. Fədakarlıqla özünəvurğunluq arasında fərq görməyən bir cəmiyyət, özünə qarşı da biganə və vecsiz qalır. Aydın məsələdir ki, belə cəmiyyət xoşbəxt ola bilməz!

## AZADLIQ VƏ XARAKTER

Natiq bundan sonra əsl mövzuya keçərək azadlıqla xarakter arasındakı bağlılığı anlatmağa başladı və dedi:

- Bu ön sözdən sonra məqsədimin izahı çox asandır. Siz də razılaşdınız ki, azadlıq yalnız fədakar xarakterə söykənir. Doğrudan da azadlığa qarşı təhlükələrin qaynaqlarını təyin etmək çətin deyil. Bunlar bütövlükdə bəzi vətəndaşların basqı və

zorakılığa meyl etmələrindən, o biri yandansa cəmiyyətin biganəliyindən ibarətdir. Fədakar xarakterin hakim olduğu yerdə nə həmin meyl, nə də biganəlik qalır. Fərdlərdə basqı və zorakılıq arzusu qalmadığı kimi, mühitdə də biganəlik bəlası aradan qalxır və bu üzdən hər hansı bir fərddə zorakılıq arzusu olsa belə, mühitin həssaslığından və fərdlərin fədakarlığından irəli gələn müqavimət qarşısında aciz qalır. Ancaq vəziyyət əksinə olanda, yəni cəmiyyət biganəlik göstərəndə və adamlar fədakarlıq keyfiyyətindən məhrum olanda, aydın məsələdir ki, azadlıq daim təhlükə ilə üzləşəcək.

Natiq bu fikrini də bir çox misallarla əsaslandırıb konfransı bitirdi.

Qəribədir ki, natiq burada da nə kürsüyə çıxarkən, nə də çıxışını bitirib gedərkən alqışlandı. Axırda anladım ki, belə hərəkətlər sərbəst şəhərdə yasaq imiş! Amma onu da deyim ki, çıxış başdan sonadək dərin bir sükut içində dinlənildi və natiq getdikdən sonra dinləyicilər qruplara bölünüb çıxışın bəzi yerlərini uzun-uzadı çək-çevir etdilər.

Mənə gəlincə, çıxış məni dərindən sarsıtmışdı. İndiyədək heç bir konfransdan bu qədər təsirlənməmişdim. Anladım ki, indiyədək dinlədiyim çıxışların çoxu içiboş, sabun köpüyündən başqa bir şey deyilmiş. Sərbəst insanlar şəhərindəki natiqin üslubu sadə, sözləri açıq-aydın, cümlələri qısa idi. O çıxış edərkən mürəkkəb bənzətmələrdən, qanadlı kəlmələrdən, uzun və seçmə cümlələrdən çəkinir, bütün diqqətini ifadə etmək istədiyi fikrin ətrafında toplayırdı. Bu fikirlər o qədər yuvarlaq, tutumlu və anlaşıqlı idi ki, dinləyənlərin beyninə işləyirdi. Bir daha anladım ki, bu şəhərin başında duran insanlar gecə-gündüz yaşadıqları yerə və qurduqları azadlıq ocaqlarına inam və sevgi saçmaqla və özlərindən sonra şəhəri və bu ocaqları yaşatdıracaq nəsillər yetirməklə məşğuldurlar.

Bu müşahidələr və natiqin açıqladığı fikirlər məndə çox acı xatirələr oyatdı. Bir vaxtlar azad ikən niyə yenidən əsir olduğumun səbəblərini axır ki, öyrəndim. Vicdanım ağrımağa başladı. Aman Tanrım, bizlər necə də bacarıqsızıq! Bir işi öyrənmirik, axıra çatdırmırıq! Əlimizə asanlıqla keçən azadlığın öz-özünə, öz mənliyi sayəsində yaşayacağını güman etdik. Tənbəl və boş dayanıb, olub-keçənləri seyr etdik! Halbuki azadlığı qorumaq nə qədər çətin imiş! Çalışmaq, gecə-gündüz bilmədən çalışmaq və bir inanca çevirərək yeni nəslə danışıb açıqlamaq lazım imiş! Yazıqlar ki, anlamadıq!!!

## SƏRBƏST İNSANLARIN ŞƏRTLƏRİ

İki gündən sonra ustadlar yenə gəldilər. Onlardan birinə üz tutub dedim:

- Ustad, məni bağışlayın, Sizi çox yoruram. Ancaq bir az da ümumi əsaslar haqqında izahat vermənizi xahiş edirəm. Qala qapısındakı keşikçilər mənə bir neçə sual verdilər. Hamısına "bəli" cavabını verdim. Düzü, boynuma alıram ki,

cavablarım şüurlu deyildi, yalnız Qalaya girişimi asanlaşdırmaq məqsədi daşıyırdı. İndi bunları da aydınlaşdırmanızı xahiş edirəm.

- Xatırlayıram. O keşikçilər şəhərin çox hörmətli vətəndaşlarıdır. Onlar kənar adamları Qalaya buraxmamaq üçün keşikçi təyin olunublar. Suallardan biri - "Tamahınıza hakimsinizmi?" idi, deyilmi?

- Bəli, ustad!

- Bu çox mühüm sualdır. Ölkəmizin ayrıca önəm verdiyi bir nöqtəyə toxunur. Azadlığın ruhu və ürəyi bu nöqtədədir. Başqalarına qarşı azad ola bilməkdən ötrü öncə insan öz tamahından qurtulmalıdır. Öz tamahının əsiri olan adam azad ola bilməz.

- Anlamadım, ustad. Bunu daha aydın söyləyərsinizmi?

Əlbəttə, insan azad ola bilmək üçün öncə öz tamahına yiyə durmalıdır. Azad insanlar ölkəsinin Nizamnaməsində xatırladılan və ciddi yasaq sayılan sifətlərin hamısı tamah uçbatından baş verir. Tutalım, yalan, ikiüzlülük, yaltaqlıq, çuğulçuluq, aravurma, haqqa və vətəndaşlara qarşı biganəlik və başqa belə sifətlər...

Bilməlisən ki, insanı canlandırıb hərəkətə gətirən amil - içində daşıdığı arzulardır. Bu arzular güclü və sürəkli olduğu zaman onlara tükənməz istək deyirik. Ancaq heç bir istək, özü-özlüyündə yaxşı, ya da pis adlana bilməz. Bunları yaxşı və pis göstərən hansı yolla gerçəkləşmələri, hansı vasitələrdən istifadə etmələridir. Misal kimi, on çox yayılmış, və ən güclü istəklərdən sayılan vəzifə, sərvət, nüfuz və şöhrət istəklərini gözdən keçirək.

Bu istəklər yaxşı da ola bilər, pis də. Hər şey məqsədə çatmaq üçün hansı yol və vasitələrin seçilməsindən asılıdır. Tutalım, vəzifə istəyən bir adamın önündə iki yol var: biri - çalışmaq, vətəndaşlara və vətənə xeyirli və faydalı olmaq, yüksək keyfiyyətlərlə xalqın inamını qazanmaqdır; ikincisi də - güc və vəzifə sahiblərinə yaltaqlanmaq, hiylə işlətmək, ara qızışdırmaq və sairdir.

Elə sərvət toplamaq istəyən adamın da önündə iki yol var: biri - çalışmaq, yaratmaq, yığımcıl olmaq, doğru-dürüst davranmaqla hamının inamını qazanmaq və sair bu kimi özəlliklərdir. İkincisi də - güclü adamlara çatmaq, onların sayəsində bir iş görmədən pul qazanmaq, rüşvət, yalan, ikiüzlülük, hiylə və sair kimi üsullara qurşanmaqdır! Şöhrət və nüfuz istəkləri də eynən bunlara bənzəyir.

Aydındır ki, həmin istəklər birinci yol və vasitələr hesabına gerçəkləşirsə, həm fərd, həm də cəmiyyət üçün xeyirli olur. İkinci yolu seçənlər zərər qaynağına çevrilirlər.

- Ustad, elə isə nədən insanların hamısı birinci yola üstünlük vermir?

- Bax, əsl məsələ də budur! İstək sahibi olan insan hədəfinə yetməkdən ötrü önündə açılan iki yol arasında çırpınır. Onun ruhunda birinci yolu üstün saydıracaq keyfiyyətlər tapılmırsa, ikinci yolu tutur!

- Ustad! Hansı keyfiyyətlərdən söhbət gedir?

- Doğruçuluqdan, şərəfdən, çalışqanlıqdan, üzügülərlikdən, təvazökarlıqdan və sairədən. Vətəndaşın ruhunda bu keyfiyyətlər gəlişibsə, dərhal yalana, ikiüzlülüyə, hay-küyçülüyə, yaltaqlığa və sair bu kimi iyrənc özəlliklərə qarşı çıxar və onları zərərsizləşdirər. Zəif və xaraktersiz insanlarda isə mübarizə o pis keyfiyyətlərin qələbəsi ilə bitər. Ancaq saydığımız yaxşı keyfiyyətlərə yiyələnmək çətin olduğu və zəhmət tələb elədiyi halda, pis keyfiyyətlərin əldə edilməsi və onlardan istifadə çox asandır! Özün de, - pis keyfiyyətləri daşıyan insanlar azad ola bilərmi? Beləlkəri yuxarıda açıqladığımız səbəblərdən başqalarının əsiri olmağa məhkum deyillərmi? Belələrinin çoxalıb artması hamının azadlığı üçün bir təhlükə törətməzmi?

- Elədir, ustad. Bəs cəmiyyət üzvləri arasında yüksək keyfiyyətlər necə yayılır?

- Ölkəmizin tanınmış natiqi bu mövzuda dünən sizə ətraflı izahat verməliydi!

- Bəli. Yadımdadır. Onun çıxışı çox gözəl, həm də faydalıydı.

- Ölkəmizin hər yanında belə natiqlərimiz var. Onlar daim yurdumuzu gəzirlər. Bütün cəmiyyətə və ayrıca olaraq gənclərə yol göstərirlər. Bütün bunların sayəsində ölkəmizdə yuxarıda sadaladığımız pis keyfiyyətlərin heç biri qalmayıb. Vətəndaşlardan hansı birində elə keyfiyyətlər üzə çıxarsa, cəmiyyət dərhal ona qarşı çıxıb, həmin vətəndaşı uzaqlaşdırar.

## "HƏQİQƏT"Ə DÖZÜM!

- İndi iki digər sual haqqında nə deyə bilərsiniz?

- O sualları da xatırlayıram. Sizdən "doğrunu sevirsənmi? Həqiqətə dözümün varmı?" - soruşdular. Həmin suallara sərbəst insanlar şəhərində böyük qiymət verilir.

Doğrunu sevmək və həqiqətə duruş gətirmək azad insanlar üçün mühüm əsaslardır. Gerçəyə qalınca, bu iki sual bir şeydir: Doğrunu sevən, həqiqətə də dözər. Ancaq doğrunu sevmək və həqiqətə dözmək göründüyü qədər asan deyil. İş burasındadır ki, insanlar, ümumiyyətlə, doğrunu sevdiklərini və həqiqətə hörmət etdiklərini söyləyirlər, ancaq həqiqətə qalanda, bir çoxları bunlardan xoşlanmırlar. Azad yaşamağı qərara alan insanlar arasında doğrunu sevmək və doğruya duruş gətirmək qaydaya çevrilməlidir və vətəndaşlar bu qaydaya yaxşıca alışmalıdırlar. Yoxsa azadlıq ola bilməz.

Azadlıq nədir? Sərbəst düşünmək və düşündüyünü sərbəst və səmimi söyləmək deyilmi? Yəni yaxşı deyə tanıdığımız şeyə - yaxşı və pis deyə tanıdığımız şeyə də - pis demək! Azad insanlar belə azadlığa duruş gətirməlidirlər.

Əslində yaxşı və pis anlayışları subyektiv anlayışlara bağlıdır. Subyektiv anlayışsa doğru da ola bilər, yanlış da. Ancaq doğru, ya yanlış, - dözmək lazımdır.

Axı dözüm olmazsa, təkrar edirəm, azadlığın özü aradan qalxar. Verilən hökm doğru sayılmadığı halda, onu rədd etmək və yanlış hökmü düzəltmək də digər vətəndaşların haqqı olmalıdır. Bu, azadlığın ikinci və əsas şərtidir. Sərbəst ölkə insanları arasında nə doğruçuluq, nə də yanlışlıq kimsənin inhisarı altında ola bilməz. Yanılmaq və yanılmamaq hər kəsin bərabər haqqıdır. Yanılmamaqlıq imtiyazı dar bir zümrəyə verilmiş cəmiyyətdə azadlıq olmaz.

- Amma, ustad, burada bir şərtə diqqət yetirmək lazım deyil?
- Hansı şərtə?
- Niyyət gözəlliyinə. Dostum! Azadlığı görünməsi, anlaşılması, toxunulması çox çətin ve hətta mümkün olmayan belə şərtlərə bağlamaqdan çəkinmək gərəkdir! Başqasının içini yoxlamaq heç kimin işi deyil. Üstəlik, niyyət gözəlliyi dediyiniz şey haqqındakı hökmü kim verəcək? Qarşı tərəf verəcəksə bu tərəfin niyyət güzəlliyini kim sübut edəcək? Bu cür daşlara çarpan azadlıq alt-üst olmağa məhkumdur. Azadlıqla niyyət gözəlliyi kimi şeyləri qarışdırmayın. Bütün vətəndaşlar eyni dərəcədə niyyəti gözəl sayılmalıdırlar. Əks halda, azadlıq yoxdur. Axı bu niyyət gözəlliyi bəhanəsiylə hər kəsi susdurmaq çox asandır. Belə dolambac yollara girmiş azadlığın sonu əsarətdir!
- İndi də, mümkünsə, dördüncü sualı, yəni başqasına sayqı göstərmək şərtini açıqlayın.
- Vətəndaşa və bütövlükdə insan ləyaqətinə hörmət sərbəst ölkə insanlarının digər qaydasıdır. İnsana insan olduğu üçün hörmət hər birimizin borcudur. Bu müqəddəs borcu verməyən insan özünün sayqıya layiq olmadığını qəbul edər. Axı bir insan başqasının təkrarından başqa bir şey deyil. Bu üzdən başqasına hörməti borc saymayan adam özünə sayqısızlıqla da razılaşmağa məcburdur. Bununla bağlı insanlar arasında heç bir ayrı-seçkilik olmamalıdır. İstər yoxsul olsun, istərsə zəngin, istər kiçik olsun, istərsə böyük, istər vəzifə sahibi olsun, istərsə heç bir vəzifəsi olmayan adam - insandırsa, hörmətə layiqdir.

Ümumiyyətlə, bütün insanlara şamil olunan bu qayda vətəndaşların əməl etməli olduğu müqəddəs bir borcdur. Çünki bütövlükdə insanlar - məhz vətəndaşlar bir çox maddi və mənəvi tellə bir-birinə bağlıdırlar. Məhz vətəndaşlar bəşər ailəsi içində ayrıca bir ailə təşkil edər, eyni qanı daşıyar, eyni dili danışar, eyni torpaq üzərində eyni tarixi yaşayarlar. Vətəndaşların dərdi-qəmi, sevinci və əyləncələri də ortaqdır. Ona görə də bir insan başqa bir insanın təkrarıdırsa, bir vətəndaş da elə digər vətəndaşla eynidir. Hər hansı bir vətəndaşa yuxarıdan-aşağı baxan, onun şəxsiyyətinə, düşüncəsinə, duyğusuna sayqı göstərməyən adam, istər-istəməz özünün də alçaldılmasına, düşüncə və duyğusuna sayqısız münasibətlə razılaşmalı olur.

## LƏYAQƏT SAHİBİSƏNMİ?

- Amma, ustad, elə insan və vətəndaşlar var ki, öz davranış və əməlləri ucbatından heç bir sayqıya layiq deyillər. Onlara da hörmət etmək lazımdır?

Elələrinin halına acımaq və tərbiyə olunmalarına çalışmaq lazımdır. Bilməlisən ki, vətəndaşların pozulmasına səbəb yenə də cəmiyyətdir. Cəmiyyətin çatışmazlıqları, durğunluğu, tərbiyə sisteminin nöqsanları, yaşadığı həyatın eybəcərlikləridir! Bir insan doğularkən pis, ya da yaxşı doğulmur. İnsanı pis, ya da yaxşı adama çevirən mühitdir, mühitin verdiyi tərbiyə, aşıladığı düşüncə, duyğu və adətlərdir.

Bəli, ortalıqda bir miras var. Ancaq məsələyə lap dərindən yanaşanda, görürsən ki, bu mirası da, hər şeydən əvvəl, məhz mühit doğurub. O səbəbdən, həm də mühitin cavabdehlik daşıdığı bir gerçəkliyə və davranışlara görə, vətəndaşa düşmənçilik və ədavət bəsləmək, ona saymazca yanaşmaq insanlığa və vətəndaşlığa yaraşmaz.

- O halda, ustad, sərbəst insanlar ölkəsinin nizamnaməsində nəzərdə tutulan ağır cəzaların önəmi azalmır?

- Birdəfəlik bilməlisən ki, azad insanlar şəhərinin qəbul etdiyi qaydaya görə, ləyaqətli və xeyirli vətəndaşlar yetirməkdən ötrü hər cür vasitədən yararlanmayan bir cəmiyyət, suçlu vətəndaşı cəzalandırmaq yetkisini qazana bilməz. Sərbəst ölkə buna aid bütün vəzifələrini tam və dolğun şəkildə görməkdədir.

Bu üzdən, bütün tədbirlərə baxmayaraq, suç işlədən vətəndaşı sərbəst ölkənin cəzalandırmaq yetkisi var. Ancaq cəza başqa, sayqısızlıq başqa. Suçlu vətəndaşın özünü doğruldan sözlərini, düşüncə və duyğularını sayqılı və ciddi şəkildə dinləmədən onu cəzalandırmaq haqsızlıq və ədalətsizlikdir. Həmin vətəndaşı dinləyib cəza verəndə də, ona düşmənçilik və ədavət bəsləmək yox, halına acımaq gərəkdir. Cəza elə yerinə yetirilməlidir ki, suçlu vətəndaşın ləyaqətinə toxunulmasın!..

- Anlayıram, ustad! Açıq görünür ki, bu ölkədə vətəndaşlıq şərəfinə yüksək qiymət verilir. Amma, yeri gəlmişkən, icazənizlə, bir sual da verim: Şəhərə daxil olarkən keşikçilər "Ləyaqət sahibisənmi?" sualını da verdilər. Bu sualın mənası nədir?

- Mənası odur ki, ləyaqət sahibi olmayan adam azad da ola bilməz. Ancaq izahatımı yaxşı anlaya bilməkdən ötrü, gerçək ləyaqətlə yalançı ləyaqət arasındakı fərqə diqqət yetirməlisən. Bir vətəndaşın hər hansı bir sözündən yaxud əməlindən sonra o dəqiqə yumruq atıb söyüş söymək və tapança çıxarmaq həqiqi ləyaqətin tam əksidir. Buna ləyaqət deyilməz, zorakılıq deyilər. Belə hallara ləyaqət və ya mərdlik adı verən mühitlərə ayıb olsun.

Həqiqi ləyaqətə gəlincə, bu, bir insanın daşıdığı fikirlərə, duyduğu hisslərə bütün hallarda və hər zaman sadiq qalıb sayqı göstərməsidir. Düşüncə və

duyğularını tez-tez dəyişən və gizli saxlayan insanlarda ləyaqət axtarmaq əbəsdir. Aydındır ki, belə insanlar azad ola bilməzlər.

Külək hara əsirsə, oraya dönən adanı, heç şübhəsiz ki, o küləyin əsiridir. Gerçək ləyaqət sahibləri bütün hallarda, hər cür vəziyyətdə fikir və hisslərinə sadiq qalaraq lazım gələrsə, istehzaya, həqarətə, əzaba, yoxluq və ehtiyaca dözürlər. Yalnız belə insanlar azad ola bilərlər. Bu baxımdan keşikçilər səndən "Ləyaqət sahibisinizmi?" - deyə soruşduqları zaman "Duyğu və düşüncələrinizin yiyəsisinizmi?" deyə soruşmaq istəyiblər. Həmin suala müsbət cavab verməsəydin, səni Qalaya buraxmayacaqdılar. Çünki sərbəst ölkədə ləyaqət məsələsinə ayrıca dəyər verilir.

Fərdlərində ləyaqət olmayan bir mühitdə azadlıq olmadığı kimi, ciddilik də qalmaz. Ciddiliyin yerini lağlağı tutar. İnsanlar o qədər alçalarlar ki, özü-özlərini, daşıdıqları fikirləri, yaratdıqları qurumları, vətən və vətəndaşlarını dolayıb ələ salar, acılayarlar.

Həqiqətdə belə bir mühit səhnədə oynadığı oyunlarla özü də məzələnən hoqqabaza bənzəyir. Yəqin görürsən ki, istibdad quruluşunun birinci işi mümkün qədərincə vətən övladının mənliyini əzməkdir. İstibdad bu məqsədlə puldan və qorxutmaqdan ən təsirli vasitə kimi yararlanır. Üzdə-gözdə olan adamları pulla ələ almağa, qorxu ilə susdurmağa çalışır.

Pul və qorxu ilə ələ alınan belə seçkin adamların daxili ilə xarici arasında faciəli bir təzad və çəkişmə yaranır. Beləəri, adətən, şeytana çevrilirlər. Xarici daxilindən incik və küskün olur, içi də çölünə lənət oxuyur. Daxildə daşıdıqlarını üzlərindəki maskalar inkar edir, üzlərindəki maskalara da içləri nifrət duyur. Seçkin adamların bu hala düşməsi cəmiyyət üçün ən qorxunc fəlakətlərdən, tutalım, zəlzələdən, tufandan, qasırğadan, vəbadan, düşmən tapdağından daha təhlükəlidir. Çünki bənzər maddi fəlakətlər nə qədər qorxunc olsalar da, əvvəl-axır, sovuşurlar. Diribaş, ləyaqətli və yaşamaq yanğısına sahib seçkin rəhbərləri olan bir cəmiyyət həmin fəlakətlərdən asanlıqla çıxa bilir. Ancaq mənliyini itirmiş, özünün xəstəlik və üzqaralığını da ələ salıb acılamaq kimi mənəvi fəlakətə uğramış bir mühitdən ciddi həyat həmləsi gözləmək hədərdir. Bax, belə bir təhlükədən qorunmaq üçün mənlik və ləyaqət məsələsinə sərbəst insanlar ölkəsi ayrıca diqqət yetirir.

O sözləri deyəndən sonra pirlər ayağa qalxaraq başqa bir yerə də baş çəkəcəklərini söylədilər. Daha sonra dadlı bir təbəssümlə əlimi sıxıb getdilər.

## SƏRBƏST ÖLKƏNİN AKADEMİYASINDA

Mən yerimdəcə donub qaldım: "Bunlar nələr söyləmədi, nələrdən söz açmadı: mənliyinə hakim olmalısan, insanlıq ləyaqətinə və ayrıca da vətəndaşa sayqı göstərməlisən. Mənliyini qorumaq üçün yoxsulluğa, ehtiyaca, əzab-əziyyətə dözməlisən! Ay-hay! Həyatda bu qədər şey adama gəlhagəl deyirsə,

tamahlanmamaq asan işdirmi? Əyləncələr, gözəl qadınlar bar və restoranlar, rəqslər, göz çəkən atlar, arabalar, avtomobillər və bütün bunları əldə etmək üçün asan qazanc yolları varkən, necə tamahlanmayasan? İndi gəl mənliyini qorumaq üçün yoxsulluğa, ehtiyaca, əzab-əziyyətə qatlaş görüm, necə qatlaşırsan! Arzunla, iştahınla çarpış görüm, necə çarpışırsan?! Onları öldür görüm, necə öldürürsən!

Heç yadımdan çıxmaz. Tanışlarımdan biri bir zamanlar o fikrə düşmüşdü. Hər yandan təhqir və istehza tufanı qopdu: "Ay dəlinin biri dəli, təklənmək istəyirsən, nədir? Rahiblər kimi sarsaqlayırsan. Anlamırsanmı ki, mədəniyyət - "yaşamaq, həyatın hər cür ləzzətini dadmaq, həyatda uğur qazanmaq deməkdir!" - söyləyərək həmin zavallını doğrudan da dəliyə çevirdilər. Yaxşı, indi bu ölkədə xalq başqadırmı? Mədəniyyət anlayışı bizimkinin tərsidirmi?

Sözə bax: "Vətəndaş kim olursa-olsun, ona sayqı göstərilməlidir! Doğrusu, bu özəllik mənim beynimə heç batmır. Vətəndaşdan vətəndaşa fərq var, axı! Kənddən gələn Əhmədin, ya da Məmmədin birinə mən necə sayqı göstərim? Necə söz söylədim, düşüncəsini dinləyim?! Axı onlara yalnız söyüşlə, yumruqla söz anlatmaq olur! Onlara üz versən, gör başına nələr gətirirlər? Yəni bu ölkənin avamı da başqa cürdür?"

Mən bu fikirlərə dalmışkən kimsə çağırdı və Akademiyaya getmək vaxtının çatdığını yadıma saldı. Doğrudan da, o gün sərbəst ölkənin Akademiyasındakı bir mərasimə dəvət edilmişdik. Getdik. Əzəmətli bir binaya girdik. Binanın mərmər pillələrindən geniş salonunadək iki tərəf şəhərin məşhur adamlarının heykəlləri ilə bəzədilmişdi. Bizə xüsusi loja ayrılmışdı. Yanaşı lojalarda da, çoxlu kişi və qadın əyləşmişdi. Salon hələ ki boş idi. Amma bir neçə dəqiqə keçməmiş zəng çalındı və Akademiyanın üzvləri tək-tək, cüt-cüt salona daxil olmağa başladılar. Onların siması, davranış və hərəkətləri qeyri-ixtiyari sayqı aşılayırdı. Tanışıma sarı çevrilib soruşdum:

- O uzunsaç, səliqəli qoca kimdir?

- Tanınmış kimyaçıdır. Quduz xəstəliyinin mikrobunu tapan alimdir.

- Onun yanındakı çəlimsiz və xəstəhal adam kimdir?

- O da bu şəhərin ən böyük şairidir. Əsərləri dünyanın bütün dillərinə çevrilib.

- Onların arxasınca gələn iki nəfər kimlərdir?

- Sağ tərəfdəki məşhur təbiət alimi və təkamül nəzəriyyəsini quran mütəfəkkir, sol tərəfdəki də fəlsəfədə çevriliş edən filosofdur.

- İndi bir yerdə girən üç nəfər kimlərdir?

Uzunboy, topasaqqal adam simsiz teleqraf icad edən ixtiraçıdır. Ortadakı - bəstəboy adam axırıncı dəfə təyyarədə dünyanı dövrə vuran təyyarəçi, üçüncü isə məşhur tarixçidir.

Bu arada zəng yenidən çalındı. Tanışım səsləndi:

- İndi Akademiyanın prezidenti gələcək. O da əsərləri ilə iqtisadiyyat aləmində çevriliş edən məşhur tədqiqatçıdır.

Az sonra salona balaca və nurani bir qoca daxil oldu. Və tədbirə sədrlik edənlərin yerinə yan aldı. Onun ardınca dəstə halında digər üzvlər də gəldilər. Üzvlərindən biri özümdən ixtiyarsız diqqətimi çəkdiyindən: - O kimdir? - deyə soruşdum.

- Bu adam son savaşda ölkənin ordularına komandanlıq edən və qələbədən-qələbəyə aparan generaldır, - deyə cavab verdilər.

Akademiyanın prezidenti masanın üstündəki zəngi çalaraq: "Söz namizədindir" - dedi.

- Bu "namizəd" kimdir?

- Dünən əsərlərindən birini sənə verdiyim sosioloqdur. Onu bir il öncə dünyasını dəyişən digər bir sosioloqun yerinə seçiblər. İndi Akademiyanın ənənəsinə görə, boş yerə seçilmiş alim əvəz etdiyi həmkarından söz açacaq.

Doğrudan da, həmin adam kürsüyə çıxdı və əlindəki kağızları yerbəyer edib yerinə seçildiyi şəxsin həyatından və əsərlərindən bəhs etməyə başladı.

## "ZİYALI ZÜMRƏ"NİN MÖVQEYİ

Çıxışçının sözləri arasında ən çox bu nöqtələr diqqətimi çəkdi: "Yerinə seçildiyim alim ilk mütəfəkkirdir ki, millət mövzusuna layiq olduğu qiyməti verərək bu mövzunu dərinliyinəcən araşdırıb.

Bu sahədə onun meydana qoyduğu fikirlər dünyanın bütün mütəfəkkirlərinin diqqətini çəkərək bir çox mübahisələr doğurdu. Sözün qısası, o, millətin tarixi ilə bağlı tamam yeni bir cığır açdı. Onun baxışlarına görə, millət zaman bir kütlənin içindəki bütün fərdlər deyil, həmin kütləni mənəvi cəhətdən təmsil edən şüurlu ziyalı zümrəsi nəzərdə tutulmalıdır. Çünki millətə başçılıq edən, onun əməl və arzularını yerinə yetirən məhz bu zümrədir. Ziyalı zümrəsi, bir qayda olaraq, millətin aynasıdır; millət nədirsə, o da odur. O nədirsə, millət də odur."

Bu fikir bir çox etirazlar doğurdu. Bəziləri ziyalıların çoxunun milləti təmsil etmədiyini, bu iki anlayış arasında dərin ziddiyyətlər də olduğunu söylədilər. Onların fikrincə, ziyalılar və millət bir-birinə yad qala və hətta bir-birini anlamaya bilərlər. Bax, bu səbəblərdən onlar ziyalı zümrənin heç də həmişə millətin əməl və istəklərini çatdırmadıqlarını misallarla sübut etməyə çalışdılar.

Ancaq ustad həmin etirazların hamısına uğurla cavab verdi və göstərilən misalların gərəyincə araşdırılmadığını vurğuladı. Məsələn, o, misal gətirilən ziyalıların qurama və yapma olduqlarını, şüur deyilən üstün keyfiyyətdən məhrum qaldıqlarını tarixi gerçəklərə söykənərək sübut etdi.

Amma millət mövzusunda ustadın meydana atdığı ən mühüm yenilik millətin təşəkkülü haqqındakı fikri və ədəbi cərəyanların çox önəmli olduğunu göstərməyidir! Bu sahədə ustad doğrudan da inqilab edib. Onun fikrinə görə, millətlərin təşəkkül tapmasına təfəkkür və ədəbiyyat çox önəmli təsir göstərir. Belə ki, ustadın əqidəsi baxımından Şekspir və Milton, Lok və Spenser, Höte, Şiller,

Kant, Hegel, Molyer, Volter, Jan Jak Russo, Viktor Hüqo, Dante Makiavelli, Bruno, Puşkin, Lermontov, Tolstoy və başqa yazıçılar, şair və mütəfəkkirlər olmasaydılar, ingilis, alman, fransız, italyan, rus millətləri yaranmazdı!. Həmin fikirlər də bir çox etirazlar doğurdu. Başqa fikirdə olanlar ortaq tarixin, ortaq irqin, ortaq çıxarların təsirini önə çəkirdilər.

Ustad bütün bu amillərin təsirlərini danmamaqla yanaşı, bunların yalnız uyğun, əməli bir zəmin hazırladıqlarını və təkbaşına qalmış olsaydılar fransızlıq, ingilislik, almanlıq, italyanlıq, rusluq anlayışlarını ifadə edən mənəvi varlığın təşəkkül tapmayacağını və bu mənəvi varlığı yoğurub ona bəlli bir anlam və biçim verən gerçək amilin təfəkkür və ədəbiyyat olduğunu uğurla sübuta yetirdi. O, məhz bu məqsədlə köklü və tutumlu şəkildə araşdırdığı keçmiş və indiki Şərq aləmi ilə Qərb aləmi arasında heyrət doğuran bir müqayisə apardı.

Bu müqayisədən anlaşıldı ki, bütün qədimliyinə, mədəniyyətlərin beşiyi olmasına baxmayaraq, Şərq aləmi millət anlayışına yabançı qalıb. Bu aləmdə də ortaq tarix, ortaq çıxarlar, ortaq irq amilləri olub.

Ancaq millət deyilən anlayış yaranmayıb. Niyə? Yəni Şərqdə təfəkkür və ədəbiyyat olmayıb? Xeyr, o da olub.

Ancaq mahiyyətcə qərbinkindən tam fərqlənib. Şərq ədəbiyyatı içində olduğu mühitə, insan və təbiət mühitinə yabançı qalıb. Daim göylərdə, boşluqlarda dolaşıb. Şərq ədəbiyyatı tək bir şəxsin ifadəsi olduğundan, insanlıq və təbiətlə dil tapmağı aşılamayıb. Təbiəti insana, insanı insana sevdirməyib. Bunları bir-birinə yaxınlaşdırmayıb. Təbiətlə insan arasındakı və insanların öz arasındakı yadlaşmanı, biganəliyi aradan qaldırmağa, mənəvi baxımdan bütövləşdirməyə çalışmayıb. Bax, bu üzdən təfəkkür və ədəbiyyatın bu yola yönəldiyi gündən Şərqdə də milliyyət cərəyanı başlayır!

Ancaq çıxışçı mərhum həmkarının bu nəzəriyyələrdən çıxardığı əməli nəticələrə birinci dərəcəli önəm verirdi. Onun iddiasına görə, ziyalı zümrə milləti təmsil etdiyi kimi, onun yüksəlişinə və ya geriləməsinə də cavabdehdir. Çünki ziyalı zümrə genişləndikcə mühit də yüksəlir Bu zümrə daralıb geriləyəndə mühit də geriləyir. Bu fikri natiq tarixi faktlarla möhkəmləndirib dedi:

"Dinin hakim olduğu dönəmlərdə, heç şübhəsiz, ruhanilər rəhbər zümrə olub.

Bu dönəmlərdə nə qədər ki, ruhanilər qeyrətli və ləyaqətli idilər, din də cəlbedici idi. Və dinin yönəltdiyi kütlələr də yüksək həyat qabiliyyəti göstərirdilər. Ancaq həmin zümrə tamahkarlığa qapılıb dindən gəlir mənbəyi kimi faydalanmağa başlayınca, din öz cazibəsini itirməyə başladı və beləcə, dini təmsil edən zümrə də aşağıya doğru yuvarlandı.

Din dövründən sonra gələn dönəmlərdə dinin yerini düşüncə və sənət tutdu. Xalq artıq mütəfəkkirlərdən, yazıçılardan, sənətçilərdən ilham almağa başladı. İndən belə mütəfəkkirlər - ədiblər, şairlər, jurnalistlər və müəllimlər ruhanilərin yerinə keçdilər. Bax, bu zümrə ideallarını yüksək qaynaqlardan aldıqca, öz

mühitinə qeyrət, fədakarlıq, həqiqətə, ləyaqətə və gözəlliyə sevgi toxumları səpdikcə, arxasınca apardığı xalq da sağlam, diri, ləyaqətli, fədakar olur. Və təbii şəkildə yüksəlir. Tərsinə, bu zümrə xəstə mənbələrdən ilham alaraq, öz mühitinə özünəvurğunluq, tamahkarlıq, adilik toxumları səpərsə, arxasınca apardığı xalq da yalnız dolanışıq qayğısına qapılaraq, gündən-günə alçalmağa başlayar."

Sələfin bu fikrini də dünyanın fikir və ədəbiyyat tarixindən götürdüyü canlı misallarla möhkəmləndirdi. Xırda bir nümunə gətirək. O, Roma və Yunan tarixinin yüksəliş və geriləmə dönəmlərinin təfəkkür və ədəbiyyatı arasında müqayisə aparandan sonra, görün, nə deyir: "Şekspir və Milton olmasaydı, Kromvelin ortaya çıxması mümkün idimi? Volter və Jan Jak Russo yetişməsəydilər, "İnsan Haqqları Bəyannaməsi" işıq üzünə çıxardımı?", Böyük sələfimin bu fikri də tənqid və mübahisələrə yol açdı, xüsusən, "Sənət sənət üçündür" düsturunu qəbul edənlərin hiddət və hücumuna yol açdı. Amma sələfimlə bunlar arasındakı təzad o qədər aşkar və böyükdür ki, onların barışması bir yana qalsın, bir-birini anlamaları da mümkün deyil.

Sələfimin əqidəsinə görə, "ədəbiyyat və təfəkkür mahiyyətcə də sosial hadisələrdir. Bu üzdən mövzusu və hədəfi cəmiyyət və təbiət olmayan bir ədəbiyyat və təfəkkür, mənşə və mahiyyətcə də boş və əlaqəsiz bir şeydir".

Natiq sələfi haqqında bir çox başqa sözlər də söylədi. Onun milli cərəyanlar üzərindəki təsirlərini incələyərək axırda "sərbəst insanlar ölkəsinin" bu böyük övladının xatirəsini daim minnətdarlıqla yad edəcəyini bildirib çıxışını bitirdi.

Toplaşanlar yavaş-yavaş dağılmağa başladılar. Mən də tanışımla bərabər çıxdım.

## RUH VƏ QƏLB TƏMİZLİYİ

Akademiyadan çıxarkən tanışıma: - Necə xoşbəxt şəhərdir, deyilmi? - dedim.

- Elədir! Bu şəhər neçə-neçə böyük adam yetirib. Bəşəri fəaliyyətinin hər sahəsində dərin izlər buraxan, öz ağıl və biliyinin meyvələrindən bütün bəşəriyyəti bəhrələndirən, öz ölkələrinə dünya millətləri arasında şərəfli bir mövqe qazandıran və ölkəsinin bütün ehtiyaclarını ödəyəcək keyfiyyətlərə malik bu adamlar bu ölkə üçün xeyir və bərəkət qaynağıdırlar. Belə övlad yetirən vətənlər necə xoşbəxtdir!

- Deməli, bu şəhərdə belə adamlar yetirən çoxlu qurum var?

- Özün görəcəksən! Elə şəhərin başlıca uğuru da budur.

Mən öz ölkəmi, bu baxımdan onun ehtiyaclarını düşündüm və keçmişə qarğışlar yağdırıb hələ bu gün də içində sayıldığım ziyalı zümrəsinin nə qədər cansız, işinə biganə, bəşəri dərdlərə yabançı olduğunu ilk dəfə bütün ciddiliyi ilə anladım. Öz-özümə söylənməyə başladım: "Biz kimik? Bu dünyadakı mövqeyimiz nədir? Bəşəriyyət bir yana qalsın, öz ölkəmizin faydalanacağı bircə ixtiramız, bircə kəşfimiz varmı? Heç olmasa bir dənə intellektual və elmi əsər yaratmışıqmı?

Yazıqlar olsun ki, hər tərəfimizi saran görkəmli elm və texnika, sənət və ədəbiyyat əsərlərindən bircəciyi də bizim deyil. Bircə sənaye əsəri də yarada bilməmişik. Hamısı, hamısı başqalarınındır! Biz əslində bəşəriyyətin belinə minən, onun sayəsində yaşayan bir tüfeyliyik. Bu nə böyük bəla, bu nə böyük ayıb, bu nə böyük üzqaralığı!

- Yenə nə oldu sənə? Öz-özünlə danışırsan? Dönüb baxdım. Tanışım gülməkdən boğulurdu.

- Hə! Bu ölkəni görəndən sonra, öz yurdunu xatırlayanda, az qalır dəli olasan.

Ertəsi gün pirləri özgə cür səbirsizliklə gözləyirdim. Çünki ölkə qanununda toxunulan söz, fikir və hərəkət təmizlikləri məndə dərin maraq oyatmışdı. Pirlər gələr-gəlməz onlardan birinə üz tutub dedim:

- Ustad! Bu gün qısaca üç təmizlikdən danışmağımzı xahiş edəcəyəm. Ustad! Risalənin bu hissəsini oxuyub heyrətləndim. Axı belə təmizliklərin olduğunu ömrümdə eşitməmişdim.

Haqlısan! Elə yerlər var ki, bədəninin, paltarının təmizliyinə çox diqqətlə yanaşar, ümumi və özəl hamamlar, camaşırxanalar tikdirərlər. Hər gün yuyunar, paltar dəyişdirər, ətirlənərlər. Di gəl, ruhlarının və qəlblərinin təmizliyinə heç vaxt diqqət etməzlər. Onları da yuyub təmizləməyi ağıllarına gətirməzlər. Belə yerlərdə olanda, öncə gözəl və xoş qoxular duyursan. Ancaq bir az dərinə gedəndə, onları yaxından dinləyəndə, düşüncə və sözlərindən, davranışlarından üfunət yağır, iyrənc iylər yayılır.

Adamın belə mühitlərə yazığı gəlir. Sərbəst insanlar ölkəsində isə üç təmizlik norma sayılır. Burada bədənin təmizliyinə diqqət yetirilir.

- Bir az açıqlayarsınızmı?

- Fikir təmizliyi deyəndə, heç bir təmənnasız və hiyləsiz, yalnız haqq və həqiqəti düşünmək nəzərdə tutulur. Söz təmizliyi deyəndə, yenə də heç bir bicliksiz sırf haqq və həqiqəti ifadə üçtin söz söyləmək nəzərdə tutulur. Davranış təmizliyi də, hərəkət edərkən haqq və həqiqətə üz tutub getmək deməkdir!

Bu üç təmizlik birləşərsə, vətəndaşlar arasında çəkişməyə səbəb qalmaz. Hər kəsin fikri, sözü və hərəkəti hüquqa və həqiqətə üz tutduğundan və hər kəs buna inandığından, alınan nəticələr, nə olursa-olsun, adamların bir-birinə sayqısız davranmalarına əsas verməz. Axı ortada qərəz olmayanda ədavət və düşmənçilik də yaranmır. Bax, buna görə də, sərbəst insanlar öikəsində müxtəlif peşə sahibləri bir-birinə qardaşca və sevgi dolu davranış göstərər və söz vuruşmalarında heç bir zaman bir-birinə sayqı yolundan çıxmazlar. Burada vətəndaşların bir-birinə inamsızlığı və bir-birindən çəkinməsi mümkün deyil. Biri özünü nə qədər hörmətli sayarsa, qarşısındakını da o qədər sayqılı bilər. Burada heç kim şərəf və doğruçuluğu inhisara götürməyib, onun tək sahibinə çevrilməyib. Bax, o səbəbdən, danışılan sözlər də tərbiyəli və sayqılı olduğu qədər də, tox, dürüst və səmimidir. Burada dolayı fikirlərə, budaqlı bənzətmələrə, ikimənalı deyimlərə, sətiraltı

cümlələrə, şübhəli ifadələrə gərək qalmır. Hər kəs öz fikrini açıq söyləyir və başqaları da onun təbii səmimiyyətinə sayqı göstərir. Bu şəhərin əhalisi söz gəzdirmək, pıçhapıç, dedi-qodu kimi pis vərdişlərə dözümsüzdür. Açıq düşünər, açıq söyləyər, açıq davranar. Axı üç təməl təmizliyə bel bağlayıblar!

## AZADLIQ VƏ FİKİR AYRILIĞI

- Ustad! Sizdə fikir ayrılığı yoxdur?
- Nə qədər desən var! Azadlıq olan yerdə fikir müxtəlifliyi çox təbiidir.
- Bəs bu, ölkənin idarə olunmasını çətinləşdirmir?
- Heç də yox. İdarə etmək sənəti elə fikir müxtəlifliyi olan yerlərdə özünü göstərir. Əsl hünər - sərbəst insanları idarə etməkdir. Gözləri, əli, qolu, ağzı, beyni bağlı insanları hər bir adam idarə edə bilər.
- Ustad, söylədikləriniz məni lap heyrətləndirir.

Bilirəm, buna alışmamısan! Axı istibdad hakimiyyəti altında böyümüş insanlardansan. Susdurmaq, donuq saxlamaq, vətəndaşların ağızlarını, gözlərini, qulaqlarını, beyinlərini bağlamaq istibdadın idarəçilik sistemidir. İstibdad üsulu öz qurtuluş və varlığını bu sistemdə tapar. Ancaq sonadək uğur qazanan istibdada rast gəldinizmi?

- Yox, bu üsul hər gün yıxılmaqdadır. Tarix və millətlər azadlıq yoluna qədəm qoyublar.
- Onun səbəbi budur ki, azadlıq sevgisi insanın ayrılmaz keyfiyyətidir. Həbsxanaya salınmış bir qatil, bir oğru dustaq həyatından qurtulmağı necə istərsə, zülm altında olan bir mühit də, nə qədər biliksiz, nə qədər pozulmuş olsa da, yenə qurtuluş axtarar. İstibdad məhz bu arzunu öldürmək üçün işgəncəyə əl atır, ancaq yenə istəyi doğrulmur. Axı insan mahiyyətcə düşünən bir varlıqdır. Onun görən gözləri var, eşidən qulaqları var, fikir yürüdən başı var, duyan qəlbi var. İstibdad hansı yola əl atır - atsın, yenə bu özəllikləri insandan ala bilməz. Görən, eşidən, duyan insan öz qərarını verər. Bu hökmün sözlə ifadəsinə, açıqca deyilməsinə istibdad əngəl törədə bilər. Ancaq o zaman dilin yerinə göz və qaş, əl və ayaq, sözün yerinə mənalı işarələr və eyhamlar, açıq fikir yerinə pıçhapıç, dedi-qodu yer tutub yayılar. Bütün bunlara yeri-yurdu bilinməyən, yarıyalan şayiələr, söyləntilər, uydurmalar qarışar. Nəhayət, dəniz dalğaları kimi qarşısıalınmaz və bu başdan o başa axan çirkab dolu, murdar bir axın təmiz havanı korlayar və öz üfunətində həm cəmiyyəti, həm də hakimiyyəti boğar! Gerçəyə baxanda, düşüncə və duyğularını açıq səsləndirməyən bir cəmiyyət hər dəqiqə öz içində boğulmaqdadır və həmin cəmiyyət günlərin birində, əlbəttə ki, partlayacaq.

İdarəçiliyin amacı heç də cəmiyyəti partlatmaq deyil! Əksinə, cəmiyyəti ruhlandıran, yaşamaq sevinci və həvəsi aşılayan bir mühit hazırlamaqdır. Filan adam idarəedənlərin işlərini tənqid edirsə, qoy etsin! Daha yaxşı! Bu tənqid köklü tənqiddirsə, idarəedənlər ondan faydalanıb səhvlərini düzəldərlər. Yox, əsassız

tənqiddirsə, olsun, sadəcə işlərinə yaramaz! Ancaq doğru olsun, yanlış olsun, - vətəndaşa öz ürək sözünü söyləmək imkam mütləq verilməlidir. Bu, istər vətəndaşlar, istərsə idarəçilərin özləri üçün bir təhlükəsizlik qalxanıdır.

- Ancaq, ustad, burada incə bir nöqtə var. Bəlkə indi söylədiyiniz özəlliyə vətəndaşlar hələ yiyələnməyib, onda necə? Yaxşı bilirsiniz ki, belə hallarda ara qarışır, dövlət və ölkə üçün fəlakət ola biləcək qarışıqlıqlar baş verir.

- Doğrudan da, incə nöqtəyə toxundunuz. Ancaq bir sualım var: suya girmədən üzməyi öyrənmək olarmı? Heç söz yox, üzməyi bilməyənlərin bəziləri boğulur. Amma sonda hamı üzməyi öyrənir!

- Ancaq suya ilk dəfə girən hər bir adam eyni təhlükə ilə üzləşmir?

- Bəli, üzləşir. Bax, məsələ də bundadır ki, idarəçilərin hünəri özünü göstərir. Adamları boğdurmamaq üçün çox üsullar var: kəndir sallayırsan, nərdivan qurursan, üzgü vasitələri verirsən və s.

## AZADLIQLA ƏXLAQ ARASINDAKI FƏRQ

Ustad soruşdu:

- Öncə bir şey soruşum: Azadlıqla əxlaq arasında sıx bağlılıq olduğunu qəbul edirsənmi?

- Qəbul edirəm!

- O halda məsələni çözmək asandır. Azad və sərbəst idarə üsulunun başına keçənlər, təbii ki, bu üsulu həvəslə mənimsəyirlər. Elə həmin idarə üsuluna hamıdan çox xidmət etdiklərinə görə də başçılığa yüksələ bilirlər. Deməli, yeni idarəçiliyi yayıb möhkəmlətmək vəzifəsi hər kəsdən çox onların boynuna düşür.

Ancaq aydındır ki, bu vəzifənin lazımınca gerçəkləşdirilməsindən ötrü həmin vəzifəni tutanlar xalqın gözündəki nüfuz və dəyərlərini qoruyub artırmalıdırlar. Bu, birinci şərtdir. Elə ona görə də, həmin şəxslər, hər şeydən öncə, bu qiymət və nüfuzu zəiflədəcək, özlərini azacıq da olsa nüfuzdan salacaq hər cür davranış və əməldən çəkinməyə borcludurlar.

Azadlığa doğru addımlayan bir millətin önündə belə rəhbərlər varsa, o millət artıq ən möhkəm dayağını tapmış sayıla bilər. Rəhbərlərə sayqı və inam bir ölkənin güvənliyini qoruyan başlıca sipərdir. Belə cəmiyyət hər cür qarışıqlığa asanlıqla sinə gələ bilər.

Düzdür, həmin rəhbərlərə də dil uzadan alçaqtəbiətli insanlar tapılır. Ancaq onların qorxusu yoxdur. Rəhbərlərinə inanan sağlam cəmiyyət belə halları asanlıqla çözür.

Azadlıq tarixini araşdıranlara məlumdur ki, azadlıq üçün ən böyük təhlükə onu aradan qaldırmaq istəyənlərin rəhbər vəzifələri ələ keçirməsi və haqlı tənqidlərə meydan verməmələri olub. Çünki mənəvi vasitələrlə dəyər və nüfuzlarını saxlaya bilməyən rəhbərlər maddi vasitələrə, zorakı idarəçiliyə əl ataraq, haqlı tənqidləri susdurmaq üçün istər-istəməz hədə-qorxu yolunu tutarlar.

Başqa sözlə, bu adamlar özü-özlərini, dayandıqları əsasları, vaxtilə istibdada qarşı faydalandıqları silahları danmağa başlayarlar. Bax, o zaman azadlıq hər cür məna və anlayışını itirərək, xalqın gözündə müqəddəs görünməz. Azadlıq üçün ən acı və faciəli vəziyyət, bax budur!

Unutmaq olmaz ki, azadlığın ilk qurucuları bir növ missionerdirlər və yalnız sözdə deyil, işdə də xalqa azadlıq işığı verməyə borcludurlar. İlk qurucuların vəzifələri hər yerdə və hər zaman ağır olub, çətinliklərlə üzləşib. Axı azadlıq da bütün inanclar kimi fədakarlıq umar, qurban istəyər Azadlığı sevənlər buna qatlaşmağa məcburdurlar.

Fədakarlıq varsa, deməк, vətəndaşların ictimai və siyasi tərbiyələri başlanıb. Öncə söylədiyim kimi, hər yerdə və hər zaman xalq kütlələri özünü kiməsə bənzətməyi xoşlayar və xüsusən də sayıb-seçdikləri rəhbərlərə oxşamağa çalışarlar. Üstəlik, həmin rəhbərlərin qurduğu ailə və məktəb tərbiyəsinin də təsirini nəzərə alsaq, millətin ictimai tərbiyəsini təmin edilmiş saymaq mümkündür.

Ustadı get-gedə daha diqqətlə dinləyirdim. Onun söylədiyi sözlər xəyalımda ümidverici, sevincli üfüqlər açırdı. İndiyəcən yan-yörəsi tikanlı kollarla qapalı görünən azadlıq yolu, artıq işıqlanmağa başlamışdı. Ancaq özüm istəməsəm də, ustadın sözlərini yarımçıq kəsməyə məcbur oldum:

- Ustad, sözlərinizi acgöz-acgöz dinləyirəm. Amma bu gün bizi parlamentə çağırıblar, axı. İndi getmək vaxtıdır. İcazənizlə, söhbətimizi elə burada saxlayaq!

Pirlər sağollaşıb çıxdılar. Mən də tanışlarımla birgə parlamentə getdim.

Parlament düz şəhərin ortasında, geniş bir meydanda yerləşirdi. Meydan boyunca uca binalar sıralanmışdı. Soruşub bu binalarla maraqlandım. Biri antik abidələr muzeyi, digəri panteon, üçüncüsü ümumi kitabxana, dördüncüsü isə incəsənət muzeyi imiş. Panteonun üzərində qızıl hərflərlə bu sözlər yazılmışdı: "Sərbəst ölkənin böyük övladlarına minnətdarlıq abidəsi". Mənə izah edəndən sonra anladım ki, sərbəst ölkənin yetirdiyi bütün böyük adamlar burada uyuyurlar. Sən demə, əhali hər gün dəstə-dəstə buraya gəlir və orada əbədi yatan böyük adamların ömür yolundan, ölkə qarşısındakı xidmətlərindən balaca uşaqlara söz açırmış.

Geniş yol bizi mərmər sütunlu binaya aparırdı. Yolun hər iki tərəfinə qadın və kişi heykəlləri düzülmüşdü. Başçımızın verdiyi izahata görə, bunlar Parlamentdəki xidmətləri ilə özlərini tanıtmış parlament üzvlərinin heykəlləri imiş.

İkinci mərtəbədə geniş bir lojaya girdim. Qonaq evindəki tanışlarımın hamısını orada gördüm. Aşağıda, böyük bir salonda amfiteatr şəklində sıralanmış, təxminən 400 kresloda məclisin üzvləri oturmuşdular. Onlar parlament sədrinin gəlməsini gözləyirdilər. Rəyasət heyətinin arxa tərəfində bir əlində dəfnə yarpağı tutub o biri əlini irəliyə doğru uzadan, mərmərdən yonulmuş bir qız heykəli vardı. Bu heykəl sərbəst ölkənin simvolu idi. Yuxarıdakı lojalar ağzınacan dolmuşdu. Başçımız anlatdı ki, hər gün belədir və bu ölkədə parlament bir növ xalq

universitetinə çevrilib. Müxtəlif məsələlərlə bağlı mübahisələri dinləmək üçün hamı bura can atır.

Həmin gün Büdcə qanunu müzakirəyə çıxarılacaqdı. Sərvət üzərinə mütərəqqi bir verginin qoyulması haqqında hökumətdən gələn təklif qızğın mübahisələr doğuracaqdı.

Parlament rəisi gələn kimi, iclasın başladığını bıldırdı.

## PARLAMENTDƏ NƏLƏR GÖRDÜM?

Bəstəboy, şişman bir adam kürsüyə çıxdı. Dəstə başçımız qulağıma əyilərək: "Maliyyə naziridir, məşhur maliyyəçidir" - dedi.

Nazir əlində tutduğu bir topa kağızı önünə qoyaraq, öz layihəsini açıqlamağa başladı. Sonra müxtəlif nəzəriyyə və sistemlərdən bəhs edərək, sərvət üzərinə mütərəqqi vergi qoyulması ehtiyacını anlatdı.

İstər məclis üzvləri, istərsə lojalarda əyləşənlər çox diqqətlə, səssizcə dinləyirdilər. İzahat bitər-bitməz iki nəfər söz istədi. Onların kimliyini soruşdum. Başçımızın söylədiklərindən anladım ki, məclisdə mərkəzçi, sağçı və solçu olmaqla üç partiya varmış. Həm də millət vəkili olan maliyyə naziri mərkəzçi partiyaya mənsubmuş. Ölkədəki ənənəyə görə, hər bir partiyanın ayrı-ayrı elmlərdə ixtisaslaşmış çoxlu mütəxəssisi olduğundan, hər bir məsələ müzakirəyə çıxarılanda, partiyanın adından yalnız həmin mütəxəssislər söz söylərmiş. Digər partiya üzvləri öz davranış və rəyləri ilə çıxışçını müdafiə edərlərmiş.

Sağçı partiyanın sözlüsü nazirin bəyanatını şiddətli tənqidə tutaraq, layihənin rədd olunmasını tələb etdi. Solçu partiyanın çıxışçısı isə nazirin açıqlamasını bəyənməklə bərabər, layihəni yetərli saymadı. O, nazirin qəbul etdiyi vergi rəqəmlərini və vergi nisbətini lazım olduğundan az hesab edərək, layihənin bu baxımdan düzəlişi üçün yenidən komissiyaya qaytarılması təklifini irəli sürdü.

Nazir bir daha kürsüyə çıxaraq, tənqidlərə bircə-bircə cavab verdi və layihənin olduğu kimi səsə qoyulması üzərində dayandı.

Bu dəfə partiyaların digər mütəxəssisləri də söz alıb kürsüyə çıxdılar. Diqqətimi çəkən o oldu ki, müzakirələr zamanı xırdaca bir qızğınlığa da yol verilmədi. Çıxışçılar mövzudan yayınmır, söylənən fikirləri, vergi sistemlərini var qüvvə ilə müdafiə və ya tənqid etsələr də, bir-birlərinə qarşı çox sayqılı davranış göstərirdilər. Heyrət məni götürmüşdü. Yanımdakı tanışıma dedim:

- Necə qəribədir! Heç hirslənib özlərindən çıxmırlar. Azacıq da olsa, bir-birinin şəxsiyyətinə toxunmurlar.

- Elədir, mən də mat qalıram.

Sən demə, başçımız bizi eşidirmiş. Gülümsəyərək bildirdi ki, "niyə hirslənməlidirlər axı? Atalarının malını bölüşdürmürlər ki. Hamısının bir məqsədi var - ölkəyə xidmət! Və hər kəs digərinin gözəl niyyətinə, səmimiyyətinə arxayın

olduğundan, qızışıb özündən çıxmağa səbəb yoxdur." Bu cavabı dinlərkən yenə öz ölkəmi xatırladım. Və yenə öz ölkəmin əvəzinə qızarıb xəcalət çəkdim.

Müzakirə davam edirdi. Başçımız bizə doğru əyilib dedi:

- Büdcənin müzakirəsi hələ iyirmi gün sürəcək. Hələ iyirmi gün parlament üzvləri gecə-gündüz çalışacaq! Yenə dinləyəcəksiniz?

Artıq axşam düşürdü. Başçımızın getmək istədiyini anlayıb biz də ayağa qalxdıq.

## UNİVERSİTETDƏ

Ertəsi gün bizi universitetə və kimya institutuna aparacaqdılar.

Universitet şəhər içində şəhərə bənzəyirdi. Dünyanın hər yanından gələn 16 min tələbəsi və alimlik şöhrəti hər tərəfə yayılmış 150 professoru vardı. Kitabxanasında 400 min cilddən çox kitab toplanmışdı. Saray kimi işıqlı salona girdiyimiz zaman gördüyümüz mənzərə bizi mat qoydu. Yüzlərcə tələbənin başı oxumağa qarışmışdı. Təkcə istəmək bəs idi ki, istənilən kitabı üç dəqiqənin içində tapıb verirdilər. Kitabları bəzən ikinci, üçüncü mərtəbədən gətirirdilər. Kitabın adı yazılmış kağız parçası maşın vasitəsi ilə yuxarıya göndərilir və bir dəqiqə sonra həmin kitab öz-özünə sürüşüb xüsusi oyuqdan çıxırdı.

Cərrahiyyə otağında, fizika və kimya laboratoriyalarında müəllim və tələbələr cərrahlıq öyrənir, araşdırma və sınaqlar aparmaqla məşğul olurdular. Burada bir yerdə insan meyidinə baxıb, bədən üzvlərini öyrənir, bir başqa yerdə kəllə sümükləri üzərində sınaq keçirir, üçüncü bir yerdə meymunların qanı üzərində təcrübə aparırdılar. Bir sözlə, bu əzəmətli binanın hər tərəfində gənc nəsil ağsaçlı müəllimlərin rəhbərliyi ilə çalışmaqda, həyata hazırlanmaqda idi.

## İNSTİTUTDA

Universitetdən sonra kimya institutuna getdik. Bu institut sözün tam mənasında bir möcuzə aləminə bənzəyirdi. Ağ önlüklü, iri gözlüklü, ağsaçlı müəllimlər yan-yörələrindəki minlərcə şüşənin, çeşid-çeşid alətlərin, yanan və fışıldayan külçələrin içində qədim sehrbazları xatırladırdılar. Tələbələr xırdaca qabların içində nə isə əzir, müəllimə göstərirdilər. Müəllim həmin qablara şüşələrdən nə isə tökən kimi bir qaynaşma, bir parıltı başlayır və alov səngiyəndən sonra səpilən tozun yerində büllur kimi bir maddə yaranırdı.

Başqa bir tərəfdə bir başqa müəllim elektrik sınaqları keçirirdi. Bir başqa yerdə isə, hamının diqqəti cürbəcür qaz istehsalına yönəlmişdi. Başçımız mənə doğru əyilib dedi:

- Tanıdığımız alınma qazlar burada hazırlanır. Bax, o balonları görürsən? Hamısı qazla doludur. Həmin qazı da bu balaca, çəlimsiz adam kəşf edib. Həyatının 30 ilini qazların tədqiqinə verib.

Mən heyrətlə bu arıq adama baxdım və o cür balaca başdakı beyinin böyüklüyünə mat qaldım.

Sanki arı pətəyinə düşmüşdüm. Bu sahədə çalışan adamı, həm də vurğunluqla çalışan adamı heç görməmişdim. Yəqin bu üzdən də yorğunluq duyub, yanımdakı tanışıma dedim:

- Əzizim, mən yoruldum, daha dözə bilmirəm. Gördüklərimdən sarsılmışam. Gəl açıq havaya çıxıb, bir az özümüzə gələk.

Sən demə, tanışım da elə mənim halıma düşübmüş. Oradan çıxaraq, institut bağındakı skamyalardan birinə tirtab düşdük. Tanışım barmağı ilə ətrafda qaynaşan insanları göstərib: "səy və bilik gör nələr yaradır. Bax bütün bunlar azadlığın bəhrəsidir!" - dedi.

- Amma bir iş var, əzizim. Adam bilmir ki, azadlıq bu meyvələri yetirib, yoxsa meyvələr azadlığı doğurub... Bu məsələ çözülməlidir.

- Bütün hallarda azadlıq əsasdır. Onsuz səy və biliklərimiz boşa gedər, yayılmaz. Buna ən yaxşı sübut azad olanlarla olmayanlar arasındakı fərqdir. Yəni tənqid və sərbəst düşüncədir. Bax, o düşüncə hər cür biliyə yol açar, boş əqidələri beyindən atar, yanlış yollardan qoruyar, səhvləri düzəldər, fəaliyyəti doğru yola yönəldər. Dünəndən bəri gör neçə ayrıca və bir-birini tamamlayan nəzəriyyələr dinlədik. Səy və bilikləri doğru yola yönəldən mübahisələrin şahidi olduq. Deməli, aydındır ki, bu ölkədə belə sərbəstlik olmasaydı, heç vaxt indiki qədər irəliləməzdi.

- Ancaq bunu da danmaq olmaz ki, biliklər yayıldıqca, səylər çoxaldıqca, azadlıq da güclənib canlanır.

- Əlbəttə! Təsirlər qarşılıqlıdır. Biliksiz və səysiz azadlıq tam sayılmaz. Belə azadlıq şikəst azadlıqdır. Axı o halda azadlığın özünü yerbəyer etməsi çətinləşdiyi kimi, dolanışıq və güzəran üçün də başqalarına ehtiyac yaranır. Başqalarının fikri, elmi, sənayesi səni öz təsiri və nüfuzu altına salır. Bu da o demək deyil ki, tam azadsan. Xoşbəxt o yerlərdir ki, həm azaddır, həm də özü düşünüb, özü yaradır. Yaratmaq qabiliyyəti olmayan ölkələr, adətən, belə yerlərin təbəəsinə çevrilir. İstər-istəməz, onlara ödənc verməyə, vergi ödəməyə məcbur qalır.

Yaratmaq bacarığı uzun müddət sürən sərbəst çalışmanın nəticəsidir. Bax, buna görə də bütün dərdlərin dərmanı azadlıq, azadlıq, yenə də azadlıqdır!

Artıq gecə düşürdü. Qonaq evinə qayıtmağın vaxtı çatmışdı. Bəxtimizdən qısa zaman içində adamı şəhərin hər hansı bir yerinə yetirən metro stansiyası Universitet bağı ilə üzbəüz idi. Oraya getdik.

Elektriklə çalışan enli pillələrlə - eskolatorla aşağı endik. Bir də gördük ki, geniş, təmiz, həm də işıqlı bir dayanacağa çatmışıq. Bircə dəqiqədən sonra qatar gəldi. Önümüzdəki vaqona minib, düz yeddi dəqiqədən sonra qonaq evinin yerləşdiyi küçəyə çatınca düşdük.

Orasını da deyim ki, qatarda nə bilet vardı, nə də nəzarət. Yalnız başçımız metroya girərkən bir qutuya üç ayrı-ayrı jeton atdı. "Burada bilet və nəzarət olmur ki?" - deyə soruşanda isə:

- Yox, yolhaqqı qutuya atılır! - deyə cavab verdi.

- Bundan sui-istifadə etmirlər?

- Belə hal olmayıb. Önəmlisi - insanlara inanmaqdır. İnam artdıqca, doğruçuluq da artır.

Sonra rəhbər bunu da sözlərinə əlavə etdi:

- Bu qatarlar hər gün 500 min işçi daşıyır.

## PİRLƏRLƏ TƏZƏ SÖHBƏT

Üç gün sonra pirlər yenə gəldilər. Onlardan soruşdum:

- Bu gün söz və yaşayış sadəliyi haqqında qanunda göstərilənləri bir az açıqlaya bilərsiniz?

- Böyük həvəslə! Bu iki sadəliyə də azad insanlar ölkəsində ayrıca dəyər verilir. İnsanları azadlığın dayağı olan doğruçuluq və səmimiyyətə, qənaətçillik və gözütoxluğa həmin sadəliklər alışdırır.

- Başa düşmədim, ustad! Onda hər iki sadəlikdən ayrıca danışaq.

- Söz sadəliyi deyəndə anlatmaq istədiyin məqsədi aydın şəkildə və uzun-uzadı əlavələrsiz söyləmək nəzərdə tutulur. Tutalım, vəzifə sahibi olan birinə hər hansı bir işimizi söyləyərkən - "Sizə filan işi söyləmək üçün gəldim" - demək daha doğrudur. Ancaq bunun yerinə "yüksək hüzurunuza acizanə diləklərimi yetirməyə cəsarət etdim" - kimi sözlər işlətməyiniz yersizdir.

- Nə danışırsınız, ustad! Ədəbli və tərbiyəli bir adam böyük vəzifəli bir şəxsin qarşısında o cür davranmamalıdırmı?

- Bəli, alışdığınız tərbiyə elə tələb edir. Ancaq sərbəst insanlar ölkəsi kimi demokratik bir yerdə həmin üslub yaramaz və bəyənilməz.

- Bunun nəyi yaramır ki?

- Üz tutduğun adama xoş görünmək üçün yaltaqlıq etməzlər. Özün düşün, heç "yüksək hüzur" ola bilərmi? Hüzur hüzurdur, nə yüksəyi var, nə də alçağı! Sonra "dilək" nə deməkdir? Azad bir ölkədə kimsə kimsəyə diləyini yetirməz, vəzifələrindən və gördükləri işdən asılı olmayaraq, bütün vətəndaşlar bərabərhüquqludurlar. "Dilək" deyəndə, aşağıdan yuxarıya üz tutmaq, bir növ, harayını çatdırmaq nəzərdə tutulur; halbuki, azad ölkədə aşağıdan, yuxarıdan söhbət gedə bilməz. Üstəlik, bütün bunlara "acizanə" sözünü də artırmaq başdan-başa saxtakarlıqdır. Axı aciz, ya da qadir dilək olmur, dilək elə diləkdir! "Cəsarət" kəlməsi də yersizdir. Çünki haqlı diləyini söyləmək hər bir vətəndaşın haqqıdır. Heç kəs bu haqqı dana bilməz. Bu haqqın tanınması da təbiidir və bunun üçün cəsarətə - filana gərək yoxdur. Açıq görünür ki, bütün cümlə başdan-başa süni və saxtadır. Belə cümləni işlədən hər bir adam özünü alçaldır, qarşısındakını

yüksəldir, özünü aciz, qarşısındakını özündən artıq bilir. Bununla da əvvəlcə vətəndaşlar arasındakı bərabərlik prinsipini dağıdır, sonra isə həm özünün, həm də qarşısındakının xarakterini pozur. Və bütün bu alçaltmalara yalnız öz diləyini gerçəkləşdirmək üçün qatlanır. İstibdad zamanı belə davranış təbii sayılır. Çünki o rejimdə haqqa, həqiqətə baxılmaz. Xahişlərin çoxu haqsız olduğu kimi, onların qəbul olunub-olunmaması da vəzifə sahibinin kefinə bağlıdır. Həmin vəziyyətdə vəzifə sahiblərinə yaltaqlanmağı anlamaq mümkündür. Ancaq sərbəst insanlar ölkəsində buna dözmək olmaz!

- Ustad, getdikcə lap mat qalıram. Mən o deyim tərzinə çoxdan alışmışam. İndi dilimi necə dəyişdirəcəyəm?

- Çalışmaq, qeyrət göstərmək lazımdır. Başqa cür mümkün deyil!

- Ancaq, ustad, belə xırdaçılığa qədər getmək vasvasılıq deyilmi?

- Yox, yox! Bu xırdaçılıq deyil. Bəlli bir ruhun, bir düşüncənin ifadəsidir. Diqqət yetir! İstibdad üsulu özünəxas danışıq tərzinə bəzək-düzək vermək üçün gör nə qədər çalışıb! Zülmkar rejimdə istər yazı, istərsə danışıq dili çox yüksək, çox bəzəkli, çox görkəmli və əzəmətlidir. Məqsəd də bir tərəfdən xalqı alçaltmaq, ona yazıqlıq, acizlik və qorxu aşılamaq, digər tərəfdənsə zülmkar rejimin özünü əzəmətli, vüqarlı, eyni zamanda qorxunc və dəhşətli göstərməkdir.

## BÖYÜKLƏRƏ NECƏ SAYQI GÖSTƏRİLİR?

Ustad hələ də mənim gözümü açırdı: "İstibdad sadəliyə heç dözməz, sözün doğrusunu söyləyəni həmişə utanmazlıqda, başından böyük danışmaqda suçlayar. Bax, buna görə də, əslində şah və sultan olanlar, axırda şahənşah (şahların şahı), padişah (şahların başı, baş padişah), hökmdari-əzəm (böyük hökmdar), zillüllah (Allahın kölgəsi), müəyyəd min taraf illah (Allahdan güc alan), şəhriyari-əzəm (əzəmətli şah), əlqaimi-billah (Allahın yerini tutan), əlmutəsimi billah (Allahın yolunu göstərən) adlanıblar. Yenə bu səbəbdəndir ki, əslində vəzir və vəkil olanlar, axırda sədri-əzəm (baş vəzir), sərdari əkrəm (əliaçıq komandan), saidüdövlə (dövlətin görkəmlisi), rüknülmülk (mülkün dirəyi), sərdari küll (hamının komandanı) və s. olublar.

Qocalmağa başlayan pozğunlar köhnə günləri xatırlatmaq üçün üz-göz boyasına və bər-bəzəyə güc verdikləri kimi, bu başsız, beyinsiz adamların yarıtmaz idarəsi ucbatından dağılıb xarabaya çevrilən mühitlər yalançı adlara və qurama üslublara söykənirlər!.. Beləcə, görkəmli və əzəmətli görünməklə içdən çürüdüklərini gizlətməyə çalışırlar.

Misal üçün, ölkəsi xarici müdaxiləyə məruz qalan və ölkədə yeganə elektrik maşınları idarəsinə təyin olunmuş rəisə yazılmış bir ərizənin başlığını eynən sənə çatdırıram:

"Hüzuru bəndəqani cənabi mustətab, əcəllu əkrəmu əfhamu vala vəziri lambei elektrikiyei humayuni muddə zillahulali" (Ən böyük, səxavətli, ali və

niyyəti gözəl, ilahinin mübarək kölgəsi - elektrik lampası nazirinin çox hörmətli cənab müşavirinin hüzuruna).

Görürsənmi, nə qədər gurultulu müraciətdir. Bir nağara gumbultusuna oxşayır. Ancaq diqqət yetirsən, bu gurultu gör nə qədər boşluğu gizlədir.

Birincisi, vur-tut, bircə elektrik lampasından ötrü ayrıca nazirlik qurularmı? Sonra zavallı ərizəçi bu elektrik lampası nazirinə birbaşa üz tutmaq cəsarətini özündə tapmır! Vasitə kimi onun müşavirindən faydalanır. Daha sonra bu bircə lampanın nazirinə əcəl, əkrəm, əfham, vala ünvanlarını verir, axırda da həmin nazirin əbədi kölgəsinə sığınır!..

Övladının bu qədər alçalmasına razı olan bir ölkə uğur qazana bilərmi? Bütün bu qurama və yapma dildən, ləyaqət və həqiqətlə əsla əlaqəsi olmayan bu yalançı adlardan məqsəd nədir? Təbəənin zillətini və başçının əzəmət və gücünü ifadə deyilmi?

O cür üslubun hakim olduğu mühitdə, doğruçuluqdan, səmimiyyətdən, gerçək sevgidən, gerçək bağlılıqdan, bir sözlə, ictimai yaşayışın təməlini quran əlaqələrdən nişanə qalırmı? Bax, həmin səbəbdən, zahirən möhkəm və bir yumruq kimi görünən bu mühitlər elə toxunmağa bənddir ki, qum topası kimi dağılsın. Üstəlik, belə yerlərdə bu qədər ad-san, bu qədər əzəmət və böyüklüklə hər yanı dövrələnmiş bir nazirin süqut gününü xatırlamağa dəyər! Hələ işdənçıxma xəbəri çıxar-çıxmaz hamı ondan qaçar və talenin xoş vaxtlarında ona qəsidələr həsr edib, mədhiyyələr yazanlar, bərli-bəzəkli sözlərlə ona üz tutanlar indi də hər yandan qarğa kimi üstünə uçuşar və danlaq, söyüş və qaxınc üslubuna qol-qanad verərək, evini, əşyasını soyub-çaparlar. Min dəfə təcrübədən çıxmış bu halı şair aşağıdakı beytində nə gözəl təsvir edib:

"Xuda göstərməsin asari izmihlali bir yerdə,
Ahibba şiveyi yağmada məbhut eylər adayı".

(Allah heç bir yerdə belə dağıntını göstərməsin,
Əziz adamlar düşmən diliylə namizədi mat qoyarlar).

Sərbəst insanlar ölkəsində isə, nə təsadüfi bəxt var, nə qəsidə, nə öygü, nə də qarət.

- Təşəkkür edirəm, ustad! Söz sadəliyinin mənəvi və tərbiyəvi əhəmiyyətini anladım. Keçmişdəki bir çox hadisələrin hikməti mənə indi aydın oldu. Ancaq beynimdə bir sual var, onu da cavablayarsınızmı?

- Söylə!

- Sərbəst insanlar ölkəsində böyük adamlara sayqı göstərib baş əymirlər?

- Sərbəst ölkədə böyük adamlara nə qədər desən sayqı göstərilir. Bir bağçalarımızı, parklarımızı, meydanlarımızı, muzeylərimizi, məktəblərimizi gəz. Hər tərəfdə böyük adamların heykəllərini, abidələrini, şəkillərini görəcəksən.

Tariximizi, ədəbi əsərlərimizi oxu. Böyük adamların ömür yolu ilə, yaratdıqlarının dolğun məzmunu ilə, onların başına gələn hadisələr əsasında yazılmış hekayələr, romanlar və teatr pyesləri ilə doludur. Onlara diri çağlarında sayqı göstəririk. Öləndən sonra isə unutmuruq. Daim minnətdarlıqla yad edirik. Adlarını qəlblərimizdə yaşadır, xatirələrini nəsildən-nəslə yetiririk. Ancaq bütün bunları edərkən, özümüzü, öz şəxsiyyətimizi, ləyaqət və şərəfimizi də yaddan çıxarmırıq.

Üstəlik, böyük adamların nöqsanlarını, səhvlərini, çatışmazlıqlarını da diqqətə yetirməkdən çəkinmirik. Onları şişirdib insanlıqdan çıxarmaqdan, bütə çevirməkdən çəkinirik. Qısası, sərbəst ölkə bu baxımdan həm sayqının ağını çıxarmaqdan, həm də sayqısızlıq göstərməkdən eyni dərəcədə çəkinir. Halbuki qəsidəyə və həcvə alışqan mühitlərdə böyük adamlar öyülüb asanlıqla büt dərəcəsinə qaldırıldıqları kimi, işdən çıxarılandan və ya ölümlərindən sonra, həcvlə, yəni acı tənqid və qaxıncla yenə də o cür asanca alçaldılırlar. Həqiqətdə, belə mühitlər böyüklüyün nə olduğunu da anlamır. Görkəmli adamları tezcə unudur, xatirələrini qorumur, məktəblərdə, muzeylərdə, küçələrdə şəkilləri, heykəlləri görünmür. Çoxları onların bioqrafiyasından da xəbərsiz qalır. Deməli, gerçəyə qalanda, həmin mühitlərin sayqı göstərib əziz tutduqları şey böyüklük deyil, gücdür, qüvvədir.

Nə qədər ki, böyük adamlar güc sahibidirlər, o güc mühitində yaşayan insanlar öz şərəf və ləyaqətlərini belə unudaraq onları bütə çevirirlər. Ancaq böyük adamların gücü azalar-azalmaz, həmin insanların gözündə hər cür dəyər və qiymətlərini itirər və onlardan ən ağır söyüş və təhqirləri belə əsirgəməzlər.

Sərbəst insanlar ölkəsi isə bu iyrənc şişirtmə və alçaltmalardan özünü qoruyur və yetirdiyi böyük adamları göylərə qaldırmadığı kimi, çirkaba da atmır.

- Ustad, yenə bütün varlığımı alt-üst etdiniz. Yenə bir az tək qalmaq, düşünmək istəyirəm. İcazənizlə, bu günkü söhbəti bitirək.
- Lap yaxşı! İki gündən sonra yenə görüşərik.

## İRİ MAŞINQAYIRMA ZAVODU

Pirlər getdilər. Eşitdiklərimi düşünməyə başladım. Tərəddüdlərim, içimdəki şübhələr hər gün artmaqda idi. Bu gün tamam aşıb-daşdı. Nə qəribə ölkədir! Adətləri bizimki ilə daban-dabana ziddir. Görəsən, öyrəşə biləcəyəmmi? Görəsən, öz mühitimin izlərini, orda alışdığım düşüncə tərzini, orda aldığım tərbiyəni atıb unuda biləcəyəmmi? Özümü sınayanda, nəsə ruhdan düşürəm.

Tutalım, təsəvvürümə gətirirəm ki, bir vəzifə sahibinin yanındayam. Ona üz tutarkən, "ayağınızın altındakı torpağa üzümü sürtmək şərəfinə nail olmaq üçün sizi rahatsız etdim" kimi alışdığım müraciətin yerinə, "sizi görməyə gəldim" cümləsini işlədirəm. Bu sözdən canıma qorxu düşdü və öz-özümə "bu necə ola bilər?" sualını verdim. Vəzifə sahibi qəzəblənməzmi? Mısmırığını sallamazmı?

Məni yanından qovmasa belə, ürəyində "nə qədər utanmaz adamdır!" deməzmi? Və məni bir də öz qəbuluna buraxarmı?

Lap vəzifə sahibi dözsə də, yanındakılar bir-birinə baxıb və məni gözləri ilə göstərib, çiyinlərini çəkməzlərmi? Ürəklərində "tərbiyəsizin, utanmazın biri!" deməzlərmi? Və mən gedəndən sonra tərbiyəsizliyimi, utanmazlığımı sübuta yetirməkdən ötrü min bir əhvalat, dedi-qodu, nağıl uydurmazlarmı?

Beynimdə bu fikirlər dolaşarkən, ağlım sanki başqa bir mühitdə olduğumu unudur və məni ümidsizliyə sürükləyirdi. Ancaq sonra qəfildən özümə gəlir və uca səslə: - "Əzizim, sən azad olmaq istədin axı. Sərbəst ölkəyə də buna görə gəldik. Burada insanlar da, çəkinəcəyin şeylər də bambaşqadır" - deyərək öz-özümə gülümsəyirdim. Amma yenə də beynim alışmırdı, öyrəşdiyi yoldan ayrıla bilmirdi, məni həmişə oraya doğru çəkirdi. Bircə bilsəydiniz necə hirslənirdim?!

Öz əlimdə olsaydı, beynimi başımdan çıxarıb yerinə başqasını qoyardım. Ancaq yazıqlar ki, buna imkan yoxdur. Heç bilmirəm nə edim? Bu yeni mühitə necə alışım?

Acı bir ümidsizlik doğuran həmin sual o gün məni çox üzdü. Nəhayət, yerimdən sıçradım və sanki bir kölgədən qurtulmaq üçün özüm-özümə bağırdım: "Yəni səndə iradə yoxdur? Qoy iradən beyninin hakimi olsun. Və beynin səni köhnə yollara doğru sürükləyəndə, iradən beynini saxlasın, ona "dur" desin!

Bax belə! Beynimə "dayan, bu yana çevril!" – deyə əmr edəcəyəm. Elə də etdim. Silkinəndən sonra getməyə hazırlaşdım. Maşınqayırma zavoduna dəvət olunmuşduq.

Artıq bir saatdan sonra tanışlarımla bərabər zavodda idik. Bu nəhəng bina şəhərin kənarında yerləşirdi. Ayrıca qatar zavodun içinə qədər aparırdı.

Gördüklərimin əzəmətinə heyran qaldım. Binanın içərisində yüzlərcə qadın və kişi çalışırdı. Qadınları yalnız saçlarından və qulaqlarındakı sırğalardan tanımaq olurdu.

Zavodda avtomobildən tutmuş, zirehli qatarlara, lokomotivlərə, toplara, mərmilərə, bombalara qədər hər şey hazırlanırdı. Hər tərəfdə iri kürələr və sobalar alov püskürür və dözülməz isti yaradırdı. Uzun və qalın maşalarla odun içindən çıxarılan qıpqırmızı və yekə dəmir parçaları maşınla hərəkətə gətirilən çəkiclərin altında bükülüb qıvrılırdı. Məngənənin dişləri polad parçasını xurd-xəşil edirdi. Sobadan sıçrayan qığılcımlar az qala tavana çatırdı.

Bir az o yanda iri bir qayış kəmər dayanıqlı bir silindrə dolanaraq ara-kəsilmədən fırlanır və Misir ehramları kimi yüksələn silindirləri qorxunc bir hay-küy içində gah aşağı, gah yuxarı dartırdı.

Bu arada zəng çalındı. Adamların hamısı bir tərəfə çəkildi. Mən də qırağa çəkiləndə, sanki bir möcüzə ilə rastlaşdım. Döşəməyə sərilmiş min bir dəmir parçası birdən-birə havada uçuşmağa başladı. Öncə çaşıb qaldım və elə bildim ki, nə isə baş verib. Ancaq sonra diqqət yetirib gördüm ki, dəmir parçaları bir nöqtəyə doğru uçuşur və arı balası kimi bir-birini minərək, iri bir kütləyə yapışırdılar. Bir

azdan anladım ki, bu kütlə elektriklə maqnitləşdirilmiş və tavana pərçimlənən bir rels vasitəsi ilə ta binanın ortasınadək sürüklənmiş bir dəmir parçasıdır. Dəmir parçalarını da bax, o maqnit özünə çəkirmiş.

Nəhayət, bütün dəmir parçaları toplandıqdan sonra, o kütlə yenə eyni rels vasitəsi ilə binanın özəl girişinədək sürükləndi. Və daha sonra girişdə onu gözləyən yük qatarının üzərində dayandı. Elə bu vaxt elektrik cərəyanını kəsdilər və bütün parçalar qorxunc bir gurultu qoparıb, açıq vaqonlara düşdü. Sonra qatar yerindən tərpəndi. Mən bu mənzərəyə hələ də mat-mat baxarkən tanışım yanıma gəlib dilləndi:

- Bu da əsrin min bir möcüzəsindən biri!

- Bəli, bilik və səyin möcüzəsi!

Bilirsənmi ki, bizim pulumuzun xeyli hissəsi bu zavoda gəlir?

- Necə yəni?

- Lokomotivləri, topları, relsləri və sairəni görmürsənmi? Belə şeylərin hamısını buradan alırıq!

- Yəni gerilik vergisi veririk!

- Elədir! Doğru söylədin. Doğrudan da, gerilik vergisi ödəyirik!

## YAŞAYIŞ SADƏLİYİ

Ertəsi gün pirlər deyilən vaxt gəldilər. Bu dəfə onlardan yaşayış sadəliyi haqqında danışmalarını istədim. Onlardan biri: "Yaşayış sadəliyi də söz sadəliyi qədər önəmlidir" - deyə sözə başladı:

- Sadə yaşamağa alışqanlıq mənəvi azadlığın təməlidir. Sərbəst ölkə buna da ayrıca önəm verir. Yersiz vərdişlər və bu vərdişlərin yaratdığı ehtiyaclar insanların azadlığı üçün bir tələdir. Çünki insan belə vərdiş və ehtiyaclarını qanuni qazancla ödəyə bilmirsə, istər-istəməz başqalarına sığınmağa, onlara yarınmağa və onların maddi, mənəvi təsiri altında qalmağa məcbur olur. Halbuki sadə yaşamağa alışmış adamlar həmin təhlükə ilə üzləşmirlər. Məhz belə adamlar öz azadlıqlarını daha asan qoruya bilirlər.

- Ustad, amma burada iki məsələ çıxır axı. Biri - qazanc artdıqca yersiz vərdişlərin də çoxalması, digəri isə mədəniyyətin insanlarda hər gün yeni ehtiyaclar doğurmasıdır. Bax, bu haqda nə deyərdiniz?

- Haqlısan. Qazanc artırsa, bütövlükdə boş vərdişlər də artır. Mədəniyyətə gəlincə, o da boş vərdiş və ehtiyacların çoxalmasına səbəb olur.

Ancaq məsələ bunda deyil. Məsələ mədəniyyətin yüksəldiyi, ehtiyacların artdığı yerdə də yersiz vərdişlərin quluna çevrilməməkdədir. Mədəniyyət yoluna təzəcə çıxan mühitlər üçün bu məsələ ayrıca önəm daşıyır.

Mədəniyyəti aramla yüksələn mühitlərdə adamların qazancları da yavaş-yavaş, təbii şəkildə artır. Bu baxımdan, ümumi sərvət həmişə mədəniyyətin səviyyəsinə uyğun gəlir.

Belə mühitlərdə vərdişlər və vərdişlərdən doğan ehtiyaclar gerçək və təbiidir. Axı bunları ödəmək üçün əldə edilən qazanclar da eyni nisbətdədir. Deməli, azadlıq və sərbəstlik üçün təhlükə yoxdur. Ancaq bir də görürsən ki, hələ iqtisadi həyatı inkişaf etməmiş mühitlər mədəniyyətin on son gerçəklərini yamsılamağa başlayırlar. Bax, bu təhlükəlidir. Həqiqi və qanuni qazanclar qurama və qeyri-təbii vərdişlərdən irəli gələn yenə süni və yenə qeyri-təbii ehtiyacları ödəməyə bəs etmədiyindən, öz vərdişlərinin quluna çevrilənlər qanunsuz qazanclar yolunu tutmağa başlayırlar. Bununla da mühit maddi və mənəvi baxımdan uçuruma doğru sürüklənir.

O cür mühitdə hər kəs istər-istəməz, gözünü dövlətin xəzinəsinə dikir və bu xəzinənin açarlarını əllərində tutanları görəndə vurnuxur, onların meyl və arzularına görə davranır və beləcə, yavaş-yavaş yalan, ikiüzlülük, yaltaqlıq, sui-istifadə, didişmə və sair pozucu bəlalar cəmiyyəti öz toruna salır və ellikcə çürümə başlayanda, digər üstün keyfiyyətlər kimi, azadlıq da itirilir.

Görmürsənmi, istibdad quruluşunda insanları bədxərcliyə, iyrənc əyləncələrə, kef məclislərinə, bər-bəzəyə və bu kimi pozucu vərdişlərə alışdırmaq düşünülmüş bir sistemdir. Bütün o sırıqlı uniformalar, par-par parıldayan paltarlar, o möhtəşəm avtomobillər, faytonlar, o əzəmətli saraylar, o zərbafla parçalar və qab-qaşıq, o daş-qaş və ipəklər yalnız və yalnız adamların tamah hissini oyandırmaq və onları bütün bunların qaynağı olan saraya, yəni hakimiyyətə bağlamaq üçündür.

Padşahlara boş yerə "minnət qoymadan yaxşılıq edən ağamız" ("vəlineməti - biminnət Əfəndimiz") deyilməyib ki? Sərbəst ölkənin idarəçiliyi isə öz təbiəti baxımından bunun tamam əksidir. İstibdadın amacı kölə yetirməkdir. Dəbdəbə, bədxərclik və pozğunluq məhz kölə yetirmək vasitələridir. Sərbəst ölkənin isə məqsədi sadəlik və ləyaqət vasitəsilə vətəndaş yetirməkdir.

- Ancaq ustad, sadə yaşamaq vərdişinə necə alışırlar? Sərbəst ölkədə hər bir adamın istədiyi kimi yaşamaq yetkisi yoxdurmu?

- Əlbəttə, var. Ancaq bizim tərbiyə üsulumuz vətəndaşları sadə yaşamağa alışdırır.

- Necə?

- Lap asan. Ta uşaqlıqdan vətəndaşlarımızı sadə yaşamağa alışdırırıq. Hələ beşikdə ikən onları əhatə edirik. Ölkənin öz malından hazırlanmış sadə və təmiz şeylərlə edirik. Gözlərini və beynini bu sadəliyə alışdırırıq. Məktəb çağında varlıya, yoxsula fərq qoymadan, hamısına eyni biçimdə hazırlanmış ucuz və təmiz paltarlar geydiririk. Bər-bəzəyi və dəbdəbəli yığıncaqları məsləhət bilmirik. Bədxərcliyə, təmtərağa qarşı biganəlik aşılayırıq. Bax beləcə, öz-özünə, vətəndaşlar sadə yaşamağı öyrənir, dəbdəbəli həyata və israfçılığa ehtiyac duymurlar.

Sən xeyli vaxtdır ki, buradasan. İndi söylə görüm, qadınlarımızda, kişilərimizdə, ya da həyatımızın hər hansı sahəsində dəbdəbə və bədxərclik deyilən bir şeyə təsadüf etdinmi?

- Xeyr, ustad! Bu özəllik məni həmişə heyrətləndirirdi. Səbəbini indi anladım.

## HÜQUQLARIN QORUNMASI BİR VƏZİFƏDİR

- Ustad! Qanunda olan maddələrdən çoxunu açıqladınız. İzaha ehtiyacı olan çox az maddə qaldı. Onlardan birini də aydınlaşdırarsınızmı?

- Hansını?

- Bir maddədə deyilir ki, hüquqları qorumaq vəzifədir. Bu maddə necə anlaşılmalıdır?

- O cür anlaşılmalıdır ki, hər hansı vətəndaşın hüququ tapdalandığı zaman həmin hüququ müdafiə etmək hər bir vətəndaşın borcudur.

- Bu necə ola bilər, ustad? Ölkədə gör nə qədər insan yaşayır. Çoxları heç bir-birini tanımır. İndi hər kəs işini-gücünü buraxıb hüquqların müdafiəsi ilə məşğul olmalıdır?

Bu müdaxiləm pirlərdə uzun qəhqəhələr doğurdu. İstər-istəməz utanıb-qızardım. "Yoxsa ağzımdan pis bir söz çıxdı" - deyə mat-mat ətrafa boylandım. Pirlərdən biri köməyimə çatdı:

- Oğlum! Sərbəst ölkədə sən güman etdiyin dərəcədə hüquqlar tapdanmır. Çünki Qanunda ayrıca maddə var.

- Anlamadım, ustad.

- İndi anladaram. İstər hökumət adamları, istərsə ayrı-ayrı vətəndaşlar bilirlər ki, hamı bir-birinin haqqını qorumağa hazırdır. Bu səbəbdən kiminsə haqqını pozmaqdan çəkinirlər. Deməli, bizim ölkəmizdə haqların pozulması elə də asan məsələ deyil.

- Amma ustad, bəs niyə haqqoruyuculuğunu vətəndaşın vəzifəsi sayırsınız? Tutalım, hər hansı vətəndaş bu vəzifəni görməsə suçlu hesab olunacaqmı?

- Əlbəttə! Ancaq fərq burasındadır ki, həmin vəzifəni görməyən vətəndaş yazılı və rəsmi qanunla deyil, ictimai rəylə üz-üzə gəlir. Yəni cəzasını da məhkəmənin hökmündən yox, ictimai rəyin nifrət və düşmənçiliyindən alır.

- Bəs ictimai rəyə bu səlahiyyəti kim verir?

- Oğlum, bilməlisən ki, xalq deyilən anlayış ictimai varlıqdır. Adamlar təkbaşına yaşasaydılar, hüquq anlayışı da yaranmazdı. Hüququn yaranması üçün, heç olmasa, iki insanın mənafeyi toqquşmamalıdır. Başqa sözlə, cəmiyyət həyatının doğulması şərtdir. Cəmiyyətdən qaynaqlanan bir hadisənin dəyişməzliyi və davamı üçün aydındır ki, cəmiyyət üzvlərinin himayəsinə ehtiyac var. Və bu da aydındır ki, ayrı-ayrı adamlar hüquqlara biganə, yad qalarsa, ədalət ortadan qalxar və cəmiyyət həyatı pozular. Bu üzdən də, cəmiyyət həyatının inkişafından ötrü,

həmin cəmiyyətin ayrı-ayrı üzvləri bir-birlərinin haqlarını gözləməli və o haqlara cavabdehliyi bölüşməlidirlər.

Hüquqlara qarşı vecsiz qalan cəmiyyətlərin yaşaya bilmədiyini, çiçəklənmədiyini görmürsənmi? Bu baxımdan, Şərqlə Qərb arasında adicə bir müqayisə məsələnin çözümünə kifayət edər. Şərqdə fərdlər hüquqlara qarşı duyğusuz, biganədirlər; bu gün birinin, sabah başqa birinin haqqı tapdalanır. Kimsə bundan üzülmür, heç kim hüquqların müdafiəsinə qalxmır. Getdikcə hamı eyni vəziyyətə düşür. Axırda, hüquq anlayışı yox olur və cəmiyyət cansız, hərəkətsiz bir oyuncaq kimi hara gəldi atılır.

Qərbdə isə bunun tam tərsidir. Kiminsə haqqı tapdanan zaman, digər vətəndaşlar buna qarşı çıxaraq ədaləti bərpa edir, hüquq pozucuları öz cəzasını alanacan mübarizələrinə ara vermirlər.

Nəticə də o olur ki, pozuntular və pozucular get-gedə azalır və bizim ölkədə olduğu kimi, haqsızlıqların tamamilə ortadan qalxdığı gün yetişir. Bu durumda haqqoruyuculuq vəzifəsi sənin güman etdiyin qədər ağır və çətinolmur. Başqasının haqqını qorumaq, əslində vətəndaşın öz hüquqlarının müdafiəsinə qalxması deməkdir. Bu haqq bu gün sənindir, sabah mənim, üçüncü gün də bir başqasının!

Bu, heç vaxt durmayıb axan elə bir sovqatdır ki, hər dəqiqə bir vətəndaşdan digərinə keçər və hər an bütün vətəndaşların birgə himayəsini və sayıqlığını istər. Belə ortaq himayə və qoruqçu vəzifəsini anlayan mühitlərdə, əslində hər dəfə bu işi görməyə ehtiyac qalmır. Çünki haqqı tapdayan qalmır. İndi anladınmı, oğlum?

- Anladım, ustad! Anladım ki, hüquqların qorunması on yüksək və ən şərəfli vəzifədir. Bunu gerçəkləşdirən hər bir vətəndaş öz ləyaqətini başqalarının ləyaqəti ilə birləşdirib bütövləşdirir.

Bir sualım da qalıb. Ancaq deyəsən vaxtımız uyğun deyil. Bizim bir təyyarəçi qızın uçuş mərasiminə dəvət olunduğumuzu siz də bilirsiniz. İndi vaxt çatıb. İcazə versəydiniz son sualımı sabaha saxlardım?

- Olsun! Biz də oraya dəvətliyik. Sabah yenə görüşərik.

## TƏYYARƏ MEYDANINDA

Təyyarə meydanı şəhərin kənarında yerləşirdi. Tanışlarımla bərabər oraya getdik. Bütün şəhər həmin meydana toplaşmışdı. Sərbəst ölkəni qəribə bir təlaş və həyəcan sarmışdı. Özünüz deyin, ölkənin 24 yaşlı bir qız övladı dağlar aşacaq, dənizlər, qitələr keçərək uzaq bir diyara gedəcəkdi. Bax, buna igidlik, cəsarət və ləyaqət deyərlər!.. Qızın bu təşəbbüsündən ölkənin bütün sakinləri uçub şadlanır, sevincdən, qürurdan özlərinə sığmırdılar. Yüzminlərcə insanın gözü bir nöqtəyə zillənmişdi. Hamı səbirsizliklə uçuş anmı gözləyirdi. Birdən-birə bütün bu izdihamın dilindən qopan "Yaşasın! Yaşasın!" nidaları ətrafı daha da canlandırdı. Odur, qəhrəman qız gəlir! Hər kəs onu görməyə can atır. Təyyarəçi paltarı geymiş ortaboylu, incə üzlü bir qız möhkəm və inamlı addımlarla irəliləyirdi. Hər yandan

alqış tufanları qoparkən, bu qız əlcəkli əllərini sağa-sola yelləyir, hamını salamlayaraq meydandakı təyyarəyə doğru gedirdi.

Bir neçə dəqiqədən sonra o, son dəfə izdihama əl eləyib təyyarəyə mindi və motoru işə saldı. Təyyarə nağıllardakı quş kimi fısıldadı və bir müddət yerdə sürünəndən sonra havaya qalxdı. Yüzminlərcə əl göyə yüksələrək qəhrəman qızla vidalaşır, uğurlu səfər diləyirdi. Qız da havadan dəsmal yelləməklə cavab verirdi...

Təyyarə get-gedə yüksələrək Qərbə səmt aldı və bir azdan görünməz oldu. Adamlar son dəfə "Yaşasın!" – deyə səslənib dağılmağa başladılar.

İndi o qız haralardadır? O yalnızca, təkbaşına uca göylərdə uçan 24 yaşındakı qız indi harada olar? Axı uca dağlar aşıb ucsuz-bucaqsız dənizlər keçəcək o qız başının üstündə tükənməz bir boşluq, ayağının altında dalğalanıb coşan, hər yana su püskürən bir su yığınından başqa nə görəcək ki?! Bəzən ayağının altını qalın və burum-burum burulan buludlar alacaq, o nəhayətsiz su da görünməyəcək! Bəzən təyyarə qorxunc bir küləyə çarpıb ildırım sürəti ilə aşağı şığıyacaq. Bəzən də buz və qar fırtınalarına baş vuracaq. Aman tanrım! Birdən olmadı elə, oldu bilə - təyyarənin bir yeri zədələndi, onda necə? Görəsən, qız bunu düşünürmü? Təlaş keçirirmi? Axı gecə gəlincə, günəş parıldamayacaq və bu qız adama ümid və sevinc gətirən gün işığından da məhrum qalacaq... Min bir qorxu yağdıran qaranlığa dalacaq və olsa-olsa, donuq ulduzların sönük işıltısı ona yol göstərəcək! Ancaq bütün bunlara baxmayaraq, bu qız zərif əllərini sükandan çəkməyəcək və gözlərini cürbəcür cihazlardan ayırmayacaq, olduğu yeri tapıb anlamağa çalışacaq!..

- 24 yaşında bir qız! Bu bir nağılını, əfsanəmi, gerçəkmi?

- Yox, yox! Bu bir gerçək! Həm də dəhşətli bir gerçək! Tanışım soruşdu:

- Nəyi dəhşətli gerçəkdir ki?

- Yaxşı mənada adamı sarsıdan bir gerçəkdir! Özün düşün, əzizim. Necə böyük istəyi, necə böyük iradəsi var! Nə qədər soyuqqanlıdır, əsəbləri möhkəmdir! Adamı bax bu sarsıdır ki, qız olasan, belə cəsarətli olasan! Bu qızları yetirənlə necə yarışa, necə yanaşı yaşaya bilərik? Bax, dəhşətli olanı da budur!

- Düzdür, düzdür! Bu baxımdan haqlısan!

- İndi 20 nəfər belə qız o qədər əhalisi olan Çinin, Hindistanın başına bəla gətirməzlərmi? Yerlə göyün arasında dayanıb - "Mən Yer üzünün allahıyam" desələr, başqalarının "bu nə baladır?!" söyləməkdən başqa çarəsi varmı?

- Dərdli sualdır!

- Dərdli olsa da çarəsiz deyil.

- Çarəsi nədir?

- Çalışmaq, gecə-gündüz bilmədən çalışmaq!

## UĞUR QAZANMAĞIN BİRİNCİ ŞƏRTİ

- Fəlakət odur ki, nə çalışırıq, nə də çalışmağı bacarırıq.

Amma öyrənməyə məcburuq. Dədə-babalarımızın günahı yerə-göyə sıxmayacaq qədər çoxdur. Onlar, çalışmadıqları bir yana, çalışmağın yolunu da öyrətməyiblər. Dipdiri və güclü bir millətin qol qüvvəsinə arxayın olaraq ağalıq ediblər. Nə qədər ki, dünyada qol gücü işləyib, onlar da ağalıq sürüblər. Ancaq dünya da dinc durmayıb, elə hey çalışıb. Beləcə, iki yeni və çox böyük gerçək sözünü deməyə başlayıb: bilik və yol. Qol gücü bu gerçəklərin önündə geri çəkilib. Elm və sənət birləşincə, bütün başqa güclərə üstün gəliblər. O andan başlayaraq bizim də cazibəmiz azalıb, ulduzumuz sönüb.

Ancaq vəziyyət hələ ki, ümidsiz deyil. Yanlışlarımızı anlayıb boynumuza almağımız yetər. Bu yanlışları bir az əvvəl anlayıb çarəsini tapsaydıq, indi qonşularla yanaşı, onlarla eyni vəziyyətdə irəliləyərdik.

Ancaq əsl fəlakətimiz ondadır ki, biz hələ guya nöqsanlarımızı boynumuza alsaq da əslində özümüzü div aynasında görürük. Yenə də hər şeyi ustadsız və başçısız gerçəkləşdirmək iddiasındayıq. Bizi yeyib içəridən gəmirən əsl xəstəlik də budur! Bu xəstəliyin dərmanını bilmirsinizmi?

- Elədir, haqlısan! Əsrimiz işin yolunu bilmək və informasiya əsridir. Təkcə adamların içində yox, millətlər arasında da çalışmaq uğur qazanmağın ilk şərtidir. Ancaq bilgisiz və yolsuz çalışmaq boş qabda hava döyməyə bənzəyir. Axı çalışmaq deyəndə, hər hansı bir sahədən təzə məhsul götürmək istəyi nəzərdə tutulur. Deməli, öncə həmin sahənin, sonra da həmin məhsulun nədən ibarət olduğunu bilmək lazımdır. Bu isə, aydındır ki, elm tələb edir. Ancaq elmdən faydalanmanın yolunu, üsulunu da bilmək önəmlidir, yoxsa elm də fayda verməz.

Bizim ölkəyə göz yetir: başdan-başa texnikadan yararlanır. Hər yanda insan yerinə maşın çalışır. Amma hər maşının üstündə bir insan əli və bir insan başı görürsən. Əslində cansız və donuq cisimlərdən ibarət olan bu maşınları hərəkətə gətirən də o əllər və beyinlərdir. İndi bir başqa incəliyə də diqqət yetir: hər maşına ayrıca bir əl, ayrıca bir baş göz olur! Çünki o maşını işlətmənin yolunu və o maşından faydalanmanın üsulunu yalnız həmin əl və həmin baş bilir! O maşını bir başqasına tapşırsanız, yəni bir başqa ələ versəniz, ya maşın qırılacaq, ya da ondan heç bir fayda gəlməyəcək.

- İndi biz, bax, həmin vəziyyətdəyik. Çalışmağına çalışırıq, ancaq biliksiz və yolsuz çalışdığımız üçün başqaları qədər faydalana bilmirik. Biliyi, informasiyanı önəmsiz sayan mühitlərin hamısı bizə bənzəyirlər. Bu mühitlərin bilik, informasiya anlayanlarla baş-başa gəlməsi imkansızdır. O qəhrəman qızın uçuşu, bax, buna görə məni dərdli fikirlərə saldı. Bax, buna görə öz-özümdən soruşdum: "Belə övladlar yetirən mühitlər var ikən, biz də biliksiz və məlumatsız qalırıqsa, bu mühitlərlə yarışa bilərikmi?"

Sonra da öz-özümə cavab verdim: "Unutma ki, biz hələ təzə başlamışıq. Dədə-balalarımızın xeyli günahı göz önündədir. Ancaq bu yola bizim kimi sonradan başlayanlar var axı! Onlar ki, uğur qazanıblar. Bizim nəyimiz əskikdir? Yoxsa biz adam deyilik, ya ağlımız, şüurumuz yoxdur? Çalışmağa həvəslənməyimiz, işin çəmini tapmağımız yetər!"

Sonra bir az düşünüb özüm-özümə yenə dedim: "əlbəttə yetər! Təskinlikdən başqa da yolun var?"

## CƏMİYYƏT HƏYATININ TƏMƏL DAŞI

Ertəsi gün pirlər gəldilər. Son sualımı verdim:

- Ustad, Nizamnamədəki "Qarşılıqlı yardım" ifadəsi nə deməkdir?

- "Qarşılıqlı yardım" deyərkən, vətəndaşların bir-birini düşünməsi və bir-birinə yardım göstərməsi nəzərdə tutulur. Bu qayda cəmiyyət həyatının özülü, təməl daşı sayılır.

"Qarşılıqlı yardım" iki cürdür: mənəvi və maddi. Özünü azad sayan, yəni öz-özünün ağası olan bir cəmiyyət üçün mənəvi yoxsulluq da, maddi ehtiyac da böyük ləkədir. Həmin cəmiyyət öz üzvləri arasında belə vətəndaşların varlığına dözməməlidir. Belə vətəndaşlar varsa, deməli, həmin cəmiyyət öz vəzifəsini yerinə yetirmir. Vətəndaş adlanan adam biliksiz və ya əxlaqsızdırsa, dilənçi, ya da acdırsa, buna cavabdehlik cəmiyyətin boynuna düşür. Bu cür cəmiyyət ya vəzifələrini anlamır, ya da onları yerinə yetirmir. Hər iki hal çox acınacaqlıdır.

- Fərd üçün, cəmiyyət üzvü üçün həmin cəmiyyətin cavabdehliyi nə deməkdir?

- Öncə bilməlisən ki, cəmiyyət fərdlərdən və fərdlərin birliyindən yaranır. Bu səbəbdən, hər bir cəmiyyət öz üzvlərinin hal və vəziyyəti ilə istər-istəməz, bağlıdır. Sonra azad və sərbəst ölkədə hər bir vətəndaş ölkənin ortaq taleyinə qatılır və seçki hüququndan faydalanaraq millət vəkillərini seçir, həmin vəkillər vasitəsi ilə qanunlar hazırlayır. Daha sonra yenə də millət vəkiləri və mətbuat vasitəsi ilə icra və məhkəmə hakimiyyətlərinə göz qoyur və beləcə ölkənin idarəçiliyinə qatılır. İndi soruşuram: dilənçi, əxlaqsız, ya da biliksiz və nə etdiyini bilməyən vətəndaşların bu yüksək vəzifələri layiqincə yerinə yetirəcəklərinə və hər kəsin bağlı olduğu ortaq taleni yaşayacağına cəmiyyət arxayın ola bilərmi?

- Əlbəttə yox !

- Deməli, vətəndaşların yoxsulluğunu, əxlaqsızlığını aradan qaldırmaq cəmiyyətin borcudur.

- Bəs o arzulanmaz hallar vətəndaşın öz istəyindən, öz iradəsindən doğursa, onda necə?

- Yenə də bunları aradan qaldırmağa çalışmaq cəmiyyətin borcudur. Çünki o cür iradə və arzu sahibi olan vətəndaş ya xəstədir, ya da yalnız öz xeyrini güdür. Birinci halda müalicəyə ehtiyacı var, ikinci halda cəmiyyətdən qırağa atılmalıdır.

- Müalicə necə olur?

- Savadsızdırsa - oxutmaqla, yoxsuldursa - iş tapıb işə göndərməklə, əxlaqsızdırsa - doğru yolu aşılamaq və cəza verməklə.

- Bu qədər işi kim görməlidir?

- Cəmiyyətin üzvləri və dövlət!

- Ustad, anlamadım axı. Adamlar və dövlət bu vəzifəni öz aralarında necə bölüşə bilər?

- Bölüşmürlər, birgə çalışırlar. Bir millətin önündə gedən ziyalı zümrə bax, bu sahədə öz şüur və vicdan dərəcəsini göstərir. Vəzifələrini anlayan bir mühitdə bilənlər bilməyənlərin, varlılar yoxsulların, əxlaqlılar əxlaqsızların köməyinə qaçar və minbir yolla, vasitə ilə ictimai yardım borcunu ödəyər.

Rəhbər təbəqə başçılıq mövqeyinə haqq qazandırmaq, onu möhkəmləndirmək üçün öhdəsinə götürdüyü vəzifəni yerinə yetirməlidir. Öz vəzifəsinə biganə və ögey yanaşan rəhbərlərin isə vəzifəsi müvəqqəti və keçicidir; oli maddi gücdən çıxan kimi, onun rəhbər mövqeyinin də sonu çatır.

- Ustad, dövlət bu vəzifəni necə gerçəkləşdirir?

- İctimai yardım qrupları yaratmaqla. Amma bu barədə danışmaqdansa, ölkəmizdəki belə müəssisələri sənə göstərmək daha faydalıdır. İşin yoxsa, elə indi gedək, tanış olaq.

Həvəslə razılaşdım.

## İBTİDAİ MƏKTƏBDƏ VƏ KİTABXANADA

Pirlər ilk əvvəl məni ibtidai məktəbə apardılar. Çox böyük bir bina idi. Burada, təxminən, 600 şagird oxuyurdu.

Pirlərdən biri həmin binanı mənə göstərib dedi:

- Belə ibtidai məktəb şəhərimizdə çoxdur. 6 yaşından 12 yaşınadək bütün oğlan və qızlar mütləq bu məktəblərə getməlidirlər. Varlı, ya yoxsul, - hamı öz uşağını məktəbə göndərməyə borcludur. Uşaqlar dövlət hesabına oxuyurlar. Kitab, dəftər-qələm və sair oxu gərəklərini də dövlət verir. Hətta nahar yeməyini də uşaqlar burada yeyirlər. Bax, buna görə də bizim ölkədə yazıb-oxumaq bilməyən vətəndaş qalmayıb.

- Ancaq ustad, bu dövlətə çox baha başa gəlmirmi?

- Buna milyardlar xərclənir. Ancaq dövlət heç nə itirmir. Axı biliklilərin sayəsində yurdumuz çox zənginləşib. Dövlətin büdcəsi də çox dolğundur.

- Verginin ağırlığı yoxsulları əzmir?

- Kimin sərvəti çoxdursa, vergilər də əsasən onlardan tutulur.

- Lap yaxşı. Amma zənginlər yoxsulların uşaqlarını oxutmağa məcburdurlarmı?

- Bəli, çünki birincisi, yuxarıda söylədiyimiz kimi, yoxsullar da vətəndaşdır. Və vətəndaşlar bir-birinə yardım göstərməyə borcludur. İkincisi,

varlılar da yoxsul uşaqlarının oxumasında gerçəkdən maraqlıdırlar. Axı bu uşaqlar, əvvəl-axır həmin varlıların müəssisələrində, fabriklərində, zavodlarında çalışacaq, adi işçi və ya usta olacaqlar. Oxuyub yazmaq bilən, anlayışlı bir işçinin məhsuldarlığı ilə savadsız bir fəhlənin məhsuldarlığı arasında böyük fərq var. Deməli, göstərdikləri fədakarlığın əvəzini artıqlamasilə alırlar.

- Haqlısınız, ustad!

- İndi də səni məktəbin yanındakı xalq kitabxanasına aparaq. Beş-on addım uzaqda yerləşən böyük binaya daxil olduq. Binanın ikinci mərtəbəsindəki geniş bir salonun dörd tərəfi kitablarla dolu idi. Ortadakı uzun masaların ətrafında yüzlərcə qadın və kişi kitab oxuyurdular.

Pirlərdən biri dedi:

- Şəhərin hər məhəlləsində bu cür xalq kitabxanası var. İbtidai məktəblərdə oxuyan uşaqlar böyüyəndon sonra boş vaxtlarının bir hissəsini burada oxuyub məlumatlanmaqla keçirirlər. İstəyənlər kitabı evinə də apara bilər. Bu yolla uşaqlıqdan qazandıqları yazıb-oxumaq vərdişlərini artırır, biliklərini çoxaldır, düşünməyə öyrənir və insanlığın ümumi acılarını, ümumi sevinclərini bilirlər.

- Bu ki çox gözəldir, ustad!

- Ancaq iş bununla da bitmir. Şəhərimizin bir neçə yerində xalq üçün ali bilik kursları açılıb. İstəyirsənsə, bunlardan birinə baş çəkək.

- Əlbəttə, istəyirəm!.

## AZAD İNSAN AC QALMAZ

Sıx sakinli bir məhəlləyə gəldik. Sonra böyük bir binaya daxil olduq. Burada adamlar qaynaşırdı. Qadın, kişi, qoca - hər yaşda adama rast gəlmək olardı. Binanın dörd tərəfində çoxlu hazırlıq kursları vardı. Birində kimya, o birində mexanika, digərində tarix, başqa birində ədəbiyyat və başqa dərslər keçirilirdi. Diqqət yetirəndə gördüm ki, sadə, xalqın anlayacağı bir dildə dərs verilir. Müəllimlər mətləbdən yayınmır, ümumi biliklərin öyrədilməsinə çalışırlar.

- Bu dərs deyənlər kişilərdir?

- Könüllü ziyalılar. Hamısı da bu işi öz istəkləri ilə və əməkhaqqı ummadan, yəni pulsuz görür. İndiyədək daim öz vəzifələrinin öhdəsindən gəliblər. Onların səy və qeyrəti sayəsində elmi-texniki, ədəbi-əxlaqi biliklər xalqımızın on geniş təbəqələrinə yetirilib. Buna görə də ümumi mədəni səviyyə hər gün yüksəlir!

- Ah, ustad! Belə ziyalılar yetirən mühit necə xoşbəxtdir.

Elədir. Ziyalılarımız xalqını sevir və xalqın qeyrətini çəkirlər. Sərbəst insanlar ölkəsi elə onların sayəsində ayrı-ayrı millətlər arasında ad çıxarıb!

İndi istəyirsənsə, iş, bürosuna da baş çəkək.

- Böyük həvəslə!

İş bürosu şəhərin fəhlələr yaşayan səmtində yerləşirdi. Büronun önündə xeyli fəhlə toplaşmışdı.

- Bunlar kimdir? - deyə soruşdum.

- İs, axtarıb tapmayanlardır. Ya bunlara iş tapılmalıdır, ya da onlar dövlətdən işsizlərə yardım vəsaiti almalıdırlar.

- Ustad! Dövlət bu qədər ağır yükə necə tablaşır?

- Tablaşmağa məcburdur. Yuxarıda izah etdiyim kimi, vətəndaşlıq ləyaqəti vətəndaşın ac qalmasına yol verə bilməz. Gözəl niyyətli, həm də çalışmaq istəyən bir vətəndaşın işsizlik ucbatından ac qalması zülm sayılır. Ləyaqəti və şərəfi olan bir cəmiyyət öz üzvlərinin belə bir zülmlə üzləşməsinə dözə bilməz. Ya işsizlərə iş verər, ya da iş tapana kimi onların qayğısına qalar. Vətəndaşlıq şərəfi və ləyaqəti haqqında bəşəri anlayışdan irəli gələn prinsiplər ölkəmizdə də qəbul edilib.

Büroya daxil olduq. Geniş bir salonun müxtəlif yerlərində çox sayda işçilər işsizlərlə danışır, bəzilərinin adını yazır, bəzilərinə isə ünvan verirdilər.

Ustad izahına davam edirdi:

- Kimə ünvan verilirsə, deməli, onlara iş tapılıb. İşdən boyun qaçıranlar birbaşa həbsxanaya göndəriləcəklər. Adları yazılanlar isə, onlara iş tapılınca, yardım alacaqlar.

- Necə gözəl və faydalı qurumdur!

- Vətəndaşlıq şərəfi bunu tələb edir. Azad insan ac qalmamalı, dilənçi olmamalıdır. Dilənçilik, həm vətəndən, həm də vətəndaşlıqdan ötrü bir ləkədir. Sərbəst ölkə bu ləkəni tamam silib, üstündən götürüb. Üstəlik, polis gücünə yox, öz üstünə götürdüyü vəzifəni yerinə yetirərək vətəndaşa qayğı göstərməklə.

Sərbəst ölkə təkcə işsizləri deyil, iş görə biləcək halı olmayan vətəndaşları da düşünür. Altmış yaşına çatmış və ya əlil olduğuna görə çalışacaq halı qalmayan vətəndaşların da həyatı sığorta edilir, onlara mənzil və yemək-içmək verilir.

- Aman ustad! Xəyalıma belə gəlməyən şeylər söyləyirsiniz. Yəni bunların hamısı həqiqətdir? Doğrudan da gerçəkləşdirilir?

- Əlbəttə, oğlum. Bizlər olmayanı demirik, olanı şişirtmirik. Hələ ölkəni başdan-başa saran xəstəxanalardan, sağlamlıq ocaqlarından, uşaq evlərindən, uşaq bağçalarından, cürbəcür xeyriyyə qurumlarından söz açmıram. Dövlət və cəmiyyət belə yerlərə ayrıca diqqət yetirir. Birgə səylər öz bəhrəsini verir.

## 10-15 GÜNLÜK MÖHLƏT

- Ustad, deməli buralar başdan-başa qardaşlıq yurdudur. Hər kəs bir-birini və dövlət də hamını düşünür. Hamı bir-birinin köməyinə çatır. Kimsə unudulmayıb, kimsə atılıb yalqız qalmayıb.

- Bəli, bəli! Bax, buna görə də, yurdumuzu belə çox sevirik, qorxu duyanda, bir yumruq kimi birləşirik. Vətənimizin hər zərrəsini qanımıza bulamadan, bu torpağı düşmən tapdağına vermərik!

- Deməli, milli varlığınızı tanıtdığınız qurumlardan alırsınız?

- Əlbəttə. Axı vətənpərvərlik sırf mücərrəd duyğu deyil. Axı ən ibtidai, ən ilkin insanlar da doğulub böyüdüyü yerləri sevirlər. Axı neçə-neçə xatirə, adət-ənənə və duyğu onları da öz yurduna bağlayır. Ancaq təkcə o duyğu hesabına hər hansı bir insana Vətəni və vətəndaşları uğrunda fədakarlıq aşılamaq yetərli deyil. İlkin duyğunun yüksək fədakarlıq dərəcəsinə çatması üçün gərək öz növbəsində Vətən də orada yaşayan insana maddi və mənəvi nemətlər, sevinclər versin.

Azadlıq, şərəf, can, mal güvənliyi, şəxsi toxunulmazlıq, məlumat almaq və bilik qazanmaq imkanı, yüksək mənəvi yetkinlik, yaxşı dolanışıq və xoşbəxtlik şərtdir. Yoxsa, haqqında danışdığımız duyğu ilkin halında qaldığından kiçik bir zərbəyə tab gətirə bilməz. Görmürsənmi, ibtidai icma çağında və ya istibdadın at oynatdığı mühitlərdə əhali qum yığınına bənzəyir və zəif bir küləkdən sovrularaq dağılıb gedir. Axı mənəvi və maddi nemətlər təmin etməyən, əksinə, həmişə özünü zülm və işgəncə, yoxsulluq və ehtiyac içində saxlayan bir mühitdən ötrü insan nə deyib özünü qurban verəcək ki?

Ancaq dediyim nemətləri təmin edən mühitlərə bax: orada fərdlər sal qaya kimi bir-birinə bitişikdir, ən şiddətli zərbələrə də birgə sinə gərirlər.

- Ah, ustad! Sizi dinlədikcə elə bil təzəcə dünyaya gəlirəm. Elə bil gözlərimi ilk dəfə açıb həyatın sirrlərini anlamağa başlayıram. Aman tanrım, bu azadlıq deyilən dirilik suyu nə qədər bərəkətli və hərəkətlidir.

- Bəli, bəli, istər fərdlər, istərsə cəmiyyətlər üçün həyatın əsası odur. Bax, bu üzdən, sərbəst ölkə azadlığı dirilik suyu sayar, şüurun cövhəri deyə tərənnüm edər. Onsuz kainat da, kainatın şüuru olan insan da heçlik səviyyəsinə enər. Soruşacağın başqa sual qaldımı?

- Xeyr, ustad!

- Elə isə sənə on beş günlük əlavə vaxt veririk. Bu müddət boyunca sərbəst ölkənin nizamnaməsi və onun maddələri haqqında açıqlamaları dərindən-dərinə düşünməlisən. Özünü yenidən yoxlayıb bizə son qərarını bildir.

***

Pirlər getdilər. Düşünməyə başladım. Özümə güvənə bilmirdim. Şübhə və tərəddüdlərim davam edirdi. Bura necə qəribə, necə heyrətamiz bir ölkədir! Heç bir şey bizimkinə bənzəmirdi. Hər şeyi yenidən öyrənmək, hər şeyə yenidən alışmaq lazım idi.

Ancaq mən nə qədər çabalayıb-çalışsam da, köhnə vərdişlərimdən tamam əl çəkə bilmirdim. Tutalım, bir adamı görərkən dilimin ucuna yenə köhnə sözlər gəlir, hər hansı vəzifəli şəxsin yanında əllərim, yalvarırmış kimi, mütləq sinəmdə qarmaq tək bir-birinə keçir, dodaqlarını gülümsəyir və mənə deyilən fikirlə razılaşmadığım halda, ağzımdan təsdiq və öygü kəlmələri çıxır!

Yan-yörəmə boylanan kimi hamının üstümə güldüyünü görürəm. Özümə gəlib utanıram. İçimdə özümə qarğışlar yağdırıram. Bir də belə etməyəcəyimə söz verirəm. Ancaq ikinci görüşdə yenə eyni şeylər təkrarlanır. Hərdən özümə qarşı qəzəbim o həddə çatırdı ki, özümü öldürməyi də ağlıma gətirirdim. Sonra bu

fikirdən də utanır, bu qədər zəif, bu qədər iradəsiz olduğumla razılaşmaq istəmirdim. O dəqiqələrdə öz-özümə bax bunları deyirdim: "Bu ölkənin tarixini oxudum. Gördüm ki, buranın da əhalisi vaxtilə bizimkilər kimi olub. Axı niyə bunlar dəyişə bilsinlər, amma bizlər yox? Axı heç şübhəsiz, bunların da başladıqları bir zaman olub. Onlar da başladıqları zaman əziyyət çəkiblər, qeyrət göstəriblər və axırda istədiklərini bacarıblar! İndi mənim bacarmamağıma ayrıca bir səbəb varmı? Yoxdur! Elə isə nədən ümidsizəm? Deməli, mən də qeyrət etməliyəm. Davranışıma göz qoymalıyam, sözlərimə, hərəkətlərimə diqqət yetirməliyəm və Nizamnamədəki maddələrə nöqtəbənöqtə əməl etməliyəm! Oldumu? Oldu! Mən də çalışıb-çarpışıb mütləq istədiyimi bacaracağam!"

Beləcə, ümidsiz düşüncələri beynimdən qovur, özümü dəyişilməyə çağırır və həvəsləndirirdim. Ancaq öyrəşdiyim vərdişləri tərgitmək beyindəki baxışlarını dəyişmək qədər asan deyil. Sözümə, davranışıma göz qoymayan kimi, yenə çıxmaza dirənir, ümidsizliyə düşürdüm. Uzun müddət beləcə ümidsizlik və ümid, çaşqınlıq və inam arasında vumuxub qaldım.

## İRADƏM YENİ BİR GÜC TAPDI

Nəhayət, bir gün ağlıma gələn bir fikirdən sanki qanadlandım. Elə bil ağlım da, beynimin dincliyi də yerinə gəldi.

Həmin gün birdən-birə özümə sual verdim: "Lap yaxşı, alışmayıb nə edəcəksən? Köhnə həyatamı dönəcəksən?".

Əvvəlki həyata qayıtmağı ağlıma gətirincə, sanki məni ildırım vurdu. Bu fikir mənə intihardan da qorxunc göründü. Axı bu diyarda bir həqiqət içimə qədər işləmiş, sarsılmaz bir inama çevrilmişdi: insanın, insana yaraşan yaşayışın nə olduğunu mən ilk dəfə bu diyarda öyrənmişdim. Ondan əvvəlki həyatım mənə yuxudan və ölümdən də qorxunc bir kölgə kimi görünürdü.

Artıq bu qənaətə gəlmişdim ki, bu yurda gəlməzdən öncə, mənim həyatım adicə bir olun həyatından da aşağı imiş. Axı ot özü-özünə, təbiət qanunlarına görə bitir, boy atır və sönüb gedir. Təbiət qanunlarından qıraqda heç bir şeyin önündə aciz qalmır və heç bir gücün əsirinə çevrilmir. Amma mən bu qanunların xaricində və onlara zidd olan min bir qüvvə qarşısında aciz və əsir idim: fikir köləliyi, duyğu köləliyi, davranış köləliyi taleyimə yazılmışdı. Düşünən, duyan, yaşayan mən deyildim, başqası idi. Mən yalnız başqasını yamsılamağa, başqasına baş əyməyə borcluydum. Mən, mən deyildim, onun kölgəsi, qaraltısı, qarabasması idim! Qısası, mən yoxdum, bir uydurma vardı!..

Ancaq bu yurda gəlincə mənliyim özümə qayıtdı, varlığımı duymağa başladım. İlk dəfə burada anladım ki, insan burada kainatın bəzəyi və başının tacıdır. Təbiət insanda tapır, onun iradəsinə tapınır, insanın beyni ilə özünü anlamağa və duymağa başlayır. Bu şüur və iradə susmaq üçün deyil, söyləmək üçündür. Ağlamaq üçün deyil, gülmək üçündür. Yamsılamaq üçün deyil, dirilik

üçündür. Dərd üçün deyil, dərman üçündür. Durğunluq üçün deyil, hərəkət üçündür. Yoxsulluq və ehtiyac üçün deyil, yaxşı dolanışıq və səadət üçündür. Bir sözlə, özünə yiyə durmaq, sözün tam mənası ilə sahib olmaq üçün insana şüur və iradə verilib. Bu ölkədə gördüklərim, duyduqlarım, eşitdiklərim insan haqqındakı bu qənaətləri mənə birdəfəlik aşılamışdı.

İndi əvvəlki həyata qayıtmaq, məndən ötrü ölümdən min dəfə qorxunc və dəhşətli görünürdü. Məgər ölmək şüur və iradəni itirmək deyilmi? Bunları itirən insan heç olmasa duymaz, eşitməz və duyub eşitmədiyi üçün əzab-əziyyət içində hər dəqiqə qıvrılmaz.

Şüur və iradə sahibiykən köhnə həyata qayıtmaq - öz iradə və şüurundan faydalanmamaq, diri-diri ölüyə çevrilmək deməkdir! Bu, məndən ötrü artıq bitib-tükənməyən bir işgəncədən başqa heç nə deyildi. Diri ikən ölüyə çevrilməyə dözə bilməzdim.

Sərbəst ölkə insanlarının həyatını dadandan sonra, köhnə həyatım mənə cəhənnəm kimi görünür və o həyatın xırdaca bir xatirəsi ağlımı başımdan çıxarırdı. Bu səbəbdən həmin həyata dönmək artıq mənim imkanım daxilində deyildi. Məni qanadlandıran, cəsarətimi artıran da bu idi. Nə olur-olsun, yeni həyata alışmağa, onun bütün şərtlərini mənimsəməyə qəti qərar verdim. Özümü möhkəm nəzarətə götürdüm. Sözlərimə, danışıq üslubuma, yaşayış tərzimə göz qoyub diqqət yetirdim. Köhnə baxışlarımı, köhnə düşüncəmi beynimdən çıxarmağa, insanlar və kainat haqqındakı fikirlərimi dəyişdirməyə başladım. Azadlığın tələb etdiyi şərtləri mənimsəməyə can atdım. Uzun sözün qısası, Nizamnamənin bütün maddələrini dərinliklərinəcən düşündüm və özümü dəyişdirib onlara uyğunlaşdırmağa çalışdım. Çox əziyyət çəkdim, amma nə etmək olar, təzə başlayanların və yeni öyrənənlərin qisməti bu deyilmi?

Deyim ki, bu zəhmətin bir qüruru, bir şərəfi də vardı. Heç olmasa, gələcək nəsillərin canı əzabdan qurtulacaq, o nəsillərin minnətdarlığı və sağolu qazanılacaqdı!

Kaş dədə-babalarımız bizdən əvvəl dəyişməyə başlayaydılar. İndi onları nə qədər hörmət və minnətdarlıqla yad edərdik! Nə yazıqlar ki, bu artıq mümkün deyil. Onların fəaliyyətsizliyini, süstlüyünü xatırlayıb gör nə qədər acı çəkəcəyik!

Bu fikirlərdən ürəklənib həvəsləndim. Yaşamaq yanğım, iradəm özünə yeni güc tapdı.

## AZADLIQ MƏLƏYİNİN QANADI ALTINDA

On beş gündən sonra pirlər gəldilər və: "hazırsanmı?" - deyə məndən soruşdular.

Son qərarını vermiş bir adam kimi: "hazıram!" - dedim.

- Elə isə səni and içməyə aparacağıq.

Pirlər məni bir evə apardılar. Evin qapısını açıb dəhlizə girdiyimiz zaman zülmət qaranlığa düşdük. Yaxşı ki, əllərində məşəl tutmuş ağappaq geyimli iki adam bizi dərhal qarşılayıb, yol göstərdi. Uzun və əyri-üyrü dolanbac dəhlizdən keçərək otağa daxil olduq. Çox qəribə otaq idi. Otağın tam ortasından asılmış çılçıraqdan saçılan işıq ətrafı görməyə imkan verirdi. Bir bucaqda mələk şəklində bir qız heykəli vardı. Üzbəüzdə bir insan skeletinin sür-sümüyü ağarırdı. Qıraqdakı divanın üstündə isə yeddi qoca əyləşmişdi.

Bizi görən kimi qocalar ayağa qalxıb salamlaşdılar. Onlardan biri mənə üz tutub dedi:

- Ey azad olmaq istəyən insan oğlu! Yaxşı düşündünmü? Qəti qərara gəldinmi?

- Düşündüm və qəti qərarımı verdim!

- Ancaq bunu bilməlisən ki, içəcəyin and həm müqəddəsdir, həm də sehrli! O andı bu gördüyün mələk qoruyub saxlayır! Bax, bu mələk insanı hər an və hər yerdə izləyir. Dönüklərə qənim olur, üzlərinə qara damğa vurur və adlarını əbədi qarğışlara bağlayır. Bax tarixə: neçə-neçə adamın taleyindən dərs al. Bu zavallılar elə bilmişdilər ki, azadlıq aldanmağa, biçiminin pozulmasına, qanundan olar sui-istifadə edilməsinə, ona verilən sözün tutulmamasına dözəcək. Amma çox nahaq! Bu mələk onları izləyirdi, heç bir dəqiqə də gözdən qoymurdu. Və zamanı çatınca, hamısının cəzasını verdi. Həmin cəzadan sonra yolunu azanların özü bir yana qalsın, adları da xalq arasında lənət və nifrətlə yad edildi.

İndi səni xəbərdar edirik: Özünə güvənmirsənsə, ürəyində xırdaca bir çaşqınlıq varsa, bu yoldan vaz keç, aldanıb-aldatmağa çalışma! Azadlıq şərəf verir, mənlik gətirir. Sayqı göstərir, əliaçıqlıq edir, ancaq aldandığını duyduğu dəqiqə bütün bunları geri götürərək vurulan ziyanın intiqamını, doğrulmayan yaxşılığın cəzasını yubatmır.

O diş ağardan sür-sümük yığınını görürsənmi? Hamımızın sonu budur! Həyat nə o şərəf və sayqıya dəyər, nə də bu əvəz və qarşılığa. Yenə təkrar edirəm: Nə qədər ki, vaxtın var, bir daha düşünüb qərarını ver!

- Qərarım qətidir!

- Elə isə, sağ əlini bu mələyin başına qoy və bizim söylədiklərimizi ucadan təkrar et:

"Azadlığa sadiq qalacağıma and içirəm!";

"Sərbəst İnsanlar Ölkəsi Qanununun bütün maddələrinə nöqtəbənöqtə əməl edəcəyimə and içirəm!";

"Olduğum hər yerdə Azadlığı yayacağıma və Qanunun maddələrini misal gətirəcəyimə and içirəm!";

"Azadlığı və Sərbəst İnsanlar Ölkəsinin Qanununu qorumaq üçün lazım gələrsə, öz xeyrimdən əl çəkməyə and içirəm!";

"Bu andlarımı pozsam, Azadlıq Mələyi mənim cəzamı versin!".

Daha sonra pirlərdən biri mənə imza vərəqəsi verdi. Orada andın mətni yazılmışdı. Vərəqəni imzaladım. Pirlər növbələşib tək-tək yanıma gəldilər, məni qucaqlayıb alnımdan öpdülər və təbrik edərək uğur dilədilər.

Az sonra məni gətirən üç pirlə bərabər and yerini tərk etdik.

İndən belə Sərbəst İnsanlar Ölkəsinin vətəndaşı sayılacaqdım. Duyduğum sevinci söyləməyə acizəm. Bütün həyatım boyu bu qədər dərin bir razılıq yaşamamışdım. Özümdə o vaxtadək duymadığım bir təzəlik, bir güc püskürtüsü hiss edirdim. Mənim gözlərimdə yer, göy, hər şey rəngini və mahiyyətini dəyişmişdi. Hər şeydə yeni bir gözəllik görürdüm. Hər şey məni yaşamağa səsləyirdi.

Anladım ki, bütün varlığımla Azadlıq Mələyinə vurulmuşam!!!

***4 iyun 1930-cu il***
***Keçi ören***

**Əhməd Ağaoğlu**

**Sərbəst insanlar ölkəsində**

**İlk nəşr: 1930, İstanbul.**

**Azərbaycan dilinə çevirənlər: Sevda İsmayılova,**

**Zeynal Məmmədli**

**Ön söz: Rəhman Bədəlov**

**Redaktor: f.e.d. Dilarə Mehdi**

**Tərtibat: Tərlan Qorçu**

**Kompüter işləri: İlham Əliyev**

**Kitab ABŞ Səfirliyinin qrantı hesabına hazırlanaraq nəşr edilib.**

**Azərbaycan Respublikası Mətbuat və İnformasiya**

**Nazirliyinin lisenziyası: seriya AB No.022063**

**© TUTU Nəşriyyatı**

**Bakı, 2001-ci il**